RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 160 (9327) 1 AVQUST 2023-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Ermənistanın hərbi təcavüzü nəticəsində 30 ilə yaxın işğal altında qalmış əzəli tarixi torpaqlarımız 44 günlük Vətən müharibəsində hərbi-siyasi yolla işğaldan azad olundu və şanlı Zəfərə aparan hər bir gün Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.

Rəşadətli Azərbaycan Ordusunun əsgər və zabitlərinin canı, qanı bahasına Vətən müharibəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələri, Xocavənd rayonunun Hadrut qəsəbəsi və bir çox kəndləri, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndi daxil olmaqla, ümumilikdə 300-dən çox yaşayış məntəqəsi, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklər işğaldan azad edildi. Qarabağın tacı Şuşa şəhərinin azad edilməsi və Ermənistanın kapitulyasiya aktını imzalamağa məcbur olması ilə müharibə başa çatdı.

Azərbaycanın döyüş meydanında qazandığı böyük qələbə siyasi müstəvidə də öz təsdiqini tapdı - Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarını işğaldan azad etmək məcburiyyətində qaldı və bununla da tarixi ədalət bərpa olundu.

30 illik işğal dövründə Ermənistan tərəfindən şəhərlərimiz, kəndlərimiz, qəsəbələrimiz viran edilmiş, mədəni irsimizə böyük zərbə vurulmuş, tarixi-mədəni və dini abidələrimiz, məscidlərimiz dağıdılaraq vandalizmə məruz qalmışdır. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur hazırda yenidən qurulur, ərazilər minalardan təmizlənir, sürətlə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır.

Məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasına başlanılmışdır. Artıq Zəngilan rayonunun Ağalı kəndinə, Tərtər rayonunun Talış kəndinə və Laçın şəhərinə məcburi köçkünlərin qayıdışı təmin olunmuşdur və bu istiqamətdə işlər davam etdirilir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Vətən müharibəsində əldə olunmuş tarixi qələbəni əbədiləşdirmək və işğaldan azad edilmiş şəhərlərin günlərini təsis etmək məqsədilə **qərara alıram:**

1. Hər il aşağıdakı günlər işğaldan azad edilmiş ərazilərdəki şəhərlərin günləri kimi təntənəli şəkildə qeyd olunsun:

26 avqust - Laçın şəhəri günü
4 oktyabr - Cəbrayıl şəhəri günü
17 oktyabr - Füzuli şəhəri günü
20 oktyabr - Zəngilan şəhəri günü
25 oktyabr - Qubadlı şəhəri günü
8 noyabr - Şuşa şəhəri günü
20 noyabr - Ağdam şəhəri günü
25 noyabr - Kəlbəcər şəhəri günü.

2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri ilə birlikdə bu Sərəncamdan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 iyul 2023-cü il*



## İlham Əliyevin ədaləti

### Azərbaycan xalqının faciəsinə səbəb olan terrorçular, cinayətkarlar mütləq layiqli cəzalarını almalıdırlar

**İkinci Qarabağ müharibəsindən sonra yaranmış yeni reallıqlara uyğun siyasət yürüdən İlham Əliyev həm də ədalət prinsiplərinə uyğun diplomatiyası ilə qətiyyətli mövqeyini bir daha dünyaya nümayiş etdirir.**

Qalib Ali Baş Komandan kimi məğlub Ermənistana çıxış yolu göstərən İlham Əliyevin regionun gələcək taleyi ilə bağlı irəli sürdüyü təkliflərin böyük dövlətlər, beynəlxalq təşkilatlar tərəfindən dəstəklənməsi təsdiq edir ki, Azərbaycan Prezidenti yalnız bölgədə sülhün, təhlükəsizliyin təmin olunması üçün çalışır.

#### İrəvanın Azərbaycana təzyiq etmək xülyası

Məğlub Ermənistanın sülh müqaviləsi imzalamaq əvəzinə siyasi şantajla məşğul olması onu göstərir ki, bu ölkə hələ də terrorçu niyyətindən, yaramaz xislətindən əl çəkə bilmir. Azərbaycanın guya Qarabağın erməni əhalisinə qarşı "humanitar fəlakət" həyata keçirməsi iddiası və 31 il əvvəl azərbaycanlılara qarşı XX əsrin faciəsini törətmiş erməni cəlladı Vaqif Xaçaturyanın saxlanılmasını "insan oğurluğu" adlandırması deyilənlərin təsdiqidir.

Həqiqət isə göz önündədir: Laçın sərhəd-buraxılış məntəqəsi açıqdır və Qarabağın erməni sakinləri buradan çox rahatlıqla hərəkət edə bilirlər. Yüklərin keçirilməsi üçün isə Azərbaycan yeni alternativ variant - Ağdam-Xankəndi yolundan istifadəni təklif edib. Lakin Ermənistan bu yoldan istifadə etməkdən imtina edir.

→ 8

## Ermənistan davamlı şəkildə pozucu fəaliyyət göstərir

### Antoni Blinken Prezident İlham Əliyevə zəng edib





**İyulun 29-da ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon danışığı zamanı Azərbaycanla Ermənistan arasında sülh prosesi üzrə danışıqlar və bölgədə son vəziyyət müzakirə olunub.

Ermənistan tərəfinin atdığı təxribatçı addımların sülh prosesinə maneçilik törətdiyini bildirən dövlətimizin başçısı vurğulayıb ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın suveren ərazisində qanunsuz olaraq qalmaqda davam etməsi bölgədə hərbi gərginlik mənbəyidir.

Dövlətimizin başçısı Ermənistan tərəfinin Laçın dövlət sərhədindən keçid məntəqəsində hərbi təxribat törətməsini, sərhədçilərimizi atəşə tutmasını, qaçaqmalçılığa cəhd edilməsini, icazəsiz yük avtomobillərinin Azərbaycana göndərməsini qeyd edib.

Prezident İlham Əliyev bildirib ki, Azərbaycan tərəfinin erməni sakinlərin ehtiyaclarının qarşılanması üçün Ağdam-Xankəndi yolundan istifadə etməklə bağlı təklif irəli sürməsinə və bunun Avropa İttifaqı, Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən dəstəklənməsinə baxmayaraq, Ermənistan bütün təkliflərə qarşı çıxıb. Erməni tərəfinin "humanitar vəziyyət" və "blokada" ilə bağlı iddiaları siyasi manipulyasiyadır.

Prezident İlham Əliyev bildirib ki, Ermənistanın davamlı şəkildə pozucu fəaliyyət göstərərək sülh danışıqlarına, eləcə də Azərbaycan və yerli erməni sakinlər arasında təmas və dialoqun inkişafına maneçilik törətməyə çalışması qəbuledilməzdir. Dövlətimizin başçısı Azərbaycan tərəfinin erməni sakinlərin reinteqrasiyası istiqamətində qərarlı olduğunu, bu məqsədlə Xocalıda birinci görüşün keçirildiyini, ikinci görüş üçün isə Azərbaycanın təklifinin təqdim edildiyini xatırladıb.

Antoni Blinken ABŞ-nin Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi üzrə müzakirələrə davamlı dəstəyini ifadə edərək, Laçın dövlət sərhədindən buraxılış məntəqəsi və digər alternativ yollar vasitəsilə keçidin önəminə, danışıqlardakı müsbət dinamikanın saxlanmasının əhəmiyyətinə toxunub.

Telefon danışığı zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat xidməti***

## Azərbaycanın və Türkiyənin xarici işlər nazirləri görüşüblər

"Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin ölkələrimiz arasında münasibətlərin inkişaf tarixində yeni mərhələnin əsasını qoyduğunu bildirən nazir Ceyhun Bayramov bundan sonra da əlaqələrimizin genişləndirilməsi istiqamətində əməli addımların atılacağını əminliklə vurğulayıb. Postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, işğaldan azad olunmuş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, Azərbaycanın sülh gündəliyinin 3 istiqaməti olan sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiyası və regional kommunikasiyaların açılması sahələrində apardığı fəaliyyəti, habelə Ermənistanın mövcud sülh gündəliyinin irəlilədilməsinə hədə törədən təxribatları barədə qarşı tərəfi ətraflı məlumatlandırıb.

→ 7

## Ermənistan müharibə canilərinin müdafiəsinə qalxıb

Ermənistan tərəfi beynəlxalq ictimaiyyətin fikrini yayındıran yalan məlumatlara və siyasi manipulyasiyalara əl atır və öz hərbi cinayətkarını müdafiə edir. Lakin uzun illər ərzində beynəlxalq hüququ kobudcasına pozan, 30 ilə yaxın işğal dövründə azərbaycanlılara qarşı soyqırımı daxil insanlıq əleyhinə ağır cinayətlər və kütləvi qırğınlar törədən şəxsləri müdafiə edən və onların əməllərini ört-basdır edən Ermənistanın indi beynəlxalq hüquqdan danışması gülüncdür.

Silahlı münaqişə qurbanlarını qorumaq üçün mandat almış Beynəlxalq Qırmızı Xaç Komitəsi humanitar fəaliyyət adı altında humanitar hüquq pozuntuları törətmiş və beynəlxalq axtarışda olan caniləri himayə etməklə özünə qarşı çoxsaylı şübhələrin əhatəsini bir az da artırmışdır.

→ 9

## Azadlığın təntənə günləri

### Prezident Vətən müharibəsindəki tarixi qələbənin əbədiləşdirilməsi istiqamətində daha bir mühüm sənəd imzaladı

**2020-ci ilin noyabrında Azərbaycanın şanlı tarixinə qızıl hərflərlə daha bir əlamətdar gün - Zəfər Günü yazıldı. Bu, Müzəffər Ali Baş Komandan İlham Əliyevin "Dəmir yumruq" əməliyyatı ilə qüdrətli ordumuzun 2020-ci il 8 noyabr tarixində Azərbaycanın qədim və tarixi şəhəri olan Şuşanın işğaldan azad etdiyi tarixdir.**

Bu tarixi günlə bağlı dekabr ayının 3-də Prezidentin imzaladığı sərəncamda qeyd olunurdu ki, hər bir azərbaycanlı üçün əziz olan Qarabağın incisi Şuşa şəhərinin noyabrın 8-də iyirmi səkkiz illik əsarətdən qurtarılması müharibənin taleyində həlledici rol oynayıb, düşmənin siyasi-hərbi rəhbərliyinin məğlubiyyəti etiraf etməsinə və hərbi əməliyyatları dayandırmasına səbəb olub.

→ 8

## Qisas qiyamətə qalmadı

Zaman böyük və ədalətli hakimdir. Zaman hər şeyi yerbəyer edir. Dünya belə vəhşiliklərə çox şahidlik edib. Əli insan qanına bulaşmış cəlladların cəzası verilib. İkinci Dünya müharibəsində yəhudilərə qarşı soyqırımında iştirak etmiş hərbi cinayətkarlar da günahsız insanları qətlə yetirərkən, qaz kameralarında yandırarkən cəzasız qalacaqlarını zənn edirdilər. Amma belə olmadı. Hər kəs layiq olduğu cəzanı aldı. Düzdür, canlarını xilas etmək üçün yaşayış yerlərini dəyişmək məcburiyyətində qalanlar da oldu. Amma onların bütün cəhdləri nəticəsiz qaldı.

→ 9

## Ermənilər isterikadadırlar

### "Kaş, türk olaydım, artıq xalqımın dəliliyinə baxa bilmirəm"

İşxan Verdyan Hayastan ictimaiyyətinin azərbaycanlılara qarşı soyqırımı törətmiş Vaqif Xaçaturyanın saxlanılmasına göstərdiyi isterik reaksiyaya münasibət bildirib. İşxan Verdyan fikirlərini özünün "Teleqram" kanalında paylaşaraq qeyd edib ki, Vaqif Xaçaturyanın Azərbaycan sərhədçiləri tərəfindən saxlanılmasını "oğurluq" kimi təqdim etmək Hayastan ictimaiyyətinin Bakının legitim addımlarını qəbul etmək istəməməsindən irəli gəlir: "Azərbaycan ermənilərin anlayışında kainatdan ayrı mövcuddur və əgər bir gün bütün azərbaycanlılar dəhşətli əzab içində ölsələr, həmin gün ermənilər üçün ən xoşbəxt gün olacaq. Şiddətli kin və reallıq hissinin itirilməsi...

→ 12

## Daşınmaz əmlak sahəsində tariflər azaldıldı

Yeni tariflərlə bir sıra güzəştlər nəzərdə tutulur. Bu güzəştlər çərçivəsində şəhid ailəsi üzvlərinin, hərbi əməliyyatlar nəticəsində əlil olmuş hərbi qulluqçu və mülki şəxslərin daşınmaz əmlaklarına, işğaldan azad olunmuş ərazilərdə yerləşən daşınmaz əmlak obyektlərinə münasibətdə xidmət haqqına 50 faiz güzəşt tətbiq olunur. Bununla yanaşı, kənd təsərrüfatı, sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqlar üzrə, eləcə də çoxmənzilli yaşayış binalarının inventarlaşdırılması üzrə tariflər azaldılıb.

→ 12

# "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında"Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 27-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 12, maddə 984; 2005, № 11, maddə 1004; 2007, № 6, maddə 562, № 10, maddə 938, № 12, maddə 1196; 2009, № 6, maddə 404, № 7, maddələr 507, 517; 2010, № 10, maddə 839; 2011, № 7, maddə 612; 2014, № 11, maddə 1371; 2015, № 6, maddə 684, № 11, maddə 1296; 2016, № 3, maddə 405, № 11, maddə 1771; 2017, № 5, maddə 740,№ 7, maddələr 1302, 1309, № 11, maddələr 1951, 1958; 2019, № 4, maddə 599, № 7, maddə 1180, № 8, maddə 1365; 2023, № 4, maddə 453)aşağıdakı dəyişiklər edilsin:

1.1. 3-cü maddə üzrə:

1.1.1. adına "idarələri" sözündən sonra "və yaratdığı hüquqi şəxslər" sözləri əlavə edilsin;

1.1.2. 3-cü maddənin mətni 3.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 3.2-ci maddə əlavə edilsin:

"3.2. Mərkəzi Bank öz məqsəd və funksiyalarının həyata keçirilməsi ilə əlaqədar, maliyyə bazarları infrastrukturunun fəaliyyətinin təmin edilməsi, habelə maliyyə bazarlarında çalışan əməkdaşların ixtisaslarının artırılması məqsədilə hüquqi şəxslər yaratmaq və (və ya) onlarda iştirak etmək hüququna malikdir.";

1.2. 4.2-ci və 5.0-cı maddələr aşağıdakı redaksiyada verilsin:

"4.2. Əsas məqsədinə xələl gətirmədən Mərkəzi Bank maliyyə bazarlarını tənzimləyən qanunlarla müəyyən edilmiş səlahiyyətlər daxilində maliyyə sabitliyini təmin edir.";

"5.1. Mərkəzi Bankın funksiyaları aşağıdakılardır:

5.1.1. dövlətin pul və məzənnə siyasətinin müəyyən edilməsi və həyata keçirilməsi;

5.1.2. nağd pul dövriyyəsinin təşkil edilməsi, Azərbaycan Respublikası Konstitusiyasının 19-cu maddəsinin II hissəsinə və bu Qanuna müvafiq olaraq pul nişanlarının tədavülə buraxılmasının və tədavüldən çıxarılmasının həyata keçirilməsi;

5.1.3. manatın xarici valyutalara nisbətdə rəsmi məzənnəsinin mütəmadi müəyyən edilməsi və elan edilməsi;

5.1.4. sərəncamında olan beynəlxalq qızıl-valyuta ehtiyatlarının saxlanması və idarə edilməsi;

5.1.5. beynəlxalq standart və metodologiyalara uyğun olaraq monetar, maliyyə bazarları və ödəniş sistemləri üzrə statistikanın, ölkənin tədiyə balansının, beynəlxalq investisiya balansının və icmal (dövlət və qeyri-dövlət) xarici borc statistikasının tərtib edilməsi, məlumatların ümumiləşdirilməsi və yayılmasının təmin edilməsi, habelə ölkənin tədiyə balansının proqnozlaşdırılmasında iştirak edilməsi;

5.1.6. maliyyə bazarlarının fəaliyyətinin sabitliyi və dayanıqlığının təmin edilməsi, maliyyə bazarlarında tənzimləmə və nəzarətin, o cümlədən makroprudensial tənzimləmə və nəzarətin həyata keçirilməsi;

5.1.7. ödəniş sistemlərinin sabit, təhlükəsiz və effektiv fəaliyyətinin təmin edilməsi, inkişafına dəstək verilməsi;

5.1.8. maliyyə bazarlarında istehlakçıların və investorların hüquqlarının qorunması üçün tədbirlərin görülməsi və maliyyə bazarları sahəsində maarifləndirmə işlərinin aparılması;

5.1.9. "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq valyuta tənziminin və nəzarətinin həyata keçirilməsi;

5.1.10. əmanətlərin sığortalanması sahəsində nəzarət sisteminin fəaliyyətinin təmin edilməsi;

5.1.11. bu Qanunda və digər qanunlarda nəzərdə tutulmuş başqa funksiyaların həyata keçirilməsi.";

1.3. 6-cı maddə üzrə:

1.3.1. maddənin mətni 6.1-ci maddə hesab edilsin və həmin maddəyə "qanuna" sözündən əvvəl "bu Qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, fəaliyyəti üzərində monitorinq həyata keçirə," sözləri əlavə edilsin;

1.3.2. aşağıdakı məzmunda 6.2-ci maddə əlavə edilsin:

"6.2. Mərkəzi Bank iqtisadi müstəqilliyə malikdir və aktivlərinin satışından və ya onlara digər tərzdə sərəncam verilməsindən daxil olan vəsaitlər onun gəlirlərinə aid edilir. Bu Qanunun 14-cü maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla Mərkəzi Bank dövlətin öhdəlikləri, dövlət isə Mərkəzi Bankın öhdəlikləri üçün cavabdeh deyildir.";

1.4. 7.2-ci maddə üzrə:

1.4.1. 7.2.1-ci maddədə "9" rəqəmi "10" rəqəmləri ilə əvəz edilsin;

1.4.2. 7.2.2-ci maddədə "9" rəqəmi "10" rəqəmləri ilə, "Mərkəzi Bankın İdarə Heyəti sədrinin - Mərkəzi Bankın sədrinin (bundan sonra - Mərkəzi Bankın İdarə Heyəti sədri)" sözləri "Mərkəzi Bankın sədrinin" sözləri ilə əvəz edilsin;

1.4.3. 7.2.4-cü və 7.3-cü maddələrdən "İdarə Heyətinin" sözləri çıxarılsın;

1.5. 8.1-ci maddədə "bütün banklar, bank olmayan kredit təşkilatları" sözləri "nəzarət etdiyi bütün subyektlər" sözləri ilə əvəz edilsin;

1.6. 9-cu maddə üzrə:

1.6.1. 9.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"9.1. Mərkəzi Bank məqsəd və funksiyalarından irəli gələn məsələlər üzrə xarici dövlətlərin mərkəzi bankları, beynəlxalq maliyyə-kredit təşkilatları və bu Qanunun 53-5-ci maddəsində nəzərdə tutulmuş qurumlarla öz adından əməkdaşlıq haqqında müqavilələr, həmçinin xaricdə yerləşən dövlət və özəl klirinq (prosessinq) idarələri ilə klirinq və hesablaşmalar haqqında sazişlər və başqa müqavilələr bağlaya bilər.";

1.6.2. 9.2-ci maddə ləğv edilsin;

1.6.3. 9.3-cü maddədə "valyuta" sözü "məzənnə" sözü ilə əvəz edilsin;

1.7. 13.1-ci və 13.2-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"13.1. Manatın məzənnəsinin və qızılın dəyərinin dəyişməsi ilə əlaqədar hesabat ili ərzində Mərkəzi Bankın balansında xarici valyutada və qızılda olan aktiv və passivlərin yenidən qiymətləndirilməsi nəticəsində yaranan gəlir (reallaşdırılmamış gəlir) yenidən qiymətləndirmə üzrə ehtiyatlara aid edilir və Mərkəzi Bankın kapital ehtiyatları və mənfəətinin sərbəst qalığının hesablanmasında nəzərə alınmır.

13.2. Xarici valyutada və qızılda olan aktiv və passivlərin yenidən qiymətləndirilməsi nəticəsində ilin sonuna yaranan zərər əvvəlki dövrlərdə yenidən qiymətləndirmə üzrə ehtiyatlar hesabına ödənilir, bu ehtiyatlar kifayət etmədikdə isə Mərkəzi Bankın kapital ehtiyatları hesabına təmin olunur.";

1.8. 15.1-ci maddə ləğv edilsin;

1.9. 18.2-ci maddədə "o cümlədən bank sistemi və bank" sözləri "maliyyə bazarları və Mərkəzi Bankın nəzarət etdiyi subyektlərin" sözləri ilə əvəz edilsin;

1.10. 21-ci maddə üzrə:

1.10.1. 21.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"21.1.İdarə Heyəti Mərkəzi Bankın kollegial ali idarəetmə orqanıdır. Mərkəzi Bankın İdarə Heyətinin tərkibi Mərkəzi Bankın sədri, Mərkəzi Bankda daimi əsaslarla işləyən altı üzv və iki kənar üzv daxil olmaqla doqquz üzvdən ibarətdir.";

1.10.2. 21.2-ci maddədə "qulluq mənafeyi əleyhinə" sözləri "korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlərə" sözləri ilə əvəz edilsin;

1.10.3. 21.6-cı maddədən "İdarə Heyətinin" sözləri çıxarılsın;

1.10.4. 21.7-ci maddədən birinci halda "İdarə Heyəti" sözləri çıxarılsın;

1.10.5. aşağıdakı məzmunda 21.7-1-ci maddə əlavə edilsin:

"21.7-1. Bu Qanunun 23.5-ci maddəsinin tələbləri nəzərə alınmaqla İdarə Heyətinin fəaliyyətinin davamlılığını təmin etmək məqsədilə İdarə Heyətinin səlahiyyət müddəti bitmiş üzvləri yeni müddətə üzvlər təyin edilənədək, lakin 3 aydan çox olmayan müddətdə öz səlahiyyətlərinin icrasını davam etdirirlər.";

1.10.6. 21.8-ci maddənin ikinci cümləsinə "hüquqi" sözündən əvvəl "digər" sözü əlavə edilsin, həmin cümlə üçüncü cümlə hesab edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Mərkəzi Bankın İdarə Heyətinin daimi əsaslarla işləyən üzvləri bu Qanuna uyğun olaraq Mərkəzi Bankın yaratdığı və ya iştirak etdiyi hüquqi şəxslərin icra orqanlarında vəzifə tuta bilməzlər.";

1.10.7. 21.9-cu maddə aşağıdakı redaksiyada verilsin:

"21.9. Mərkəzi Bankın İdarə Heyətinin üzvləri, habelə onların yaxın qohumları (ər-arvad, valideynlər, ər-arvadın valideynləri, baba, nənə, övlad, nəvə, övladlığa götürən, övladlığa götürülən, qardaş və bacı) Mərkəzi Bankın nəzarət etdiyi subyektlərdə və onlara aidiyyəti olan şəxslərdə birbaşa və ya dolayı yolla mühüm iştirak payına (nizamnamə kapitalının (şərikli kapitalın) 10 və ya daha çox faizini təşkil edən paya birbaşa və ya dolayı yolla sahiblik, yaxud iştirakçısı olduqları hüquqi şəxsin qərarlarının qəbul edilməsinə müqavilə əsasında mühüm təsir göstərmə imkanı) malik ola, habelə Mərkəzi Bankın yaratdığı və ya iştirak etdiyi hüquqi şəxslərdə təsisçi və ya iştirakçı ola bilməzlər.";

1.11. 22-ci maddə üzrə:

1.11.1. 22.0-cı, 22.0.1 - 22.0.18-ci maddələr müvafiq olaraq 22.1-ci, 22.1.1 - 22.1.18-ci maddələr hesab edilsin;

1.11.2. 22.1.1-ci maddədə "valyuta" sözü "məzənnə" sözü ilə əvəz edilsin;

1.11.3. 22.1.5-ci, 22.1.8-ci, 22.1.13-cü və 22.1.16-cı maddələrdən "müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmaqla," sözləri çıxarılsın;

1.11.4. aşağıdakı məzmunda 22.1.8-1 - 22.1.8-3-cü və 22.1.17-1 - 22.1.17-3-cü maddələr əlavə edilsin:

"22.1.8-1. maliyyə bazarlarını tənzimləyən qanunlara müvafiq olaraq bu sahədə lisenziyaların verilməsi və ləğv edilməsi barədə qərar qəbul edir;

22.1.8-2. maliyyə bazarlarını tənzimləyən qanunlarda nəzərdə tutulmuş hallarda Mərkəzi Bankın nəzarət etdiyi subyektlərdə müvəqqəti inzibatçının təyin olunması və fəaliyyətinə xitam verilməsi, habelə rezolyusiya tədbirlərinin görülməsi barədə qərar qəbul edir;

22.1.8-3. bu Qanunun 3.2-ci maddəsinə müvafiq olaraq hüquqi şəxslərin yaradılması və (və ya) onlarda iştirak barədə qərar qəbul edir;";

"22.1.17-1. sosial layihələrin (tədbirlərin) maliyyələşdirilməsi ilə bağlı qərar qəbul edir;

22.1.17-2. məşvərətçi daxili komitələr yaradır və onların əsasnamələrini təsdiq edir;

22.1.17-3. fond birjasından kənarda qiymətli kağızlar və törəmə maliyyə alətləri ilə ticarətin təşkil olunduğu digər ticarət sistemini müəyyən edir;";

1.11.5. 22.1.15-ci maddə aşağıdakı redaksiyada verilsin:

"22.1.15. Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin rəhbərini Naxçıvan Muxtar Respublikasında müvafiq icra hakimiyyəti orqanının səlahiyyətli nümayəndəsi ilə razılaşdırmaqla vəzifəyə təyin edir və vəzifədən azad edir;";

1.12. 23-cü maddə üzrə:

1.12.1. 23.2-ci (ikinci halda) maddədən, 23.3-cü maddənin birinci cümləsindən (ikinci halda) və 23.9-cu (ikinci halda) maddədən"İdarə Heyətinin" sözləri çıxarılsın;

1.12.2. 23.5-ci maddəyə "iclası" sözündən sonra "təyin edilmiş" sözləri əlavə edilsin;

1.12.3. 23.6-cı maddənin birinci cümləsinə "üzvünün" sözündən sonra "və ya bu Qanunun 21.9-cu maddəsində göstərilən yaxın qohumunun" sözləri əlavə edilsin;

1.13. 24-cü maddə üzrə:

1.13.1. adından, 24.1-ci (birinci halda) maddədən və 24.2-ci maddənin birinci abzasından "İdarə Heyətinin" sözləri çıxarılsın;

1.13.2. 24.2.5-ci maddədən "İdarə Heyəti sədrinin" sözləri çıxarılsın;

1.13.3.24.3-cü maddənin birinci və ikinci (birinci halda) cümlələrindən ismin müvafiq hallarında"İdarə Heyəti" sözləri çıxarılsın;

1.14. 25.1-ci maddənin birinci abzasında "İdarə Heyətinin sədri və" sözləri "sədri və İdarə Heyətinin" sözləri ilə əvəz edilsin;

1.15. 26.1-ci maddənin birinci cümləsindən və 26.2-ci maddədən "İdarə Heyəti" sözləri çıxarılsın;

1.16. 27.2-ci maddədən "İdarə Heyətinin" sözləri çıxarılsın;

1.17. 28.2-ci və 30.2-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"28.2. Pul siyasətinin əsas istiqamətlərində növbəti il üçün inflyasiya hədəfi və ona nail olmaq üçün istifadə olunacaq pul siyasətinin əsas alətləri, habelə pul siyasətinin həyata keçirilməsinə təsir edə biləcək mümkün risklər göstərilir.";

"30.2. Mərkəzi Bankın emissiya etdiyi qiymətli kağızların buraxılışı, yerləşdirilməsi, tədavülü və geri alınması şərtləri İdarə Heyəti tərəfindən müəyyən edilir. Mərkəzi Bank açıq bazar əməliyyatlarını tənzimlənən bazarla yanaşı, digər ticarət sistemində də apara bilər.";

1.18. 32-ci maddə üzrə:

1.18.1. 32.1-ci maddənin ikinci cümləsində "depozitlərin" sözü "öhdəliklərin" sözü ilə əvəz edilsin, həmin maddənin üçüncü cümləsindən "maliyyə bazarlarına nəzarət orqanı ilə razılaşdırılmaqla" sözləri çıxarılsın və həmin maddəyə aşağıdakı məzmunda dördüncü - altıncı cümlələr əlavə edilsin:

"Ölkədə makroiqtisadi sabitliyin, maliyyə bazarlarının dayanıqlığının və sabitliyinin təmin olunması məqsədilə Mərkəzi Bank saxlanılan məcburi ehtiyatlar üzrə kredit təşkilatlarına faizlər ödəmək hüququna malikdir. Faizlərin ödənilməsi barədə qərar Mərkəzi Bankın İdarə Heyəti tərəfindən qəbul edilir. Faizlər İdarə Heyətinin qərarında göstərilən müddətdə ödənilir və məcburi ehtiyatlar saxlayan bütün kredit təşkilatlarına şamil edilir.";

1.18.2. 32.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"32.2. Saxlama dövrü ərzində kredit təşkilatı tərəfindən məcburi ehtiyatların hesablanması və ya saxlanması qaydası pozulduqda Mərkəzi Bank saxlama dövründə məcburi ehtiyatların təmin edilməmiş məbləğinə aşağıdakı düsturla saxlama dövründə saxlanılmalı valyutanın emitenti olan Mərkəzi Bankın orta günlük uçot dərəcəsinin 2 misli, pozuntuya bir təqvim ili ərzində 3 və ya daha artıq halda yol verildikdə orta günlük uçot dərəcəsinin 3 misli məbləğində maliyyə sanksiyası tətbiq edir (bütün hallarda uçot dərəcəsi bir faizdən az olduqda maliyyə sanksiyasının hesablanması zamanı uçot dərəcəsi bir faiz kimi nəzərə alınır):

$$G_t = \frac{P_t * n_t * SD * b}{100 * 360}$$

Burada:

$G_t$- t saxlama dövründə məcburi ehtiyatların təmin olunmamış hissəsi üzrə ödənilməli maliyyə sanksiyasının məbləği

$P_t$- t saxlama dövrü üzrə məcburi ehtiyatların orta günlük təmin olunmamış hissəsi

$n_t$- t saxlama dövründə təqvim günlərinin sayı

$SD$- t saxlama dövründə valyutanın emitenti olan Mərkəzi Bankın orta günlük uçot (siyasət) dərəcəsi

$b$ - pozuntunun təkrarlanmasından asılı olaraq tətbiq edilən əmsal.";

1.18.3. aşağıdakı məzmunda 32.3 - 32.5-ci maddələr əlavə edilsin:

"32.3. Maliyyə sanksiyasının məbləği məcburi ehtiyatın təmin edilməməsi aşkar edildiyi gündən 5 (beş) iş günü müddətində bu halın aşkar edildiyi gün üçün Mərkəzi Bank tərəfindən müəyyən edilən rəsmi məzənnəyə uyğun olaraq manat ekvivalentində hesablanır və kredit təşkilatının Mərkəzi Bankdakı milli valyutada olan müxbir hesabından, bu hesabda kifayət qədər vəsait olmadıqda Mərkəzi Bankdakı xarici valyutada olan müxbir hesablarından (məcburi ehtiyatın təmin edilməməsinin aşkar edildiyi gün üçün Mərkəzi Bankın rəsmi məzənnəsinə uyğun olaraq) tutulur.

32.4. Məcburi ehtiyatlar normasının təmin edilməməsinə görə maliyyə sanksiyasının tətbiqi ilə yanaşı, Mərkəzi Bankın İdarə Heyəti müvafiq kredit təşkilatının açıq bazar əməliyyatlarında iştirakını və ya ayrı-ayrı bank əməliyyatları aparmasını məhdudlaşdırmaq hüququna malikdir.

32.5. Hər hansı kredit təşkilatında Mərkəzi Bankın tətbiq etdiyi likvidlik normativlərindən kəskin kənarlaşma halında Mərkəzi Bankın İdarə Heyətinin qərarı ilə həmin kredit təşkilatı məcburi ehtiyatların saxlanması tələbindən müvəqqəti azad edilə bilər.";

1.19. 36.3-cü maddəyə "yubiley" sözündən əvvəl "investisiya," sözü əlavə edilsin;

1.20. 37.0-cı, 37.0.1 - 37.0.6-cı maddələr müvafiq olaraq 37.1-ci, 37.1.1 - 37.1.6-cı maddələr hesab edilsin və aşağıdakı məzmunda 37.1.5-1-ci maddə əlavə edilsin:

"37.1.5-1. kredit təşkilatlarında və qanuna müvafiq olaraq ödəniş xidmətlərini həyata keçirən şəxslərdə kassa əməliyyatlarının aparılması qaydalarını, habelə həmin təşkilatlar tərəfindən istifadə olunan nağd pul avadanlıqlarına (pulsayan, nağd pulu emal edən və nağd pulun mədaxili və (və ya) məxarici əməliyyatlarını aparan digər avadanlıqlar) dair minimum tələbləri müəyyən edir;";

1.21. 38-ci maddə üzrə:

1.21.1. 38.1-ci maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Pul nişanlarının dizaynı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılır.";

1.21.2. 38.2-ci maddənin birinci cümləsində "Yubiley" sözü "İnvestisiya, yubiley" sözləri ilə əvəz edilsin və həmin maddənin ikinci cümləsinə "yubiley" sözündən əvvəl "investisiya," sözü əlavə edilsin;

1.22. 39.5-ci maddə ləğv edilsin;

1.23. 40-cı maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 40. Pul nişanlarının dəyişdirilməsi**

40.1. Mərkəzi Bank tədavülə yararlı pul nişanlarını məhdudiyyətsiz dəyişdirir.

40.2. Bütöv bir hissədən və ya eyni kağız pul nişanına məxsus ardıcıl hissələrdən ibarət, səthinin 60 faizindən az olmayan hissəsini və üzərindəki iki seriya nömrələrindən ən azı birini tam saxlamış pul nişanının nominal dəyəri Mərkəzi Bank tərəfindən ödənilir.

40.3. Eyni kağız pul nişanına məxsus ardıcıl olmayan hissələrdən ibarət, səthinin 60 faizindən az olmayan hissəsini və üzərindəki hər iki seriya nömrəsini tam saxlamış pul nişanının nominal dəyəri Mərkəzi Bank tərəfindən ödənilir.

40.4. Bütöv səthinin üzərindəki təsvir və yazıları onun nominalını müəyyənləşdirməyə imkan verən həcmdə saxlamış və deformasiyaya məruz qalmamış metal pul nişanının nominal dəyəri Mərkəzi Bank tərəfindən ödənilir.

40.5. Təqdim olunan pul nişanının saxta olması müəyyən edildikdə həmin pul nişanı dəyişdirilmir və onun nominal dəyəri ödənilmir. Saxta pul nişanı geri qaytarılmır və qanunvericiliklə müəyyən edilən tədbirlərin görülməsi üçün aidiyyəti dövlət orqanına (qurumuna) göndərilir.

40.6. Xarici valyutada olan pul nişanları Mərkəzi Bank tərəfindən dəyişdirilmir. Xarici valyutada saxta pul nişanlarına bu Qanunun 40.5-ci maddəsi şamil edilir.";

1.24. aşağıdakı məzmunda 41-1-ci maddə əlavə edilsin:

**"Maddə 41-1. Pul nişanlarının reproduksiyası**

41-1.1. Pul nişanlarının reproduksiyası (bənzədilmiş surətdə hazırlanması) Mərkəzi Bankın müəyyən etdiyi qaydada həyata keçirilir.

41-1.2. Reproduksiya qaydalarını pozmaqla hazırlanmış pul nişanları saxta hesab olunurlar.";

1.25. 42.2.5-ci maddədə "qiymətli borc" sözləri "borc qiymətli" sözləri ilə əvəz edilsin;

1.26. VIII fəsil ləğv edilsin;

1.27. IX fəsil aşağıdakı redaksiyada verilsin:

**"IX fəsil**
**Maliyyə bazarlarının tənzimlənməsi və nəzarət**

**Maddə 46. Nəzarət subyektləri ilə münasibətlər**

46.1. Mərkəzi Bank maliyyə bazarlarının fəaliyyətinin sabitliyi və dayanıqlığını təmin etmək məqsədilə banklar, bank olmayan kredit təşkilatları, sığorta bazarının peşəkar iştirakçıları, investisiya şirkətləri və qiymətli kağızlar bazarında digər lisenziyalaşdırılan şəxslər, investisiya fondları, investisiya fondunun idarəçiləri, klirinq (prosessinq) fəaliyyətini həyata keçirən şəxslər, kredit büroları və maliyyə bazarlarını tənzimləyən qanunlarla Mərkəzi Bankın nəzarət etdiyi subyektlər kimi müəyyən edilən digər şəxslərin (nəzarət subyektlərinin) fəaliyyətinin lisenziyalaşdırılmasını, tənzimlənməsini və fəaliyyətləri üzərində nəzarəti həyata keçirir.

46.2. Mərkəzi Bank tənzimləmə və nəzarət tədbirlərini həyata keçirərkən bu Qanunu, Azərbaycan Respublikasının Mülki Məcəlləsini, "Banklar haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "Kredit ittifaqları haqqında", "Sığorta fəaliyyəti haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "İnvestisiya fondları haqqında", "Valyuta tənzimi haqqında", "Əmanətlərin sığortalanması haqqında", "Poçt haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında","Hədəfli maliyyə sanksiyaları haqqında","Kredit büroları haqqında" Azərbaycan Respublikasının qanunlarını, habelə maliyyə bazarlarını tənzimləyən digər qanunları (bundan sonra - maliyyə bazarlarını tənzimləyən qanunlar) və bu sahələrdə qabaqcıl beynəlxalq prinsip və standartları rəhbər tutur.

46.3. Mərkəzi Bank maliyyə bazarlarını tənzimləyən qanunlarla əhatə olunan sahələr, habelə istehlakçıların və investorların hüquqlarının qorunmasından irəli gələn hallar istisna olmaqla, nəzarət subyektlərinin cari fəaliyyətinə qarışmır.

46.4. Nəzarət subyektləri Mərkəzi Bankın öhdəlikləri üçün, Mərkəzi Bank isə nəzarət subyektlərinin öhdəlikləri üçün məsuliyyət daşımır.

**Maddə 47. Ödəniş sistemlərinin təşkili**

47.1. Mərkəzi Bank ölkə ərazisində fəaliyyət göstərən banklar, xarici bankların yerli filialları və poçt rabitəsinin milli operatoru arasında milli valyutada hesablaşmaların həmin təşkilatların Mərkəzi Bankda açdıqları müxbir hesablar vasitəsilə həyata keçirilməsini təşkil edir.

47.2. Mərkəzi Bank ödəniş xidmətləri təchizatçıları tərəfindən ödəniş əməliyyatlarının aparılması və onlar arasında hesablaşmaların həyata keçirilməsi qaydalarını, həmçinin ödəniş alətlərinə dair tələbləri müəyyən edir.

47.3. Mərkəzi Bank Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və digər normativ-hüquqi aktlara uyğun olaraq bank hesablarının növlərini, onların açılması, aparılması və bağlanması qaydalarını, habelə bank hesablarının strukturunu müəyyən edir.

47.4. Ödəniş sistemlərinin inkişafını dəstəkləmək məqsədilə Mərkəzi Bank ödəniş sistemlərinin iştirakçıları arasında tətbiq edilən xidmət haqqı tariflərinin (interçeyncin) yuxarı həddini müəyyən etmək hüququna malikdir.

**Maddə 48. Tənzimləmə və nəzarət**

48.1. Maliyyə bazarlarını tənzimləyən qanunlarda nəzərdə tutulduğu halda nəzarət subyektlərinin fəaliyyətinin tənzimlənməsi üzrə Mərkəzi Bank:

48.1.1. nəzarət subyektlərinin fəaliyyətini, o cümlədən prudensial fəaliyyətini və bazar davranışını tənzimləyən normativ xarakterli aktlar qəbul edir;

48.1.2. nəzarət subyektlərinin fərdi və konsolidasiya əsasında hesabatlarının tərtib və təqdim edilməsi qaydalarını müəyyən edir;

48.1.3. nəzarət subyektlərinin sistem əhəmiyyətliliyi meyarlarını müəyyən edir;

48.1.4. nəzarət subyektlərinin fəaliyyətinin tənzimlənməsi ilə bağlı digər səlahiyyətləri həyata keçirir.

48.2. Maliyyə bazarlarını tənzimləyən qanunlarda nəzərdə tutulduğu halda nəzarət subyektlərinin fəaliyyətinə nəzarət üzrə Mərkəzi Bank:

48.2.1. nəzarət subyektlərinin fəaliyyətinə dair lisenziya və icazələr verir, onları məhdudlaşdırır, dayandırır və ləğv edir;

48.2.2. nəzarət subyektlərindən prudensial, statistika, maliyyəvə digər hesabatları alır və təhlil edir;

48.2.3. nəzarət subyektlərində yerində yoxlamalar aparır;

48.2.4. nəzarət subyektləri və onların rəhbər işçilərinə qarşı təsir, təshih tədbirləri və sanksiyalar tətbiq edir, habelə nəzarət subyektlərinin fəaliyyətində aşkar olunmuş pozuntuların aradan qaldırılması və ya pozuntulara səbəb ola biləcək halların qarşısını almaq məqsədilə icrası məcburi olan digər göstərişlər verir;

48.2.5. cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə nəzarət etdiyi subyektlərə münasibətdə sahəvi risk qiymətləndirməsini həyata keçirir və risk qiymətləndirilməsinin nəticələrini təhlil edir;

48.2.6. nəzarət subyektinə müvəqqəti inzibatçı təyin edir, rezolyusiya tədbirlərini həyata keçirir;

48.2.7. nəzarət subyektinin məcburi ləğvi və ləğvedicinin təyin edilməsi barədə məhkəməyə müraciət edir;

48.2.8. nəzarət subyektlərinə nəzarətlə bağlı digər səlahiyyətləri həyata keçirir.

48.3. Mərkəzi Bank nəzarət subyektlərinin fəaliyyətinin tənzimlənməsi və fəaliyyətinə nəzarətlə bağlı həmçinin aşağıdakı səlahiyyətlərə malikdir:

48.3.1. nəzarət tədbirləri çərçivəsində nəzarət subyektinin səlahiyyətli idarəetmə orqanlarının iclaslarının, o cümlədən növbədənkənar iclaslarının keçirilməsini tələb etmək, həmin tələb yerinə yetirilmədikdə səlahiyyətli idarəetmə orqanlarının və daxili komitələrinin iclaslarını çağırmaq və (və ya) həmin iclaslarda müşahidəçi qismində iştirak etmək;

48.3.2. nəzarət subyektinin fəaliyyətinin monitorinqi məqsədilə bu Qanunun 53-2-ci maddəsinə uyğun olaraq nəzarət subyektinə səlahiyyətli nümayəndə göndərmək;

48.3.3. bu Qanunun 53-3-cü maddəsinə uyğun olaraq əsaslandırılmış mülahizədən istifadə etmək;

48.3.4. nəzarət subyektlərində informasiya təhlükəsizliyinin təmin edilməsinə dair minimum tələbləri müəyyən etmək və kibertəhlükəsizlik sahəsində nəzarət subyektlərinin fəaliyyətini əlaqələndirmək;

48.3.5. maliyyə bazarları sahəsində tənzimləmə və nəzarət funksiyalarının həyata keçirilməsi ilə əlaqədar, o cümlədən lisenziya və icazələrin verilməsi zamanı müraciətlərə baxarkən aidiyyəti dövlət orqanlarına (qurumlarına) sorğu ilə müraciət etmək və onlardan zəruri məlumatları almaq;

48.3.6. istehlakçıların və investorların hüquqlarının qorunması məqsədilə Mərkəzi Bank tərəfindən müəyyən edilmiş qaydaya uyğun olaraq maliyyə xidmətlərinin (məhsullarının) test məqsədli alışını həyata keçirmək;

48.3.7. nəzarət subyektlərinin fəaliyyəti ilə bağlı tövsiyə xarakterli metodoloji sənədlər qəbul etmək;

48.3.8. maliyyə bazarlarında istehlakçıların və investorların qanuni maraqlarının pozulması və ya pozulmasına şərait yaradan halların aradan qaldırılması barədə nəzarət subyektlərinə icrası məcburi olan göstərişlər vermək;

48.3.9. nəzarət subyektinə aidiyyəti olan şəxslərin aşkar edilməsi üçün digər qurumlardan mühüm iştirak payına malik olan şəxslər barədə, habelə həmin şəxslərin cari fəaliyyətinə və hüquqi şəxs olduqda, onların idarə edilməsinə aid lazımi məlumat və sənədləri əldə etmək.

48.4. Mərkəzi Bank maliyyə bazarlarının sabitliyini və dayanıqlılığını qorumaq məqsədilə nəzarət tədbirləri çərçivəsində əldə etdiyi informasiyanın konfidensiallığını təmin edir.

48.5. Mərkəzi Bankın tənzimləmə və nəzarət funksiyalarının icrası ilə əlaqədar qəbul etdiyi qərarlar barəsində mübahisələrə məhkəmə qaydasında baxılır. Qərardan şikayətin verilməsi onun icrasını dayandırmır.

**Maddə 49. Risk əsaslı tənzimləmə və nəzarətin həyata keçirilməsi**

49.1. Effektiv tənzimləmə və nəzarətin həyata keçirilməsi məqsədilə maliyyə bazarlarında tənzimləmə və nəzarət risk əsaslı yanaşma əsasında həyata keçirilir və bu məqsədlə nəzarət subyektlərinin biznes modeli, risklərinin qiymətləndirilməsi, daxili nəzarət və risklərin idarə edilməsi sistemləri, kapitalı, gəlirliliyi və digər risk faktorları nəzərə alınmaqla onların risk profili müəyyən edilir.

49.2. Mərkəzi Bank maliyyə bazarlarını tənzimləyən qanunlarda nəzərdə tutulmuş hallarda nəzarət subyektlərinin sistem əhəmiyyətliliyi və (və ya) risk profili nəzərə alınmaqla onlar üçün fərqli normativlər və tələblər müəyyən etmək hüququna malikdir.

**Maddə 50. Xüsusi tənzimləmə rejimi**

50.1. Mərkəzi Bank maliyyə bazarlarında innovativ xidmət və məhsulların (bundan sonra - innovativ məhsulların) sınaqdan keçirilməsi məqsədilə xüsusi tənzimləmə rejimi tətbiq edə bilər. Xüsusi tənzimləmə rejimi hüquqi şəxslər tərəfindən innovativ məhsulların məhdud çərçivədə (ərazi, müddət, əməliyyatların sayı, həcmi, iştirakçıların sayı ilə bağlı və ya digər məhdudiyyətlər) və Mərkəzi Bankın nəzarəti altında sınaqdan keçirilməsini tənzimləyən qaydalar toplusudur.

50.2. Xüsusi tənzimləmə rejimi aşağıdakı prinsiplər əsasında tətbiq edilir:

50.2.1. xüsusi tənzimləmə rejimində bərabər iştirakın təmin edilməsi;

50.2.2. xüsusi tənzimləmə rejiminin iştirakçısı (xüsusi tənzimləmə rejimində innovativ məhsulları təqdim edən şəxs) tərəfindən istehlakçıların hüquqlarının və qanuni mənafelərinin qorunmasının təmin edilməsi.

50.3. Xüsusi tənzimləmə rejiminin tətbiqi ilə bağlı qaydalar, o cümlədən xüsusi tənzimləmə rejimində iştirak üçün müraciət edən hüquqi şəxslərə, habelə sınaqdan keçiriləcək məhsula dair tələblər, xüsusi tənzimləmə rejimində iştirak etmək hüququna xitam verən hallar, rejim iştirakçılarına qüvvədə olan maliyyə bazarlarını tənzimləyən qanunvericiliyin tətbiq edilməsi şərtləri və proseduru, rejim iştirakçılarının fəaliyyətinə nəzarətin həyata keçirilməsi və rejimin tətbiq edilə bildiyi maksimum müddət, lakin 5 (beş) ildən çox olmayaraq Mərkəzi Bank tərəfindən müəyyən olunur.

50.4. Xüsusi tənzimləmə rejiminin iştirakçısı innovativ məhsulların sınağını Mərkəzi Bankla bağlanılmış müqaviləyə uyğun olaraq həyata keçirir. Müqavilədə ən azı sınağın həyata keçirilməsi şərtləri, tərəflərin hüquq və öhdəlikləri, sınağın keçirilmə müddəti, müqaviləyə xitam verilməsi halları və qaydası nəzərdə tutulur.

50.5. Xüsusi tənzimləmə rejiminin iştirakçısı müvafiq məhsul istifadəçisini bu barədə xəbərdar etməlidir.

50.6. Xüsusi tənzimləmə rejimi çərçivəsində qanunvericilikdə aşkar edilən boşluqların aradan qaldırılması və ya fərqli qaydaların müəyyən edilməsi zərurəti ilə əlaqədar Mərkəzi Bank təkliflərini müvafiq qaydada təqdim edə bilər.

50.7. Xüsusi tənzimləmə rejimində iştirakına xitam verilməsi rejim iştirakçısını məhsul istifadəçisi və digər şəxslər qarşısında həmin ana qədər yaranmış öhdəliklərindən azad etmir.

50.8. Mərkəzi Bank rəsmi internet səhifəsində rejim iştirakçılarının reyestrini dərc edir. Reyestrə rejim iştirakçısının adı, internet səhifəsi (varsa), əlaqə məlumatları (telefon, elektron poçt ünvanı və.s.), təqdim etdiyi innovativ məhsul, sınağın keçirilmə müddəti, sınaq nəticələri və sınağa vaxtından əvvəl xitam verildiyi halda bu barədə məlumatlar daxil edilir.

*Ardı 3-cü səh.*

# "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında"Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 2-ci səh.*

**Maddə 51. Lisenziya və icazə**

51.1. Maliyyə bazarları sahəsində lisenziyaların (icazələrin) verilməsi, verilmiş lisenziyaların (icazələrin) qüvvəsinin dayandırılması, məhdudlaşdırılması və ləğv edilməsi maliyyə bazarlarını tənzimləyən qanunlara uyğun olaraq Mərkəzi Bank tərəfindən həyata keçirilir.

51.2. Lisenziya və icazələrin verilməsi üçün təqdim olunan sənədlərin forma və məzmunu Mərkəzi Bankın normativ xarakterli aktları ilə müəyyən edilir.

51.3. Mərkəzi Bank maliyyə bazarlarında lisenziya (icazə) tələb edən fəaliyyətin müvafiq lisenziya (icazə) olmadan göstərilməsi faktını aşkar etdikdə belə fəaliyyətlə məşğul olan şəxslərə bu fəaliyyətin və təqdim edilən xidmətin (məhsulun) reklamının və ya hər hansı digər formada yayımlanmasının dərhal dayandırılması tələbi barədə bildiriş təqdim edir, bu barədə məlumatı özünün rəsmi internet səhifəsində və mediada açıqlayır, habelə qanunvericiliklə müəyyən edilən tədbirlərin görülməsi üçün aidiyyəti dövlət orqanına (qurumuna) müraciət edir.

51.4. Mərkəzi Bank nəzarət subyektlərinə verdiyi lisenziya və icazələrin ictimaiyyət üçün açıq olan mərkəzi reyestrini tərtib edir. Reyestrə nəzarət subyektlərinin və onların filial, şöbə və nümayəndəliklərinin adları, ünvanları, rəhbər şəxslərinin adları, verilmiş lisenziya və icazələrin qeydiyyat nömrələri və tarixi, qüvvəsi məhdudlaşdırılmış, dayandırılmış və ləğv edilmiş lisenziyalar və icazələr barədə, habelə maliyyə bazarlarını tənzimləyən qanunlarda nəzərdə tutulmuş hallarda digər məlumatlar daxil edilir.

**Maddə 52. Yoxlamalar**

52.1. Mərkəzi Bank nəzarət subyektinin maliyyə dayanıqlılığını, risk profilini qiymətləndirmək, nəzarət subyektinin fəaliyyətinin maliyyə bazarlarını tənzimləyən qanunlara və normativ xarakterli aktlara uyğunluğunu yoxlamaq, tətbiq edilmiş təsir, təshih tədbirlərinin və sanksiyaların, icrası məcburi olan digər göstərişlərin icra vəziyyətini müəyyən etmək məqsədilə yoxlamalar keçirir.

52.2. Yoxlamalar dövriliyinə görə planlı və plandankənar, əhatə dairəsinə görə hərtərəfli və ya tematik olaraq bu Qanuna və Mərkəzi Bankın normativ xarakterli aktları ilə müəyyən etdiyi qaydalara uyğun olaraq aparılır. Bu zaman yoxlamaların müddəti 45 (qırx beş) iş günündən çox olmayaraq müəyyən edilir. Yoxlamanın aparılması məqsədilə müəyyən edilmiş müddət yoxlamanın başa çatdırılması üçün kifayət etmədikdə Mərkəzi Bankın sədri və ya onun səlahiyyət verdiyi şəxsin müvafiq qərarı əsasında yoxlama ən çoxu növbəti 45 (qırx beş) iş günü müddətinə qədər uzadıla bilər.

52.3. Planlı yoxlamalar nəzarət subyektinin risk profilinə uyğun olaraq Mərkəzi Bank tərəfindən müəyyən edilən yoxlamalar planı üzrə aparılır. Planlı yoxlamalar hərtərəfli və ya tematik olmaqla eyni nəzarət subyektinə münasibətdə ildə bir dəfədən çox olmayaraq aparıla bilər.

52.4. Plandankənar yoxlamalar hərtərəfli və ya tematik olmaqla aşağıdakı hallarda aparıla bilər:

52.4.1. Mərkəzi Banka təqdim edilən hesabatların təhlili və digər mənbəyi məlum olan məlumatlar əsasında nəzarət subyektində:

52.4.1.1. kapital adekvatlılığı, likvidlik və ya ödəmə qabiliyyəti göstəricilərinin pisləşdiyi müşahidə edildikdə, o cümlədən aktivlərin itirilməsi təhlükəsi yarandıqda;

52.4.1.2. aktivlərin keyfiyyəti və maliyyə vəziyyətini xarakterizə edən göstəricilər kəskin və ya davamlı olaraq pisləşdikdə, yaxud dəyişdikdə;

52.4.1.3. aktivlərin fiziki mövcudluğuna dair əsaslı şübhə yarandıqda;

52.4.1.4. öhdəliklərin və ya ödənişlərin icra edilməsi üçün zəruri olan likvid vəsaitlər əhəmiyyətli səviyyədə, yaxud davamlı olaraq azaldıqda;

52.4.1.5. idarəetmə sistemində onun prudensial idarə edilməsinə təhlükə yarada bilən halların meydana çıxdığı müəyyən edildikdə;

52.4.2. qanunvericiliyin pozulması faktının və ya buna səbəb olan halların yerində araşdırılması tələb olunduqda;

52.4.3. təqdim edilmiş hesabatlardakı göstəricilərlə müvafiq əməliyyatların real xüsusiyyəti və ya mövcud vəziyyəti, həmçinin əldə edilmiş digər məlumatlar arasında uyğunsuzluqlar aşkar edildikdə;

52.4.4. maliyyə bazarlarına nəzarət sahəsində qarşılıqlı əməkdaşlıq çərçivəsində xarici maliyyə bazarlarının tənzimlənməsi və nəzarət orqanlarının sorğuları daxil olduqda;

52.4.5. müvafiq nəzarət subyekti barəsində yoxlamanın aparılması barədə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda;

52.4.6. cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi riskləri və halları ilə bağlı əsaslı şübhələr olduqda;

52.4.7. istehlakçıların və investorların hüquqlarının pozulması ilə bağlı şikayətlərin araşdırılması zamanı məsələlərin yerində yoxlanılması tələb olunduqda;

52.4.8. nəzarət subyektinə tətbiq edilmiş təsir, təshih tədbirlərinin, sanksiyaların və icrası məcburi olan digər göstərişlərin icra vəziyyəti yoxlanıldıqda, habelə həmin göstərişlərin icrası barədə Mərkəzi Banka müəyyən edilmiş müddət ərzində məlumat verilmədikdə və ya verilmiş məlumatın yanlış olduğu aşkar edildikdə;

52.4.9. maliyyə bazarlarını tənzimləyən qanunlarda nəzərdə tutulan digər hallarda.

52.5. Yoxlama planı və yoxlama barədə qərar Mərkəzi Bankın sədri və ya onun səlahiyyət verdiyi şəxs tərəfindən təsdiq edilir. Yoxlama barədə qərarda nəzarət subyektinin adı və ünvanı, yoxlamanın başlanma tarixi və müddəti, növü, əhatə dairəsi, yoxlama plandankənar olduqda onun təyin edilməsinə əsas verən hal, yoxlayıcının (yoxlayıcıların) soyadı, adı, atasının adı və vəzifəsi, habelə yoxlamanın dövrü qeyd edilir.

52.6. Yoxlamalar Mərkəzi Bankın əməkdaşları və (və ya) Mərkəzi Bank tərəfindən təyin edilən kənar auditorlar (yoxlayıcılar) tərəfindən həyata keçirilir. Yoxlayıcıların tərkibinə qarşılıqlı fəaliyyət prinsipi əsasında Mərkəzi Bankın yoxlamalar sahəsində əməkdaşlıq haqqında saziş bağladığı xarici ölkənin nəzarət orqanının əməkdaşları və digər şəxslər (ekspertlər, mütəxəssislər) də daxil edilə bilərlər.

**Maddə 53. Yoxlamalara hazırlıq, yoxlamaların aparılması və nəticələrinin rəsmiləşdirilməsi**

53.1. Nəzarət subyektinə planlı yoxlamanın başlanmasına azı 7 (yeddi) iş günü qalmış, plandankənar yoxlama zamanı isə azı 2 (iki) iş günü qalmış yazılı bildiriş təqdim edilir. Bildirişdə yoxlama barədə qərara müvafiq olaraq yoxlamanın başlanma tarixi, növü, əhatə dairəsi, habelə yoxlamanın dövrü və müddəti qeyd edilir.

53.2. Bu Qanunun 52.4.1.1 - 52.4.1.3-cü, 52.4.2-ci, 52.4.3-cü, 52.4.5-ci, 52.4.6-cı və 52.4.8-ci maddələrində nəzərdə tutulmuş hallarda nəzarət subyektində əvvəlcədən məlumatlandırmadan yoxlama aparıla bilər.

53.3. Yoxlama bu barədə qərar təqdim edilməklə həyata keçirilir. Nəzarət subyekti yoxlayıcının işinin təmin edilməsi üçün şərait yaradır, o cümlədən ayrıca yer ayırır və yoxlayıcını lazımi texniki avadanlıqlarla (kommunikasiya vasitələri, surətçıxarma aparatları, çap avadanlıqları və s.) təmin edir.

53.4. Yoxlamanın nəticələri yoxlama başa çatdıqdan sonra 30 (otuz) təqvim günü ərzində iki nüsxədə (yoxlama məhkəmənin qərarı əsasında aparıldıqda, üç nüsxədə) tərtib olunan yoxlama haqqında hesabatla rəsmiləşdirilir. Yoxlama haqqında hesabatın tərtib edilməsi qaydası Mərkəzi Bank tərəfindən müəyyən edilir. Yoxlama haqqında hesabatın bir nüsxəsi hazırlandığı gündən 3 (üç) iş günü ərzində nəzarət subyektinə təqdim olunur və ya elektron üsulla, yaxud alınmasını təsdiq edən poçt vasitəsilə nəzarət subyektinə göndərilir.

53.5. Nəzarət subyektinin səlahiyyətli şəxsi yoxlama haqqında hesabatı aldığı gündən 7 (yeddi) iş günü ərzində onu imzalayaraq Mərkəzi Banka təqdim edir. Yoxlama hesabatı bu müddət ərzində təqdim edilmədikdə Mərkəzi Bank özündə olan yoxlama hesabatına müvafiq qeyd əlavə edir. Nəzarət subyektinin yoxlama hesabatına dair izahatı (etirazı) olduqda nəzarət subyektinin səlahiyyətli şəxsi yoxlama hesabatını imzalayır və öz izahatını (etirazını) hesabata əlavə edir. Nəzarət subyektinin verdiyi izahat (etiraz) əsaslı hesab edildikdə yoxlama qrupu yoxlama haqqında hesabatda müvafiq dəyişiklik edir.

53.6. Mərkəzi Bank yoxlamanın nəticələri ilə bağlı yekun qərarını bu Qanunun 53.5-ci maddəsində nəzərdə tutulmuş müddət bitdikdən sonra 30 (otuz) təqvim günü müddətində qəbul edir və bu barədə nəzarət subyektinə yazılı məlumat göndərir.

53.7. Yoxlama haqqında hesabatın forması və məzmunu Mərkəzi Bankın normativ xarakterli aktları ilə müəyyən edilir.

53.8. Yoxlamanın nəticələri üzrə şikayətin verilməsi ilə əlaqədar məhkəməyə açıqlanması halları istisna olmaqla nəzarət subyekti yoxlama haqqında hesabatı Mərkəzi Bankın razılığı olmadan açıqlaya bilməz.

53.9. Nəzarət subyekti yoxlamanın nəticələri üzrə Mərkəzi Bankın qəbul etdiyi qərardan məhkəməyə şikayət verə bilər. Qərardan şikayətin verilməsi onun icrasını dayandırmır.

**Maddə 53-1. Yoxlayıcıların hüquq və vəzifələri**

53-1.1. Yoxlayıcıların aşağıdakı hüquqları vardır:

53-1.1.1. nəzarət subyektinə, onun filial, şöbə və nümayəndəliklərinə, habelə onun törəmə cəmiyyətlərinə daxil olmaq və onların fəaliyyəti ilə bağlı istənilən sənədləri, o cümlədən apardığı müştəri əməliyyatları, bağladığı əqdlərlə bağlı sənədləri, daxili reqlamentləri (əsasnamə, qaydalar, prosedurlar və s.), hesabatları, mühasibat reqlamentini və digər sənədləri tələb etmək, onların surətlərini götürmək, yoxlamaq, onlara dair nəzarət subyektinin və onun törəmə cəmiyyətinin rəhbər işçiləri və əməkdaşlarından izahat almaq;

53-1.1.2. nəzarət subyektinə aidiyyəti olan şəxslərlə bağlı lazımi məlumat və sənədləri, o cümlədən onların idarə edilməsi və cari fəaliyyətinə aid lazımi informasiyanı əldə etmək, habelə nəzarət subyektinə aidiyyəti olan şəxslərdən, o cümlədən qanuna müvafiq olaraq nəzarət subyektinə əhəmiyyətli nəzarəti həyata keçirən və ya nəzarət subyektinin əhəmiyyətli nəzarəti həyata keçirdiyi şəxslərdən, nəzarət subyektinin auditini aparan və ya aparmış auditorlardan, investisiya fondunun qiymətləndiricisindən və depozitarından və nəzarət subyektinin üçüncü şəxslərlə əlaqədar fəaliyyəti barədə həmin şəxslərdən yoxlamanın aparılması üçün lazım olan sənədləri, məlumatları, rəyləri, izahatları, arayışları əldə etmək;

53-1.1.3. nəzarət subyektinin avtomatlaşdırılmış əməliyyat və idarəedici informasiya sistemlərinə, məlumat bazalarına çıxış əldə etmək və həmin sistemlərdən məlumatlar götürmək;

53-1.1.4. yoxlama zamanı surətçıxarma və digər texniki vasitələrdən istifadə etmək;

53-1.1.5. maliyyə bazarlarını tənzimləyən hüquqi aktların pozulmasına dair şübhə olduqda müvafiq sənədlərin və aktivlərin yerləşdiyi yeri yoxlamanın aparılması üçün tələb olunan müddətdə, lakin 3 (üç) iş günündən çox olmayaraq möhürləmək, bu şərtlə ki, həmin hal nəzarət subyektinin cari fəaliyyətinin dayandırılmasına səbəb olmasın;

53-1.1.6. yoxlanılan nəzarət subyektinin fəaliyyəti ilə bağlı məsələlər barədə nəzarət subyektinin rəhbər işçiləri və əməkdaşları ilə müzakirələr aparmaq.

53-1.2. Yoxlayıcılar yoxlama zamanı aşağıdakı vəzifələri həyata keçirirlər:

53-1.2.1. yoxlamaya başladıqda yoxlama barədə qərarı və şəxsiyyətini təsdiq edən sənədi nəzarət subyektinə təqdim etmək;

53-1.2.2. yoxlamanı yoxlama barədə qərarda göstərilənlərə uyğun olaraq həyata keçirmək;

53-1.2.3. yoxlama zamanı götürülmüş sənədlərin əslini yoxlama zamanı və ya yoxlama bitdikdən dərhal sonra nəzarət subyektinə qaytarmaq;

53-1.2.4. yoxlama zamanı əldə edilmiş sənədlərin, məxfi məlumatların, bank sirrinin və qanunla müəyyən edilmiş digər konfidensial məlumatların qorunmasını təmin etmək.

53-1.3. Yoxlayıcılar son 1 (bir) il ərzində yoxlama apardıqları nəzarət subyekti tərəfindən Mərkəzi Bankla əmək münasibətlərinə xitam verildiyi tarixdən 1 (bir) il müddətində qanunla müəyyən edilmiş rəhbər (inzibatçı) vəzifələrə işə götürülə bilməzlər.

**Maddə 53-2. Nəzarət subyektində monitorinq**

53-2.1. Maliyyə bazarları sahəsində nəzarət funksiyalarının həyata keçirilməsi ilə bağlı nəzarət subyektindən alınan hesabatlarda əks olunan məlumatların düzgünlüyünü və mötəbərliliyini yerində müəyyən etmək üçün nəzarət subyektində monitorinq aparılmasıməqsədilə Mərkəzi Bank öz əməkdaşları sırasından səlahiyyətli nümayəndə (nümayəndələr) təyin etmək hüququna malikdir.

53-2.2. Mərkəzi Bankın sədri və ya onun səlahiyyət verdiyi şəxs tərəfindən imzalanmış göndəriş məktubunda monitorinq olunmalı sahələr, sənədlər, sistemlər və monitorinqin müddəti müəyyən edilir. Monitorinq prosesində səlahiyyətli nümayəndə (nümayəndələr) bu Qanunun 53-1.1-ci maddəsində qeyd olunan hüquqlardan istifadə edir, nəzarət subyekti isə monitorinqin həyata keçirilməsi üçün bu Qanunun 53.3-cü maddəsinə uyğun olaraq zəruri şərait yaradır.

53-2.3. Monitorinqin müddəti 5 (beş) iş günündən çox ola bilməz.

53-2.4. Səlahiyyətli nümayəndə (nümayəndələr) monitorinqin nəticələri üzrə arayış hazırlayır və Mərkəzi Banka təqdim edir.

53-2.5. Səlahiyyətli nümayəndə (nümayəndələr) son 1 (bir) il ərzində monitorinq etdiyi nəzarət subyekti tərəfindən Mərkəzi Bankla əmək münasibətlərinə xitam verildiyi tarixdən 1(bir) il müddətində qanunla müəyyən edilmiş rəhbər (inzibatçı) vəzifələrə işə götürülə bilməz.

**Maddə 53-3. Əsaslandırılmış mülahizə**

53-3.1. Əsaslandırılmış mülahizə maliyyə bazarlarını tənzimləyən qanunlara müvafiq olaraq nəzarət üzrə səlahiyyətlərin həyata keçirilməsi zamanı aşkar olunan faktların, mənbəyi məlum olan məlumatların araşdırılması və qiymətləndirilməsi əsasında Mərkəzi Bankın peşəkar və obyektiv olaraq gəldiyi fikirdir. Əsaslandırılmış mülahizə lisenziya və icazələrin verilməsi, təsir və digər nəzarət tədbirlərinin tətbiqi ilə bağlı qərarların qəbul edilməsi əsası kimi çıxış edə bilər.

53-3.2. Aşağıdakı hallarda Mərkəzi Bank əsaslandırılmış mülahizədən bu Qanunun 53-3.3-53-3.6-cı maddələrində nəzərdə tutulmuş qaydada istifadə edir:

53-3.2.1. nəzarət subyektlərinin nəzarət və icra orqanları üzvlərinin, habelə maliyyə bazarlarını tənzimləyən qanunlarda nəzərdə tutulmuş hallarda digər şəxslərin məqbul və lazımi keyfiyyətlərə malik olmasının, o cümlədən işgüzar nüfuzunun qiymətləndirilməsi;

53-3.2.2. nəzarət subyektinə aidiyyəti olan şəxslərin müəyyənləşdirilməsi və (və ya) onlarla güzəştli şərtlərlə əməliyyatların aparılması;

53-3.2.3. şəxslərin bir-biri ilə əlaqədar borcalanlar qrupuna aid edilməsi.

53-3.3. Əsaslandırılmış mülahizə Mərkəzi Bankın İdarə Heyəti tərəfindən yaradılan kollegial orqan tərəfindən formalaşdırılır. Əsaslandırılmış mülahizənin formalaşdırılması prosesinə ekspert və mütəxəssislər cəlb edilə bilər.

53-3.4. Əsaslandırılmış mülahizə barədə nəzarət subyektinə yazılı məlumat verilir və məlumatda mülahizəyə əsas verən hallar ətraflı açıqlanır. Məlumat nəzarət subyektinə təqdim olunur və ya elektron üsulla, yaxud alınmasını təsdiq edən poçt vasitəsilə göndərilir.

53-3.5. Əsaslandırılmış mülahizə barədə məlumatı almış nəzarət subyekti 7 (yeddi) iş günü ərzində əsaslandırılmış mülahizəyə münasibət bildirmədikdə mülahizə ilə razı olduğu hesab edilir. Əsaslandırılmış mülahizəilə razı olmadıqda nəzarət subyekti həmin müddətdə əsaslandırılmış izahatını yazılı surətdə Mərkəzi Banka təqdim edir.

53-3.6. Əsaslandırılmış mülahizəilə razı olmayan nəzarət subyektinin izahatına baxılır və izahat kollegial orqan tərəfindən əsaslı hesab edilmədikdə məsələ baxılması üçün Mərkəzi Bankın İdarə Heyətinin müzakirəsinə çıxarılır.

53-3.7. Əsaslandırılmış mülahizə əsasında Mərkəzi Bankın qəbul etdiyi qərardan qanunvericiliklə müəyyən edilmiş qaydada məhkəməyə şikayət verilə bilər. Qərardan şikayətin verilməsi onun icrasını dayandırmır.

**Maddə 53-4. Sonuncu instansiya kreditoru**

53-4.1. Mərkəzi Bank qısamüddətli likvidlik çatışmazlığı ilə üzləşmiş banklara sonuncu instansiya kreditoru kimi müddəti altı aydan çox olmayan və yalnız bir dəfə həmin müddətə uzadıla bilən kreditlər verə bilər. Belə kreditlərin digər şərtləri Mərkəzi Bankın İdarə Heyəti tərəfindən müəyyən olunur.

53-4.2. Maliyyə bazarlarının sabitliyinə təhdid yarandığı hallarda Mərkəzi Bankın İdarə Heyəti daha uzun müddətə sonuncu instansiya krediti verə bilər.

**Maddə 53-5. Əməkdaşlıq və məlumat mübadiləsi**

53-5.1. Nəzarət subyektləri ilə qarşılıqlı fəaliyyət məqsədilə Mərkəzi Bank nəzarət subyektlərinin, onların ictimai birliklərinin (assosiasiyalarının) nümayəndələrini cəlb etməklə maliyyə bazarlarının mühüm məsələləri barəsində məsləhətləşmələr apara, təkliflər hazırlamaq üçün ictimai əsaslarla fəaliyyət göstərən şuralar, qruplar yarada bilər.

53-5.2. Mərkəzi Bank müstəqil şəkildə həm öz təşəbbüsü, həm də sorğu əsasında xarici ölkələrin maliyyə bazarlarına nəzarət orqanları, rezolyusiya orqanları, böhran idarəçiliyini həyata keçirən orqanları, makroprudensial nəzarət orqanları, o cümlədən beynəlxalq təşkilatlarla dövlətin və hökumətin adından öhdəlik götürmədən ikitərəfli və çoxtərəfli müqavilələr (saziş, anlaşma memorandumu və s.) imzalamaqla nəzarət subyektləri üzərində tənzimləmə və nəzarət funksiyalarının effektiv surətdə həyata keçirilməsi, habelə səlahiyyətlərinə aid edilən digər məsələlər üzrə əməkdaşlıq edir.

53-5.3. Mərkəzi Bank nəzarət sahəsində qarşılıqlı əməkdaşlıq haqqında müqavilələrə müvafiq olaraq konfidensial məlumatları, o cümlədən bank, kommersiya və sığorta sirri təşkil edən məlumatları mübadilə edə bilər, bu şərtlə ki, qarşı tərəf müvafiq məlumatların məxfiliyini təmin etsin və yalnız nəzarət məqsədləri üçün istifadə etsin.

53-5.4.Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq, sənəd və məlumat mübadiləsi "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.";

1.28. aşağıdakı məzmunda 54.1.6-1-ci maddə əlavə edilsin:

"54.1.6-1. törəmə maliyyə alətləri ilə əməliyyatlar aparmaq;";

1.29. 55.0-cı, 55.0.1 - 55.0.3-cü maddələr müvafiq olaraq 55.1-ci, 55.1.1 - 55.1.3-cü maddələr hesab edilsin;

1.30. aşağıdakı məzmunda 57.3-cü maddə əlavə edilsin:

"57.3. Mərkəzi Bankda mühasibat uçotunun aparılması qaydaları Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən Mərkəzi Bankın İdarə Heyəti tərəfindən müəyyən edilir.";

1.31. 58.6-cı maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Kənar dövlət maliyyə nəzarəti yalnız Mərkəzi Bankın inzibati-təsərrüfat fəaliyyətini əhatə edir.";

1.32. 59-cu maddə üzrə:

1.32.1. 59.3-cü və 59.4-cü maddələr aşağıdakı redaksiyada verilsin:

"59.3. Mərkəzi Bankın İdarə Heyətinin üzvləri, habelə İdarə Heyəti tərəfindən müəyyən olunmuş vəzifələri tutan əməkdaşlar kredit təşkilatlarından və digər nəzarət subyektlərindən alacaqları kreditlər haqqında məlumatı İdarə Heyətinin müəyyən etdiyi qaydada Mərkəzi Banka təqdim edirlər.

59.4. Mərkəzi Bankın əməkdaşları xidməti vəzifələri ilə şəxsi maraqları arasında maraqlar münaqişəsinə yol verməməlidirlər. Qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, Mərkəzi Bankın əməkdaşları nəzarət subyektlərinin və onların törəmə təsərrüfat cəmiyyətlərinin idarəetmə orqanlarının üzvü ola bilməzlər. Nəzarət subyektlərində və onlara aidiyyəti olan şəxslərdə Mərkəzi Bankın əməkdaşı və ya onun yaxın qohumu (ər-arvad, valideynlər, ər-arvadın valideynləri, baba, nənə, övlad, nəvə, övladlığa götürən, övladlığa götürülən, qardaş və bacı) təsisçi və ya iştirakçı olduqda, yaxud yaxın qohumu həmin şəxslərdə nəzarət və icra orqanlarında vəzifə tutduqda Mərkəzi Bankın əməkdaşı bu barədə Mərkəzi Banka yazılı məlumat verməlidir. Bu hallarda Mərkəzi Bankın əməkdaşı həmin nəzarət subyektlərində yoxlama apara və ya digər nəzarət tədbirində, habelə həmin nəzarət subyekti ilə bağlı qərarların qəbulunda iştirak edə bilməz. Mərkəzi Bankın İdarə Heyəti üzvlərinin xidməti vəzifələri ilə şəxsi maraqları arasında maraqlar münaqişəsinin qarşısının alınmasına dair tələblər bu Qanunun 21-ci və 23-cü maddələri ilə tənzimlənir.";

1.32.2. 59.6-cı maddəyə "məqsədilə" sözündən əvvəl ", habelə əlavə təhsili və peşəkarlığının yüksəldilməsi" sözləri əlavə edilsin və həmin maddədən "əlavə" sözü çıxarılsın;

1.33. 60-cı maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 60. Məxfilik (konfidensiallıq)**

60.1. Mərkəzi Bankın İdarə Heyətinin üzvləri və digər əməkdaşları səlahiyyətlərinin həyata keçirilməsi zamanı əldə edilmiş məlumatların məxfiliyini (konfidensiallığını) qorumalı, həmin məlumatları şəxsi və ya üçüncü şəxslərin maraqları və mənafeyi üçün istifadə etməməlidirlər.

60.2. Mərkəzi Bankın İdarə Heyətinin üzvləri və digər əməkdaşları vəzifələrinin icrası ilə əlaqədar onlara məlum olmuş xidməti məlumatı, o cümlədən dövlət, bank, sığorta və kommersiya sirrinə aid olan məlumatı Mərkəzi Bankda fəaliyyət göstərdiyi və sonrakı dövrdə yalnız "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununda və digər müvafiq qanunlarda nəzərdə tutulmuş hallarda açıqlaya bilərlər. Məxfilik (konfidensiallıq) haqqında tələblər Mərkəzi Bankda yaradılan komitələrin, komissiyaların, məşvərətçi şuraların və işçi qrupların işinə cəlb edilən digər şəxslərə də şamil edilir.";

1.34. 63-cü maddədən "maliyyə bazarlarına nəzarət orqanından," sözləri çıxarılsın;

1.35. 64-cü maddə aşağıdakı redaksiya verilsin:

**"Maddə 64. Hesabatların açıqlanması**

64.1. Mərkəzi Bankın fəaliyyəti ilə bağlı illik hesabat Mərkəzi Bankın rəsmi internet səhifəsində ictimaiyyətə açıqlanır. Mərkəzi Bankın illik hesabatı ölkədəki makroiqtisadi və maliyyə bazarlarının sabitliyinə dair vəziyyəti, qəbul olunmuş pul siyasəti üzrə hədəf və vəzifələrin icrasına dair yekunları, habelə Mərkəzi Bankın maliyyə vəziyyətini əks etdirir.

64.2. Mərkəzi Bank ayda bir dəfədən az olmayaraq xarici sektor statistikasını, maliyyə bazarları və ödəniş sistemləri üzrə ümumiləşdirilmiş statistikanı, habelə monetar statistikaya dair məlumatları rəsmi internet səhifəsində yerləşdirir.";

1.36. aşağıdakı məzmunda 65-1-ci maddə əlavə edilsin:

**"Maddə 65-1. Mərkəzi Bankın satınalmaları**

65-1.1. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun müddəaları Mərkəzi Bankın bu Qanunda nəzərdə tutulmuş məqsəd və funksiyalarının həyata keçirilməsi ilə əlaqədar aşağıdakı satınalmalarına şamil edilmir:

65-1.1.1. kağız və metal pul nişanlarının, o cümlədən yubiley və xatirə pul nişanlarının konsepsiyasının, dizaynının, mühafizə elementlərinin və digər texniki spesifikasiyalarının hazırlanması, istehsalı, daşınması, saxlanılması, sığortalanması, istehsal prosesinin auditinin keçirilməsi və keyfiyyət ekspertizasının aparılması ilə bağlı satınalmalar;

65-1.1.2. beynəlxalq qızıl-valyuta ehtiyatlarının saxlanılması və idarə edilməsi ilə bağlı satınalmalar;

65-1.1.3. nağd xarici valyutanın alınması və daşınması;

65-1.1.4. nəzarət subyektlərinə münasibətdə nəzarət, o cümlədən rezolyusiya tədbirlərinin həyata keçirilməsi ilə bağlı satınalmalar.".

**Maddə 2.** Bu Qanun qüvvəyə mindiyi günədək maliyyə bazarlarının tənzimlənməsinə dair qəbul edilmiş normativ-hüquqi aktlar və normativ xarakterli aktlar həmin aktlarla tənzimlənən məsələlərə dair Mərkəzi Bankın qanunla normativ xarakterli aktlar qəbul etmək səlahiyyəti əsasında qəbul etdiyi normativ xarakterli aktları qüvvəyə minənədək və ya həmin aktlar qüvvəsini itirənədək öz hüquqi qüvvəsini saxlayır.

**Maddə 3.** Bu Qanun qüvvəyə mindiyi günədək maliyyə bazarlarında fəaliyyətə verilmiş lisenziyalar, habelə həmin fəaliyyətdən irəli gələrək verilmiş icazələr qanunla müəyyən edilmiş hallarda ləğv edilənədək öz qüvvəsini saxlayır və onların yenidən rəsmiləşdirilməsi tələb olunmur.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyul 2023-cü il*

# "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 934-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 27 may tarixli 237 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 934-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 22.1.15-ci maddəsində və 38.1-ci maddəsinin üçüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 38.1-ci maddəsinin üçüncü cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 934-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə edilsin ki:

3.1. aşağıdakı normativ xarakterli aktları altı ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

3.1.1. "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 37.1.5-1-ci maddəsinə uyğun olaraq, kredit təşkilatlarında və qanuna müvafiq olaraq ödəniş xidmətlərini həyata keçirən şəxslərdə kassa əməliyyatlarının aparılması qaydalarını, habelə həmin təşkilatlar tərəfindən istifadə olunan nağd pul avadanlıqlarına dair minimum tələbləri;

3.1.2. həmin Qanunun 38.2-ci maddəsinə uyğun olaraq, investisiya pul nişanlarının satışı qaydasını;

3.1.3. həmin Qanunun 41-1.1-ci maddəsinə uyğun olaraq, pul nişanlarının reproduksiyası qaydasını;

3.1.4. həmin Qanunun 47.2-ci maddəsinə uyğun olaraq, ödəniş xidmətləri təchizatçıları tərəfindən ödəniş əməliyyatlarının aparılması və onlar arasında hesablaşmaların həyata keçirilməsi qaydalarını, həmçinin ödəniş alətlərinə dair tələbləri;

3.1.5. həmin Qanunun 48.3.6-cı maddəsinə uyğun olaraq, maliyyə xidmətlərinin (məhsullarının) test məqsədli alışı qaydasını;

3.1.6. həmin Qanunun 50.3-cü maddəsinə uyğun olaraq, xüsusi tənzimləmə rejiminin tətbiqi qaydasını;

3.1.7. həmin Qanunun 51.2-ci maddəsinə uyğun olaraq, lisenziya və icazələrin verilməsi üçün təqdim olunan sənədlərin formasını və məzmununu;

3.1.8. həmin Qanunun 53.4-cü və 53.7-ci maddələrinə uyğun olaraq, yoxlama haqqında hesabatın tərtib edilməsi qaydasını, habelə formasını və məzmununu.

3.2. "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 934-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

4. "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 27 may tarixli 237 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 5, maddə 402; 2010, № 2, maddə 80; 2017, № 7, maddələr 1334, 1337; 2019, № 8, maddə 1389; 2020, № 1, maddə 4) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.5-ci bənddə "22.0.5-ci, 22.0.8-ci, 22.0.13-cü, 22.0.16-cı" sözləri "22.1.15-ci maddəsində, 38.1-ci maddəsinin üçüncü cümləsində" sözləri ilə, "və 58.6-cı maddələrində" sözləri "maddələrində və 58.6-cı maddəsinin birinci cümləsində" sözləri ilə əvəz edilsin;

4.2. 2.6-cı bənddə "58.6-cı maddəsində" sözləri "38.1-ci maddəsinin üçüncü cümləsində və 58.6-cı maddəsinin birinci cümləsində" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 iyul 2023-cü il*

# "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 27-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 130; 2005, № 4, maddə 276; 2007, № 5, maddə 401, № 6, maddə 562, № 11, maddə 1070; 2008, № 11, maddə 960; 2009, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 4, maddə 276, № 10, maddə 839; 2011, № 7, maddə 590; 2013, № 7, maddə 790; 2014, № 7, maddə 772, № 12, maddə 1517; 2015, № 11, maddə 1262; 2016, № 3, maddə 406, № 6, maddə 975; 2017, № 4, maddə 521, № 11, maddə 1956, № 12 (I kitab), maddə 2227; 2018, № 1, maddə 33, № 5, maddə 842, № 7 (I kitab), maddə 1389, № 12 (I kitab), maddə 2466; 2019, № 1, maddələr 32, 50, № 4, maddə 599, № 6, maddə 999, № 7, maddə 1185, № 8, maddə 1365; 2020, № 5, maddə 515; 2021, № 1, maddə 8; 2020, № 5, maddə 515; 2021, № 1, maddə 8, № 11, maddə 1206, № 12, maddə 1298;2022, № 12, maddələr 1379, 1399; 2023, № 1, maddə 41,№ 2, maddə 159, № 3, maddə 334, № 4, maddə 456; Azərbaycan Respublikasının 2023-cü il 4 aprel tarixli 854-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. Preambulada "bank sisteminin" sözləri birinci halda "bank fəaliyyətinin" sözləri ilə, ikinci halda isə "bankların" sözü ilə əvəz edilsin;

1.2. 1-ci maddə üzrə:

1.2.1. 1.0.12-ci maddə aşağıdakı redaksiyada verilsin:

"1.0.12. **İnzibatçı** - bankın Müşahidə Şurasının, Audit Komitəsinin və İdarə Heyətinin üzvləri, xarici bankın yerli filialının və nümayəndəliyinin rəhbəri, habelə bankın (xarici bankın yerli filialının) baş mühasibi (bu vəzifələri icra edən şəxs), daxili audit bölməsinin əməkdaşları, bankın filialının, şöbəsinin və nümayəndəliyinin rəhbərləri;";

1.2.2. 1.0.13-cü maddədə "və onun filiallarının baş mühasibləri" sözləri "baş mühasibi (bu vəzifələri icra edən şəxs)" sözləri ilə əvəz edilsin, həmin maddənin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Xarici bankın yerli filialının rəhbəri və baş mühasibi (bu vəzifələri icra edən şəxs), habelə xarici bankın rezidenti olduğu ölkənin qanunvericiliyinə görə xarici banka aidiyyəti olan digər şəxslər xarici bankın yerli filialının aidiyyəti şəxsləri hesab olunurlar;";

1.2.3. 1.0.18-ci maddədə "mənafeləri" sözü "nüfuzu" sözü ilə əvəz edilsin və həmin maddəyə "inzibatçısı" sözündən sonra ", benefisiar mülkiyyətçisi" sözləri əlavə edilsin;

1.2.4. 1.0.19-cu maddəyə "dedikdə" sözündən sonra ", benefisiar mülkiyyətçilər" sözləri, "məhkumluğun olmaması" sözlərindən sonra ", müvafiq vəzifəni tutması və ya peşə fəaliyyəti ilə məşğul olması üzərində məhkəmə qərarı ilə qoyulmuş qadağanın olmaması" sözləri, "müflis elan edilməsi" sözlərindən sonra ", habelə bu Qanunla vətəndaş qüsursuzluğu tələb olunan şəxslərin bu maddədə sadalanan tələblərə cavab verməyən ortaq marağı olduğu şəxslərlə hər hansı cinayətkar sövdələşməsi" sözləri əlavə edilsin;

1.2.5. 1.0.21-ci maddədə "maliyyə bazarlarına nəzarət orqanının" sözləri "Azərbaycan Respublikası Mərkəzi Bankının (bundan sonra - Mərkəzi Bank)" sözləri ilə əvəz edilsin;

1.2.6. 1.0.22-ci maddə aşağıdakı redaksiyada verilsin:

"1.0.22. **Maliyyə bazarları sahəsi** - maliyyə bazarlarının tənzimlənməsi və nəzarəti sahəsi və ya Mərkəzi Bank tərəfindən tənzimlənən və nəzarət olunan maliyyə xidmətlərinin göstərildiyi fəaliyyət sahələri;";

1.2.7. 1.0.25-ci, 1.0.27-ci, 1.0.29-cu, 1.0.30-cu (hər iki halda), 1.0.31-ci və 1.0.32-ci maddələrdə ismin müvafiq hallarında "maliyyə bazarlarına nəzarət orqanı" sözləri ismin müvafiq hallarında "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.3. 2-ci maddə üzrə:

1.3.1. maddənin adında "sistemi və onun" sözləri "fəaliyyətinin" sözü ilə əvəz edilsin;

1.3.2. 2.1-ci və 2.2-ci maddələr ləğv edilsin;

1.3.3. 2.3-cü maddədən "maliyyə bazarlarına nəzarət orqanının və" sözləri çıxarılsın;

1.4. 3-cü maddə üzrə:

1.4.1. 3.1-ci maddədən "banklar və bank olmayan" sözləri çıxarılsın və həmin maddədə "maliyyə bazarlarına nəzarət orqanının" sözləri "Mərkəzi Bankın" sözləri ilə əvəz edilsin;

1.4.2. 3.2-ci maddəyə "banklar" sözündən sonra ", xarici bankların yerli filialları" sözləri əlavə edilsin;

1.4.3. 3.3-cü maddəyə "3.4-cü" sözlərindən sonra ", 5.1-ci" sözləri əlavə edilsin;

1.4.4. 3.4-cü maddədə "maliyyə bazarlarına nəzarət orqanının" sözləri "Mərkəzi Bankın" sözləri ilə əvəz edilsin;

1.4.5. 3.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"3.5. Mərkəzi Bank hər hansı şəxsin lisenziyası olmadan bu Qanunun 3.1-ci maddəsində göstərilən fəaliyyətlə məşğul olduğunu müəyyən etdikdə, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun tədbirlər görür.";

1.5. 5-ci maddə üzrə:

1.5.1. maddənin adı aşağıdakı redaksiyada verilsin:

**"Maddə 5. Azərbaycan Respublikasında fəaliyyət göstərən kredit təşkilatlarında xarici kapitalın iştirakı";**

1.5.2. 5.1-ci maddədə "Respublikasının bank sistemində" sözləri "Respublikasında fəaliyyət göstərən kredit təşkilatlarında" sözləri ilə, "maliyyə bazarlarına nəzarət orqanı" sözləri "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.5.3. 5.2-ci maddədə, 5.3-cü maddənin birinci - üçüncü cümlələrində və 5.4-cü maddədə ismin müvafiq hallarında "maliyyə bazarlarına nəzarət orqanı" sözləri ismin müvafiq hallarında "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.6. 6.1-ci maddədə "maliyyə bazarlarına nəzarət orqanı" sözləri "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin, həmin maddəyə "habelə" sözündən sonra "bu Qanunda nəzərdə tutulmuş hallarda" sözləri əlavə edilsin və həmin maddədən ", şöbələr" sözü çıxarılsın;

1.7. 6.2-ci maddənin üçüncü cümləsində, 6.3-cü, 9.1-ci, 12.1-ci maddələrdə, 12.2-ci maddənin birinci abzasının birinci cümləsində, 12.3-cü maddənin birinci - üçüncü cümlələrində, 12.4-cü maddənin birinci və ikinci cümlələrində, 12.5-ci, 13.1-ci maddələrdə, 18.1-ci maddənin birinci cümləsində, 18.3-cü maddənin birinci və ikinci cümlələrində, 20.1-ci maddənin ikinci cümləsində, 20.3-cü (hər iki halda) maddədə, 20.4-cü maddənin ikinci cümləsində, 21.1-ci maddənin birinci və ikinci cümlələrində, 21.2-ci, 21.3-cü, 21.5-ci (hər iki halda), 27.2.7-ci, 27.9-cu maddələrdə, 29-cu maddənin mətnində, 32.1-ci maddənin birinci abzasında, 33.2-ci maddədə, 35.2-civə 35.3-cü maddələrin ikinci cümlələrində, 35.4-cü maddənin birinci hissəsinin birinci cümləsində (hər iki halda), 36.1-ci maddədə, 36.2-ci maddənin birinci hissəsinin ikinci cümləsində və ikinci hissəsində, 38.3-cü, 41.4-cü maddələrdə, 44.5-ci maddənin birinci və ikinci (hər iki halda) cümlələrində, 48.1-ci maddənin birinci abzasında, 49.1-ci maddənin birinci abzasında, 49.2-ci, 49.3-cü maddələrdə, 50.1-ci maddənin ikinci cümləsində, 50.2-ci, 50.3-cü maddələrdə, 57.1-ci maddənin birinci abzasında, 57.1.1-ci, 57.2-ci, 57.5-ci maddələrdə, 57.6-cı maddənin birinci abzasının ikinci və üçüncü cümlələrində, 57.8-ci maddədə, 57-1.3-cü maddənin ikinci cümləsində (hər iki halda), 57-2.1-ci, 57-2.3.12-ci, 57-2.3.14-cü, 57-2.3.16-cı maddələrdə, 57-4.2-ci maddənin birinci abzasında, 57-4.3-cü, 57-4.4-cü maddələrdə, 57-5.1-ci maddənin birinci və ikinci cümlələrində, 57-5.4.1-ci maddədə, 57-6.3-cü maddənin birinci cümləsində, 57-6.8-ci, 57-7.2-ci maddələrdə, 57-7.3.3-cü maddənin ikinci cümləsində, 57-7.4-cü maddənin birinci cümləsində, 57-8.1-ci, 57-8.3-cü maddələrdə, 57-8.4-cüvə 57-8.5-ci maddələrin birinci cümlələrində, 57-8.6-cı maddədə, 57-8.8-ci maddənin birinci cümləsində, 57-8.10-cu maddənin ikinci cümləsində, 57-8.11-ci, 57-8.12-ci maddələrdə, 57-8.13-cü maddənin birinci - üçüncü cümlələrində, 57-8.14-cü, 57-9.3-cü (hər iki halda), 57-9.4-cü, 57-9.10-cu maddələrdə, 57-11.2-ci maddənin ikinci cümləsində, 57-11.6-cı maddənin birinci (hər iki halda) və üçüncü cümlələrində, 57-11.9-cu maddənin ikinci cümləsində, 57-11.12-ci maddənin birinci və ikinci cümlələrində, 57-11.13-cü, 57-11.17.2-ci, 57-11.19-cu maddələrdə, 57-12.1-ci maddənin birinci abzasında, 57-12.1.3-cü maddənin birinci abzasında, 57-12.1.3.4-cü, 58.1-ci maddələrdə, 58.2-ci maddənin ikinci cümləsində (hər iki halda), 58.3-cü, 59.1-ci maddələrdə, 59.2-ci maddənin birinci hissəsinin birinci cümləsində, ikinci hissəsinin ikinci, beşinci və altıncı cümlələrində, 59.4-cü maddənin ikinci cümləsində, 59.5.1-ci maddədə, 59.7-ci maddənin ikinci cümləsində, 59.10-cu (hər iki halda), 59.11-ci, 61.1.1 - 61.1.3-cü, 62.1.1-ci maddələrdə, 62.2-ci maddənin birinci - beşinci cümlələrində, 62.3-cü maddənin birinci cümləsində, 63.1-ci və 64.1-ci maddələrin birinci cümlələrində (hər iki halda), 65.1.2-ci, 65.1.5-ci maddələrdə, 65.2-ci maddənin birinci abzasında, 65.2.1-ci maddənin birinci və ikinci (hər iki halda) cümlələrində, 66.1-ci maddənin ikinci cümləsində, 67-ci maddədə, 70.1-ci maddənin birinci cümləsində, 70.3-cü maddədə, 71.1-ci maddənin dördüncü və beşinci cümlələrində, 71.4-cü maddənin üçüncü hissəsində, 71-1.3-cü (hər iki halda), 86.1-ci, 86.2-ci maddələrdə, 88.1.2-ci maddənin ikinci cümləsində, 89.1.1-ci, 89.1.4-cü maddələrdə, 90-cı maddənin adında və mətnində, 91.3-cü maddənin birinci cümləsində, 93.2-ci (hər iki halda) maddədə ismin müvafiq hallarında "maliyyə bazarlarına nəzarət orqanı" sözləri ismin müvafiq hallarında "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.8. 7-ci maddə üzrə:

1.8.1. 7.1-ci maddənin birinci və ikinci cümlələrində ismin müvafiq hallarında "maliyyə bazarlarına nəzarət orqanı" sözləri ismin müvafiq hallarında "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.8.2. 7.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"7.2. Bank lisenziyası və icazə alınması üçün müraciətə baxarkən Mərkəzi Bank bankın kapitalında pay sahiblərinin vəbenefisiar mülkiyyətçilərin maliyyə vəziyyəti, habelə mühüm iştirak pay sahiblərinin (hüquqi şəxs olduqda onların icra orqanlarının rəhbərlərinin), benefisiar mülkiyyətçilərin və inzibatçıların məqbul və lazımi keyfiyyətlərə malik olması və bankın nizamnamə kapitalının mənbəyi barədə müstəqil və etibarlı mənbələrdən, habelə aidiyyəti dövlət orqanlarından (qurumlarından) məlumatlar əldə edə bilər. Dövlət orqanları (qurumları) Mərkəzi Bankın sorğu etdiyi məlumatı yeddi iş günü ərzində verməlidirlər. Dövlət orqanları (qurumları) sorğu edilən məlumatların dövlət sirri istisna olmaqla, kommersiya sirri, vergi sirri və ya qanunla mühafizə olunan digər konfidensial məlumatlara aid olmasına istinad etməklə həmin məlumatların verilməsindən imtina edə bilməz.";

1.8.3. aşağıdakı məzmunda 7.2-1-ci maddə əlavə edilsin:

"7.2-1. Bu Qanunun 7.2-ci maddəsi sonradan bankda mühüm iştirak payını əldə etmək istəyən şəxslərə (hüquqi şəxs olduqda onun icra orqanlarının rəhbərlərinə), benefisiar mülkiyyətçi olan şəxslərə, yeni təyin olunan inzibatçılara və bankın törəmə strukturuna çevrilən hüquqi şəxsin icra orqanlarının rəhbərlərinə də şamil edilir.";

1.9. 8-ci maddə üzrə:

1.9.1. 8.2.1-ci maddədən "səsvermə hüququ olan" sözləri çıxarılsın;

1.9.2. 8.2.1. 4-cü maddəyə "olduqda" sözündən sonra "(daimi yaşayış yeri Azərbaycan Respublikasının ərazisi olan əcnəbilər istisna olmaqla)" sözləri əlavə edilsin;

1.9.3. 8.2.2-ci,8.2.3-cü, 8.2.5-ci və 8.2.8-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"8.2.2. bankın təklif edilən nizamnamə kapitalının miqdarı, hər bir pay sahibinin payı və payın əldə edilməsinə yönəldilən vəsaitin mənbəyi, bankda mühüm iştirak pay sahiblərinin digər hüquqi şəxslərdə mühüm iştirak payları, habelə mühüm iştirak pay sahibləri hüquqi şəxs olduqda onların nizamnamə kapitalında digər şəxslərin mühüm iştirak payları haqqında məlumatlar və sənədlər;

8.2.3. bankda mühüm iştirak payının təklif edilən sahibi hüquqi şəxs olduqda onun icra orqanlarının rəhbərlərinin siyahısı və onların vətəndaş qüsursuzluğuna dair məlumat, rəhbər əcnəbi olduqda isə rezidenti olduğu ölkənin müvafiq dövlət orqanları tərəfindən onun cinayət məsuliyyətinə cəlb olunub-olunmadığı barədə verilmiş və qanunvericilikdə müəyyən edilmiş qaydada leqallaşdırılmış arayış;";

"8.2.5. bankda mühüm iştirak payının təklif edilən sahibi fiziki şəxs olduqda onun vətəndaş qüsursuzluğuna dair məlumat, mühüm iştirak payının sahibi əcnəbi olduqda isə rezidenti olduğu ölkənin müvafiq dövlət orqanları tərəfindən onun cinayət məsuliyyətinə cəlb olunub-olunmadığı barədə verilmiş və qanunvericilikdə müəyyən edilmiş qaydada leqallaşdırılmış arayış;";

"8.2.8. bankın təklif edilən inzibatçılarının siyahısı, habelə onların hər biri üçün peşə ixtisası və təcrübəsi haqqında məlumatın göstərildiyi sənədlərin (təhsil və əmək fəaliyyəti haqqında) notariat qaydasında təsdiqlənmiş surətləri, həmin şəxslər tərəfindən doldurulmuş anket, bankda və digər hüquqi şəxslərdə onların mühüm iştirak paylarının miqdarı və siyahısı, onların vətəndaş qüsursuzluğuna dair məlumat, inzibatçı əcnəbi olduqda isə rezidenti olduğu ölkənin müvafiq dövlət orqanları tərəfindən onun cinayət məsuliyyətinə cəlb olunub-olunmadığı barədə verilmiş və qanunvericilikdə müəyyən edilmiş qaydada leqallaşdırılmış arayış;";

1.9.4.aşağıdakı məzmunda 8.2.5-1-ci maddə əlavə edilsin:

"8.2.5-1. Mərkəzi Bankın müəyyən etdiyi formada bankın səhmdarları arasındakı münasibətlər və bankın benefisiar mülkiyyətçiləri, o cümlədən onların bu Qanunla müəyyən edilmiş vətəndaş qüsursuzluğu haqqında məlumat, benefisiar mülkiyyətçi əcnəbi olduqda isə rezidenti olduğu ölkənin müvafiq dövlət orqanları tərəfindən onun cinayət məsuliyyətinə cəlb olunub-olunmadığı barədə verilmiş və qanunvericilikdə müəyyən edilmiş qaydada leqallaşdırılmış arayış;";

1.9.5. 8.3-cü və 8.4-cü maddələrin birinci və ikinci cümlələrində, 8.5-ci maddənin birinci abzasında, 8.6 - 8.8-ci, 8.10.3-cü maddələrdə, 8.11-ci maddənin ikinci, üçüncü və dördüncü (hər iki halda) cümlələrində ismin müvafiq hallarında "maliyyə bazarlarına nəzarət orqanı" sözləri ismin müvafiq hallarında "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.10. 9.3.10-cu maddə aşağıdakı redaksiyada verilsin:

"9.3.10. filiala təyin edilməsi təklif edilən inzibatçıların siyahısı, habelə onların hər biri üçün peşə ixtisası və təcrübəsi haqqında məlumatın göstərildiyi sənədlərin (təhsil və əmək fəaliyyəti haqqında) notariat qaydasında təsdiqlənmiş surətləri, həmin şəxslər tərəfindən doldurulmuş anket, bankda və digər hüquqi şəxslərdə onların mühüm iştirak paylarının miqdarı və siyahısı, onların vətəndaş qüsursuzluğuna dair məlumat, inzibatçı əcnəbi olduqda isə rezidenti olduğu ölkənin müvafiq dövlət orqanları tərəfindən onun cinayət məsuliyyətinə cəlb olunub-olunmadığı barədə verilmiş və qanunvericilikdə müəyyən edilmiş qaydada leqallaşdırılmış arayış;";

1.11. 10-cu maddə üzrə:

1.11.1. 10.2.2-ci maddədə "maliyyə bazarlarına nəzarət orqanının" sözləri "Mərkəzi Bankın" sözləri ilə əvəz edilsin;

1.11.2. 10.2.6-cı maddəyə "üçdən" sözündən sonra "(müvafiq icra hakimiyyəti orqanı tərəfindən təyin olunduqda beşdən)" sözləri əlavə edilsin;

1.11.3. 10.2.7-ci maddədə "(mühasibat xidmətinin rəhbəri), daxili audit bölməsinin rəhbəri, bank filialının, şöbəsinin rəhbəri və baş mühasibi" sözləri "(bu vəzifələri icra edən şəxs), daxili audit bölməsinin rəhbəri, bank filialının, şöbəsinin rəhbəri, eləcə də xarici bankın yerli filialının rəhbəri və baş mühasibi (bu vəzifələri icra edən şəxs)" sözləri ilə əvəz edilsin;

1.11.4. 10.3 - 10.5-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"10.3. İnzibatçı vəzifəsinə təyin edilmək üçün aşağıdakı tələblər gözlənilməlidir:

10.3.1. bankın Müşahidə Şurasının, Audit Komitəsinin sədri və üzvləri üçün - iqtisadiyyat, idarəetmə və ya hüquq sahələrində ali təhsil və maliyyə bazarları sahəsində və ya bankın fəaliyyət strategiyasında müəyyən edilən sahələrdə azı 5 illik iş təcrübəsinin olması, yaxud ali təhsil və həmin sahələrdə azı 7 illik iş təcrübəsinin olması;

10.3.2. bankın İdarə Heyətinin sədri və üzvləri, habelə xarici bankın yerli filialının rəhbəri üçün - iqtisadiyyat, idarəetmə və ya hüquq sahələrində ali təhsil və maliyyə bazarları sahəsində azı 5 illik iş təcrübəsinin (azı 3 ili rəhbər vəzifədə olmaqla) olması, yaxud ali təhsil və maliyyə bazarları sahəsində və ya bankın fəaliyyət strategiyasında müəyyən edilən sahələrdə azı 10 illik iş təcrübəsinin (azı 5 ili rəhbər vəzifədə olmaqla) olması;

10.3.3. yerli bankın filialının rəhbəri üçün - iqtisadiyyat, idarəetmə və ya hüquq sahələrində ali təhsil və maliyyə bazarları sahəsində azı 4 illik iş təcrübəsinin (azı 2 ili bankda olmaqla) olması, yaxud ali təhsil və maliyyə bazarları sahəsində azı 5 illik iş təcrübəsinin (azı 3 ili bankda olmaqla) olması;

10.3.4. bankın daxili audit bölməsinin rəhbəri üçün - iqtisadiyyat və ya hüquq sahələrində ali təhsil və maliyyə bazarları sahəsində azı 4 illik iş təcrübəsinin (azı 2 ili bankda olmaqla) olması, yaxud ali təhsil və maliyyə bazarları sahəsində azı 5 illik iş təcrübəsinin (azı 3 ili bankda olmaqla) olması;

10.3.5. bankın və xarici bankın yerli filialının baş mühasibi (bu vəzifələri icra edən şəxs) üçün - iqtisadiyyat sahəsində ali təhsil və bankda mühasibatlıq sahəsində azı 3 illik iş təcrübəsinin olması, yaxud ali təhsil və mühasibatlıq sahəsində azı 5 illik iş təcrübəsinin (azı 3 ili bankda olmaqla) olması (bankın və xarici bankın yerli filialının baş mühasibi (bu vəzifələri icra edən şəxs) "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq peşəkar mühasib sertifikatı almalıdır);

10.3.6. bank şöbəsinin və nümayəndəliyinin, habelə xarici bankın yerli nümayəndəliyinin rəhbəri üçün - ali təhsil və bankda azı 2 illik iş təcrübəsinin olması.

10.4. Bu Qanunun 10.3.5-ci maddəsində baş mühasib (bu vəzifələri icra edən şəxs) üçün müəyyən edilmiş tələblər bankda mühasibatlıq sahəsində azı 2 illik iş təcrübəsinə və müvafiq peşəkar mühasib sertifikatına malik şəxslərə şamil edilmir.

10.5. Bank Müşahidə Şurası və İdarə Heyətinin sədri və üzvləri, habelə yerli filialı olan xarici bank yerli filialının rəhbəri vəzifəsinə nəzərdə tutulan bütün təyinatlar və dəyişikliklər barəsində Mərkəzi Banka yazılı bildiriş göndərir. Bildirişə müvafiq olaraq bu Qanunun 8.2.8-ci və 9.3.10-cu maddələrində nəzərdə tutulan sənəd və məlumatlar əlavə olunur.

Mərkəzi Bank 30 təqvim günü müddətində bildirişə baxır və təqdim edilmiş sənədlərdə səhvlər və ya çatışmazlıqlar olmadıqda həmin müddət ərzində namizədləri müsahibəyə dəvət edir. Bu təyinatlara dair Mərkəzi Bankın müsbət rəyi alındıqdan sonra həmin namizədlər öz vəzifələrinin icrasına başlayırlar. Müsahibənin keçirilməsi qaydası Mərkəzi Bank tərəfindən müəyyən edilir.

Sənədlərdə səhvlər və ya çatışmazlıqlar aşkar edildikdə bu barədə banka və ya xarici banka sənədlərin təqdim edildiyi gündən 15 təqvim günü müddətində məlumat verilir və onlara bu səhvləri və ya çatışmazlıqları aradan qaldırmaq təklif edilir. Bu halda bildirişə baxılma müddəti həmin səhvlər və ya çatışmazlıqların aradan qaldırıldığı vaxtdan hesablanır. Mərkəzi Bank bildirişə baxılma müddəti ərzində namizədləri müsahibəyə dəvət etmədikdə onların namizədliyinə müsbət baxılmış hesab olunur.";

1.11.5. aşağıdakı məzmunda 10.6 - 10.8-ci maddələr əlavə edilsin:

"10.6. Bu Qanunun 10.5-ci maddəsində nəzərdə tutulanlar istisna olmaqla, inzibatçı vəzifəsinə digər təyinat və dəyişikliklər barədə müvafiq qərarın qəbul edildiyi tarixdən 7 iş günü müddətində bank və ya xarici bankın yerli filialı tərəfindən Mərkəzi Banka yazılı bildiriş təqdim edilir və bildirişə müvafiq olaraq bu Qanunun 8.2.8-ci, 9.3.10-cu və 11.3.5-ci maddələrində nəzərdə tutulan məlumat və sənədlər əlavə olunur. Bildirişdə həmçinin təyin olunmuş inzibatçıların bu Qanunun 10-cu maddəsinin müvafiq tələblərinə cavab verməsinə dair məlumat əks etdirilir.

10.7. Bu Qanunun 10.5-ci və 10.6-cı maddələrində nəzərdə tutulan sənədlər Mərkəzi Banka təqdim edilmiş olduğu halda və həmin sənədlərdə dəyişiklik olmadıqda onların yenidən təqdim edilməsi tələb edilmir, bu şərtlə ki, Mərkəzi Banka bu barədə yazılı məlumat verilsin.

10.8. Bu maddədə nəzərdə tutulan tələblər bankların və xarici bankların yerli filiallarının bütün fəaliyyət dövrünə şamil edilir.";

1.12. 11-ci maddə üzrə:

1.12.1. maddənin adı aşağıdakı redaksiyada verilsin:

**"Maddə 11. Yerli bankların filiallarının, şöbələrinin və nümayəndəliklərinin açılmasına dair tələblər";**

1.12.2. 11.1-ci və 11.2-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"11.1. Yerli bank bu Qanunun tələbləri nəzərə alınmaqla filial, şöbə və nümayəndəlik açmaqda sərbəstdir.

11.2. Məcmu kapital, kapital adekvatlığı və likvidlik normativlərinə cavab verən, filiallar üzrə daxili nəzarət sisteminə malik olan bank filial, şöbə və nümayəndəlik aça bilər. Filial və şöbədə nağd pul saxlancı Mərkəzi Bankın müvafiq normativ xarakterli aktının tələblərinə uyğun olmalı, habelə filial və şöbələrdə aparılan əməliyyatlar haqqında məlumatların real vaxt rejimində banka ötürülməsi üçün informasiya sistemləri mövcud olmalıdır.";

1.12.3. aşağıdakı məzmunda 11.1-1-ci və 11.2-1-ci maddələr əlavə edilsin:

"11.1-1. Yerli bankların şöbələrinin fəaliyyəti ilə bağlı şərtlər və tələblər Mərkəzi Bankın normativ xarakterli aktları ilə müəyyən edilir.";

"11.2-1. Yerli bank yerli filial, şöbə və ya nümayəndəliyin açılması barədə qərarın qəbul edildiyi tarixdən 7 iş günü müddətində Mərkəzi Banka yazılı bildiriş göndərir. Bildirişə filial, şöbə və ya nümayəndəlik açmaq barədə bankın səlahiyyətli idarəetmə orqanı tərəfindən qəbul edilmiş qərarın təsdiqlənmiş surəti, habelə filial, şöbə və ya nümayəndəliyin inzibatçıları barədə bu Qanunun 11.3.5-ci maddəsində göstərilən sənəd və məlumatlar əlavə olunur. Bildirişdə filial, şöbə və ya nümayəndəliyin ünvanı, fəaliyyətə başlaması vaxtı, habelə inzibatçıları barədə bu Qanunun 10.6-cı maddəsində göstərilən məlumat əks etdirilir. Mərkəzi Bank tərəfindən 14 təqvim günü ərzində bildirişə münasibət bildirilmədikdə və ya bank tərəfindən yerli filialın, şöbənin və ya nümayəndəliyin açılması üçün bu Qanunla nəzərdə tutulmuş tələblərə riayət edilməməsi və ya banka qarşı tətbiq edilən təsir (təshih) tədbirlərinə əməl edilməməsi ilə bağlı banka yazılı məlumat göndərilmədikdə müvafiq yerli filial, şöbə və ya nümayəndəlik fəaliyyətə başlaya bilər.";

1.12.4. 11.3-cü maddənin birinci abzasının birinci cümləsində "yerli və ya xarici filialını və"sözləri "xarici filialını və ya" sözləri ilə, "maliyyə bazarlarına nəzarət orqanına" sözləri "Mərkəzi Banka" sözləri ilə əvəz edilsin;

1.12.5. 11.3.2-ci maddənin birinci və ikinci cümlələrindən və 11.3.4-cü maddədən "xarici" sözü çıxarılsın;

1.12.6. 11.3.5-ci maddədən "xarici" sözü çıxarılsın və həmin maddədə "tərəfindən imzalanmış və imzası notariat qaydasında təsdiqlənmiş vətəndaş qüsursuzluğuna dair ərizə" sözləri "vətəndaş qüsursuzluğuna dair məlumat, inzibatçı əcnəbi olduqda isə rezidenti olduğu ölkənin müvafiq dövlət orqanları tərəfindən onun cinayət məsuliyyətinə cəlb olunub-olunmadığı barədə verilmiş və qanunvericilikdə müəyyən edilmiş qaydada leqallaşdırılmış arayış" sözləri ilə əvəz edilsin;

1.12.7. 11.4-cü maddənin birinci - üçüncü cümlələrində ismin müvafiq hallarında "maliyyə bazarlarına nəzarət orqanı" sözləri ismin müvafiq hallarında "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.12.8. 11.5-ci maddə üzrə:

1.12.8.1. birinci cümlədə"filialının və ya xarici" sözləri "xarici filialının və ya" sözləri ilə, "maliyyə bazarlarına nəzarət orqanı" sözləri "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.12.8.2. ikinci, üçüncü və beşinci cümlələrdə ismin müvafiq hallarında "maliyyə bazarlarına nəzarət orqanı" sözləri ismin müvafiq hallarında "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.12.8.3. dördüncü cümlədə "filialın və ya xarici" sözləri "xarici filialın və ya" sözləri ilə əvəz edilsin;

1.12.9. 11.7-ci maddədə "maliyyə bazarlarına nəzarət orqanına" sözləri "Mərkəzi Banka" sözləri ilə, "təqvim" sözü "iş" sözü ilə əvəz edilsin;

1.12.10. aşağıdakı məzmunda 11.8-ci maddə əlavə edilsin:

"11.8. Bank filial, şöbə və nümayəndəliklərinin fəaliyyətlərinin dayandırılması və ya fəaliyyətlərinə xitam verilməsi barədə qərar qəbul etdikdə, səbəbi göstərilməklə bu barədə Mərkəzi Banka 5 iş günü müddətində yazılı bildiriş göndərməlidir. Bildirişdə fəaliyyəti dayandırılmış və ya fəaliyyətinə xitam verilmiş struktur bölməsinin aktiv və öhdəliklərinin banka və ya bankın digər struktur bölməsinə ötürülməsi qaydası göstərilir.";

1.13. 14-cü maddə üzrə:

1.13.1. 14.1.1-ci maddədə "maliyyə bazarlarına nəzarət orqanı" sözləri "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin və həmin maddəyə "deyildir" sözündən sonra "və həmin vəsaitlərin mənbəyi məlumdur" sözləri əlavə edilsin;

1.13.2. 14.1.2-ci maddəyə "təsisçisinin" sözündən sonra "və ya benefisiar mülkiyyətçilərin" sözləri əlavə edilsin;

1.13.3. 14.1.3-cü maddədən"maliyyə bazarlarına nəzarət orqanının və" sözləri çıxarılsın və həmin maddədə "maliyyə bazarlarına nəzarət orqanı" sözləri "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.13.4. 14.1.4-cü maddəyə "mühüm" sözündən əvvəl "benefisiar mülkiyyətçilər," sözləri əlavə edilsin;

1.13.5. 14.1.11-ci, 14.2.5-ci, 14.2.8-ci və 14.3-cü maddələrdə ismin müvafiq hallarında "maliyyə bazarlarına nəzarət orqanı" sözləri ismin müvafiq hallarında "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.13.6. 14.1.13-cü maddədən "maliyyə bazarlarına nəzarət orqanının və" sözləri çıxarılsın;

1.13.7. 14.2-ci maddənin birinci abzasında "yerli və xarici filiallarının, xarici" sözləri "xarici filiallarının və" sözləri ilə, "maliyyə bazarlarına nəzarət orqanı" sözləri "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.13.8. 14.2.7-ci maddə ləğv edilsin;

1.14. 15-ci maddə üzrə:

1.14.1. maddənin adı aşağıdakı redaksiyada verilsin:

**"Maddə 15. Bankların, onların filiallarının, şöbələrinin və nümayəndəliklərinin reyestri";**

1.14.2. 15.1-ci maddənin birinci cümləsində "maliyyə bazarlarına nəzarət orqanı" sözləri "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin və həmin maddənin ikinci cümləsinə "tarixi" sözündən sonra "(bu Qanunla lisenziya və icazə tələb olunduqda)" sözləri əlavə edilsin;

1.14.3. 15.2-ci maddədə "maliyyə bazarlarına nəzarət orqanına" sözləri "Mərkəzi Banka" sözləri ilə,"təqvim" sözü "iş" sözü ilə əvəz edilsin;

1.15. 16-cı maddə üzrə:

1.15.1.16.1-ci maddənin birinci abzasında "lisenziyası" sözü "lisenziyasının ləğv edilməsi məsələsinə" sözləri ilə, "maliyyə bazarlarına nəzarət orqanı" sözləri "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin və həmin abzasdan "ləğv edilməsi məsələsinə" sözləri çıxarılsın;

*Ardı 5-ci səh.*

# "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 4-cü səh.*

1.15.2. 16.1.5-ci, 16.1.6-cı, 16.1.12-ci, 16.1.14-cü, 16.2.5-ci və 16.3-cü maddələrdə ismin müvafiq hallarında "maliyyə bazarlarına nəzarət orqanı" sözləri ismin müvafiq hallarında "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.15.3. 16.1.9-cu və 16.2.7-ci maddələrdən ", maliyyə bazarlarına nəzarət orqanının" sözləri çıxarılsın;

1.15.4. 16.1.15-ci maddədən "maliyyə bazarlarına nəzarət orqanı və ya" sözləri çıxarılsın və həmin maddəyə "banklarına" sözündən sonra "və ya xarici bankın yerli filiallarına" sözləri əlavə edilsin;

1.15.5. 16.1.16-cı və 16.1.17-ci maddələrdən "maliyyə bazarlarına nəzarət orqanına və ya" sözləri çıxarılsın;

1.15.6. 16.1.18-ci maddə aşağıdakı redaksiyada verilsin:

"16.1.18. bank və ya xarici bankın yerli filialı bu Qanuna uyğun olaraq Mərkəzi Bankın ona verdiyi sərəncamları və ya digər yazılı göstərişləri yerinə yetirmədikdə;";

1.15.7. 16.2-ci maddənin birinci abzasında "filiallarına və nümayəndəliklərinə, o cümlədən" sözləri "xarici filial və nümayəndəliklərinə, habelə" sözləri ilə, "maliyyə bazarlarına nəzarət orqanı" sözləri "Mərkəzi Bank" sözləri iləəvəz edilsin;

1.15.8. 16.2.9-cu maddədə "filialın və ya nümayəndəliyin" sözləri "nümayəndəliyin və ya yerli bankın xarici filialının" sözləri ilə əvəz edilsin;

1.15.9. aşağıdakı məzmunda 16.2.9-1-ci maddə əlavə edilsin:

"16.2.9-1. nümayəndəliyə və ya yerli bankın xarici filialına xaricdə verilmiş icazə ləğv edildikdə;";

1.15.10. 16.4-cü maddə ləğv edilsin;

1.16. 17-ci maddə üzrə:

1.16.1. 17.1-ci maddədə "bank lisenziyasının və ya filialın və nümayəndəliyin açılmasına verilmiş" sözləri "lisenziya və" sözləri ilə, "maliyyə bazarlarına nəzarət orqanına" sözləri "Mərkəzi Banka" sözləri ilə əvəz edilsin;

1.16.2. 17.2-ci maddənin birinci hissəsinin ikinci cümləsində "maliyyə bazarlarına nəzarət orqanı" sözləri "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin, ikinci hissəsinə "Bankların" sözündən sonra "xarici" sözü əlavə edilsin və həmin hissədə "maliyyə bazarlarına nəzarət orqanı" sözləri "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.16.3. 17.3-cü və 17.4-cü maddələrdə "maliyyə bazarlarına nəzarət orqanı" sözləri "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.17. 22-ci maddə üzrə:

1.17.1. 22.2 - 22.3-cü maddələrdə,22.4-cü maddənin birinci abzasında, 22.5-ci maddənin birinci abzasının birinci - üçüncü cümlələrində, 22.6-cı maddədə, 22.7-ci maddənin birinci və ikinci hissələrində, 22.8-ci maddədə, 22.9-cu maddənin birinci və ikinci cümlələrində, 22.10-cu maddənin birinci abzasında, 22.10.4-cü və 22.11-ci maddələrdə ismin müvafiq hallarında "maliyyə bazarlarına nəzarət orqanı" sözləri ismin müvafiq hallarında "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.17.2. 22.4.1.2-ci maddədə "hər bir rəhbər tərəfindən imzalanmış və imzası notariat qaydasında təsdiqlənmiş vətəndaş qüsursuzluğuna dair ərizə" sözləri "onların vətəndaş qüsursuzluğuna dair məlumat" sözləri ilə əvəz edilsin;

1.17.3. 22.4.2.1-ci maddədə "tərəfindən imzalanmış və imzası notariat qaydasında təsdiqlənmiş vətəndaş qüsursuzluğuna dair ərizə" sözləri"onun vətəndaş qüsursuzluğuna dair məlumat" sözləri ilə əvəz edilsin;

1.17.4. 22.4.2.2-ci maddəyə "ölkənin" sözündən sonra "bir və ya bir neçə maliyyə təşkilatının müsbət tövsiyələri və/və ya bank hesablarından çıxarışlar (daimi yaşayış yeri Azərbaycan Respublikasının ərazisi olan əcnəbilərə münasibətdə istisna olmaqla) və rezidenti olduğu ölkənin" sözləri, "verilmiş" sözündən sonra "və qanunvericilikdə müəyyən edilmiş qaydada leqallaşdırılmış" sözləri əlavə edilsin, həmin maddədə "hakimiyyət" sözü "dövlət" sözü ilə əvəz edilsin və həmin maddədən "və bir və ya bir neçə maliyyə təşkilatının müsbət tövsiyələri və/və ya bank hesablarından çıxarışlar" sözləri çıxarılsın;

1.17.5. 22.4.3-cü maddəyə "şəxsin" sözündən sonra "mühüm iştirak payının əldə edilməsinə yönəldilən vəsaitinin mənbəyi, habelə" sözləri əlavə edilsin;

1.17.6. 22.4.4-cü maddədən "hüquqi" sözü çıxarılsın;

1.17.7. 22.5.4-cü maddəyə "olduqda" sözündən sonra "və ya mühüm iştirak payının əldə edilməsinə yönəldilən vəsaitin mənbəyi məlum olmadıqda və ya bu Qanunun 14.1.2-ci maddəsində göstərilən faktlar müəyyən edildikdə" sözləri əlavə edilsin;

1.17.8. 22.5.7-ci maddədən "maliyyə bazarlarına nəzarət orqanının və" sözləri çıxarılsın;

1.18. 25-ci maddə üzrə:

1.18.1. 25.1.4-cü maddədə "xəbərdar etmək, maliyyə bazarlarına nəzarət orqanına" sözləri "məlumatlandırmaq, Mərkəzi Banka" sözləri ilə əvəz edilsin;

1.18.2. 25.1.10-cu maddəyə "hallar" sözündən sonra "və bu Qanunun 40.1.1-1-ci maddəsinə uyğun olaraq İdarə Heyəti tərəfindən qərarın qəbul edilməsi halları" sözləri əlavə edilsin;

1.18.3. 25.1.13-cü maddənin birinci hissəsində, ikinci hissəsinin birinci və ikinci cümlələrində ismin müvafiq hallarında "maliyyə bazarlarına nəzarət orqanı" sözləri ismin müvafiq hallarında "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.19. 27.4-cü maddədə "digər idarəetmə orqanlarının üzvü olan şəxslər" sözləri "İdarə Heyətinin üzvləri və bankın səhmdarları" sözləri ilə əvəz edilsin və həmin maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Müşahidə Şurasının üzvləri (bankın səhmdarları istisna olmaqla) Audit Komitəsinin üzvü ola bilərlər.";

1.20. 30-cu maddə üzrə:

1.20.1. 30.2-ci maddədə, 30.4-cü maddənin birinci abzasında, 30.5-ci maddənin birinci abzasının birinci - üçüncü cümlələrində, 30.6-cı, 30.7-ci və 30.8-ci (hər iki halda) maddələrdə ismin müvafiq hallarında "maliyyə bazarlarına nəzarət orqanı" sözləri ismin müvafiq hallarında "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.20.2. 30.4.4-cü maddənin birinci hissəsində "hər bir rəhbər tərəfindən imzalanmış və imzaları notariat qaydasında təsdiqlənmiş vətəndaş qüsursuzluğuna dair ərizə" sözləri "onların vətəndaş qüsursuzluğuna dair məlumat" sözləri ilə əvəz edilsin;

1.20.3. 30.5.4-cü maddədən"maliyyə bazarlarına nəzarət orqanının və" sözləri çıxarılsın;

1.21. 31.1-ci, 38.1-ci və 38.2-ci maddələrdən "maliyyə bazarlarına nəzarət orqanının və" sözləri çıxarılsın;

1.22. aşağıdakı məzmunda 32.1.6-2-ci maddə əlavə edilsin:

"32.1.6-2. "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan həcmdə və qaydada qiymətli kağızlar və törəmə maliyyə alətləri ilə investisiya xidmətlərinin (əməliyyatlarının) həyata keçirilməsi;";

1.23. 34-cü maddə üzrə:

1.23.1. 34.1-ci maddənin birinci hissəsində və ikinci hissəsinin birinci cümləsində, 34.2-ci maddənin birinci abzasında, 34.3-cü,34.4-cü və 34.6-cı maddələrdə ismin müvafiq hallarında "maliyyə bazarlarına nəzarət orqanı" sözləri ismin müvafiq hallarında "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.23.2. 34.2.15-ci maddənin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və 34.2.16-cı maddə ləğv edilsin;

1.23.3. 34.5-ci maddənin birinci cümləsində "maliyyə bazarlarına nəzarət orqanı" sözləri "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin və həmin maddənin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Mərkəzi Bank bankların sistem əhəmiyyətliliyi və (və ya) risk profili nəzərə alınmaqla, onlar üçün müəyyən edilmiş normativlərdən və tələblərdən fərqli normativlər və tələblər müəyyən etmək hüququna malikdir.";

1.24. 35.1-ci maddədən ", maliyyə bazarlarına nəzarət orqanının" sözləri çıxarılsın;

1.25. 36.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"36.4. Banklar göstərdiyi bank xidmətləri və onların şərtləri barədə məlumatların müqavilə bağlanmazdan əvvəl müştərilər üçün əlçatanlığını və həmin məlumatların başadüşülən formada əldə edilməsini təmin etməlidir.";

1.26. 40-cı maddə üzrə:

1.26.1. 40.1.1-1-ci maddəyə "qərarı" sözündən sonra "və yabu Qanunun 25.1.9-cu maddəsinin tələbi nəzərə alınmaqla Mərkəzi Bankın müəyyən etdiyi limitlər və şərtlər daxilində İdarə Heyətinin qərarı" sözləri əlavə edilsin;

1.26.2. 40.2-ci maddənin ikinci cümləsinə "Müşahidə Şurasının" sözlərindən sonra "və İdarə Heyətinin" sözləri əlavə edilsin;

1.27. 41.2-ci, 41.3-cü və 41.5-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"41.2. Bank sirrini təşkil edən məlumatlar müştərinin özünə və səlahiyyətli nümayəndəsinə, habelə müştərinin yazılı razılığı ilə üçüncü şəxslərə verilir. Müştərinin yazılı razılığı ayrıca sənəd formasında tərtib edilir və müştəri tərəfindən əl imzası (notariat qaydasında və ya bankın səlahiyyətli şəxsi tərəfindən təsdiqlənməklə), gücləndirilmiş elektron imza və ya məsafədən bank hesablarının açılması üçün Mərkəzi Bank tərəfindən müəyyən edilən digər üsul ilə imzalanır. Həmin razılıqda bank sirrini təşkil edən məlumatların verilməsi nəzərdə tutulan şəxslər, verilən məlumatların dairəsi, məlumatların verilməsi müddəti (müəyyən edildiyi halda) və məlumatların verilməsi ilə bağlı müştərinin zəruri hesab etdiyi digər şərtlər aydın şəkildə göstərilməlidir. Müştərinin yazılı razılığı olmadan bank sirrini təşkil edən məlumatlar bank tərəfindən digər şəxslərə yalnız aşağıdakı hallarda verilir:

41.2.1. nəzarət funksiyalarının həyata keçirilməsi ilə bağlı - Mərkəzi Banka;

41.2.2. Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş hallarda və qaydada - vergi orqanlarına;

41.2.3. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 76-1-ci maddəsində nəzərdə tutulmuş hallarda və qaydada xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikasının ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə vergi orqanları vasitəsilə - həmin xarici dövlətlərin səlahiyyətli orqanlarına;

41.2.4. "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq - maliyyə monitorinqi orqanına;

41.2.5. Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun olaraq xüsusi seçki hesabına daxil olan və xərclənən vəsaitlər barədə - Mərkəzi Seçki Komissiyasına;

41.2.6. "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda və qaydada - Əmanətlərin Sığortalanması Fonduna;

41.2.7. "İcra haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən icra sənədinin məcburi icraya yönəldilməsi ilə əlaqədar bank saxlancında əmlakın və bank hesabının mövcudluğu, habelə hesab üzrə qalıqlar barədə - icra məmurlarına;

41.2.8. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi ilə müəyyən edilmiş hallarda və qaydada Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün icazə almış əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin müddətli əmanəti barədə - miqrasiya orqanlarına;

41.2.9. "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq - Azərbaycan Respublikasının Hesablama Palatasına;

41.2.10. ixracda hesablaşmalara dövlət nəzarəti ilə bağlı ixrac olunmuş mal (xidmət) müqabilində bank hesabına vəsaitin köçürülməsi barədə - gömrük orqanlarına;

41.2.11. cinayət işinin istintaqı, müştərinin pul vəsaitinə və bankın saxlancında olan əmlakına həbs qoyulması, tələb yönəldilməsi və bunların müsadirə edilməsi ilə əlaqədar məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında - müvafiq dövlət orqanlarına və onların vəzifəli şəxslərinə;

41.2.12. məhkəmənin icraatında olan işlərlə bağlı qanuni qüvvəyə minmiş məhkəmə qərarı əsasında - məhkəmələrə;

41.2.13. müştəri vəfat etdikdə onun hesabları və əmanətləri, habelə bank saxlancında olan əmlakı barədə məlumatlar icraatında olan vərəsəlik işləri üzrə - notariuslara, habelə müvafiq notariat hərəkətlərini icra edən konsulluq idarələrinə;

41.2.14. bankın öhdəliklərinin könüllü restrukturizasiyası zamanı bu Qanunda nəzərdə tutulmuş qaydada - müvafiq kreditorlara;

41.2.15. bankın aktiv və (və ya) öhdəliklərinin bu Qanunda nəzərdə tutulan qaydada köçürülməsi (ötürülməsi/satılması) zamanı - aktiv və (və ya) öhdəlikləri qəbul edən şəxslərə;

41.2.16. bankın audit yoxlaması zamanı - kənar auditorlara;

41.2.17. bankın qanuni maraqlarının qorunması məqsədilə və yalnız bu məqsədlər üçün tələb olunduğu həcmdə müştərinin borc öhdəliyi barədə məhkəməyə, hüquqmühafizə orqanlarına, banka hüquqi yardım göstərən vəkilə, habelə bankın öz təşəbbüsü, yaxud qanunda və ya müqavilədə nəzərdə tutulduqda - arbitraja (münsiflər məhkəməsinə), mediatora, mübahisələrin digər alternativ həlli mexanizmini həyata keçirən şəxslərə.

41.3. Borcalanlar barədə məlumat kredit bürolarına "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada verilir.";

"41.5. Bankların mövcud və keçmiş inzibatçıları, digər əməkdaşları, səhmdarları bankın idarə edilməsi və ya xidməti səlahiyyətlərinin həyata keçirilməsi ilə əlaqədar onlara məlum olan, habelə bu Qanunun 41.2-ci və 41.3-cü maddələrində nəzərdə tutulmuş şəxslər əldə etdikləri bank sirrini təşkil edən məlumatların qeyri-qanuni açıqlanmasına görə Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilmiş qaydada mülki, inzibati və cinayət məsuliyyəti daşıyırlar.";

1.28. 44.3.3-cü maddədə "maliyyə bazarlarına nəzarət orqanına" sözləri "Mərkəzi Banka" sözləri ilə əvəz edilsin, həmin maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 44.3.4-cü maddə əlavə edilsin:

"44.3.4. banka və xarici bankın yerli filialına nəzarət funksiyasının həyata keçirilməsi üçün tələb olunduqda Mərkəzi Bankın yazılı sorğusuna əsasən auditini aparan və ya aparmış bankın və xarici bankın yerli filialının fəaliyyətinə dair istənilən sənəd və məlumatları sorğuda müəyyən edilmiş müddətdə Mərkəzi Banka təqdim edir.";

1.29. 45.3-cü maddədən "və mətbu orqanda" sözləri çıxarılsın və həmin maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İllik maliyyə hesabatları çap mediasında da dərc etdirilə bilər.";

1.30. 46-cı maddə üzrə:

1.30.1. 46.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"46.1. Bank və xarici bankın yerli filialı maliyyə vəziyyətinin qiymətləndirilməsi və fəaliyyətinə nəzarət olunması məqsədilə Mərkəzi Banka prudensial hesabatları (bank tərəfindən həmçinin törəmə təsərrüfat cəmiyyətlərini daxil edən konsolidasiya əsasında tərtib edilmiş prudensial hesabatları), habelə bank statistika hesabatlarını təqdim etməlidirlər. Prudensial və bank statistikası hesabatlarının forması, məzmunu və təqdim edilməsi qaydaları Mərkəzi Bank tərəfindən müəyyən edilir.";

1.30.2. 46.2-ci maddə üzrə:

1.30.2.1. birinci cümlədə (hər iki halda) ismin müvafiq hallarında "maliyyə bazarlarına nəzarət orqanı" sözləri ismin müvafiq hallarında "Mərkəzi Bank" sözləri ilə, "inspektorları" sözü "əməkdaşları" sözü ilə əvəz edilsin və həmin cümlədən "ildə bir dəfə" sözləri çıxarılsın;

1.30.2.2. ikinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Banklarda və xarici bankların yerli filiallarında yoxlamalar "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən aparılır.";

1.30.2.3. üçüncü və dördüncü cümlələr çıxarılsın;

1.30.3. 46.3-cü maddənin birinci abzasında və 46.6-cı maddədə ismin müvafiq hallarında "maliyyə bazarlarına nəzarət orqanı" sözləri ismin müvafiq hallarında "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.30.4. 46.4-cü maddənin birinci hissəsinin birinci və ikinci cümlələrində ismin müvafiq hallarında "maliyyə bazarlarına nəzarət orqanı" sözləri ismin müvafiq hallarında "Mərkəzi Bank" sözləri ilə, ikinci hissəsində "maliyyə bazarlarına nəzarət orqanının inspektorları" sözləri "Mərkəzi Bankın əməkdaşları" sözləri ilə əvəz edilsin;

1.30.5. 46.5-ci maddədə "maliyyə bazarlarına nəzarət orqanının inspektorlarına" sözləri "Mərkəzi Bankın əməkdaşlarına" sözləri ilə əvəz edilsin;

1.31. 46-1-ci maddə ləğv edilsin;

1.32. 47-ci maddə üzrə:

1.32.1. 47.1-ci maddənin birinci abzasında(hər üç halda)ismin müvafiq hallarında "maliyyə bazarlarına nəzarət orqanı" sözləri ismin müvafiq hallarında "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin və həmin maddəyə "aşkar etdikdə" sözlərindən sonra ", o cümlədən "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq əsaslandırılmış mülahizə hüququndan istifadə edildikdə" sözləri əlavə edilsin;

1.32.2. 47.2-ci (hər iki halda), 47.3-cü və 47.5-ci maddələrdəismin müvafiq hallarında "maliyyə bazarlarına nəzarət orqanı" sözləri ismin müvafiq hallarında "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.32.3. 47.4-cü maddənin birinci hissəsində "və çatışmazlıqların" sözləri "və (və ya) çatışmazlıqların, pozuntuların" sözləri ilə,"maliyyə bazarlarına nəzarət orqanının" sözləri "Mərkəzi Bankın" sözləri ilə, ikinci və üçüncü hissələrində ismin müvafiq hallarında "maliyyə bazarlarına nəzarət orqanı" sözləri ismin müvafiq hallarında "Mərkəzi Bank" sözləri iləəvəz edilsin;

1.33. 57.3-cü maddənin birinci cümləsində "maliyyə bazarlarına nəzarət orqanının" sözləri "Mərkəzi Bankın" sözləri ilə, üçüncü və dördüncü cümlələrində "Maliyyə bazarlarına nəzarət orqanı" sözləri "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.34. 57-2.2-ci maddədə, 57-4.1-ci maddənin birinci abzasında, 57-9.9-cu maddənin birinci cümləsində, 57-10.5-ci maddənin ikinci cümləsində, 57-11.20-ci maddədə, 71-1-ci maddənin adında, 71-1.1-ci maddədə və 71-1.2-ci maddənin birinci abzasında ismin müvafiq hallarında "Maliyyə bazarlarına nəzarət orqanı" sözləri ismin müvafiq hallarında "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.35. 57-3.4-cü maddədən "inzibati qaydada və" sözləri çıxarılsın;

1.36. 57-5.5-ci maddənin birinci cümləsində "maliyyə bazarlarına nəzarət orqanı" sözləri və ikinci cümləsində "Maliyyə bazarlarına nəzarət orqanı" sözləri "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.37. 57-6.1-ci maddənin üçüncü cümləsindən ", habelə aktivlərin köçürülməsinin bank sistemində yaradacağı risklər" sözləri çıxarılsın və həmin cümlədə"maliyyə bazarlarına nəzarət orqanı" sözləri "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin, dördüncü cümlədə "maliyyə bazarlarına nəzarət orqanının" sözləri "Mərkəzi Bankın" sözləri ilə əvəz edilsin;

1.38. 57-8.2-ci maddənin birinci və üçüncü cümlələrində "Maliyyə bazarlarına nəzarət orqanı" sözləri, ikinci cümləsində "maliyyə bazarlarına nəzarət orqanı" sözləri "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.39. 57-9.2-ci maddədə "Mərkəzi Bank və müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmaqla maliyyə bazarlarına nəzarət orqanı" sözləri "müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmaqla Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.40. 57-9.7-ci maddənin birinci cümləsində "maliyyə bazarlarına nəzarət orqanı" sözləri, dördüncü cümləsində "Maliyyə bazarlarına nəzarət orqanı" sözləri "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.41. 57-11.3-cü maddənin birinci cümləsində "Maliyyə bazarlarına nəzarət orqanı" sözləri "Mərkəzi Bank" sözləri ilə, ikinci cümləsində "maliyyə bazarlarına nəzarət orqanının" sözləri "Mərkəzi Bankın" sözləri ilə əvəz edilsin;

1.42. 57-11.4-cü maddədə "Maliyyə bazarlarına nəzarət orqanı" sözləri "Mərkəzi Bank" sözləri ilə, "maliyyə bazarlarına nəzarət orqanına" sözləri "Mərkəzi Banka" sözləri ilə əvəz edilsin;

1.43. 57-11.5-ci maddənin birinci və üçüncü cümlələrində "Maliyyə bazarlarına nəzarət orqanı" sözləri "Mərkəzi Bank" sözləri ilə, ikinci cümləsində "maliyyə bazarlarına nəzarət orqanına" sözləri "Mərkəzi Banka" sözləri ilə əvəz edilsin;

1.44. 57-11.10-cu maddənin birinci cümləsində "Maliyyə bazarlarına nəzarət orqanı" sözləri "Mərkəzi Bank" sözləri ilə, ikinci (hər iki halda) və üçüncü cümlələrində ismin müvafiq hallarında "maliyyə bazarlarına nəzarət orqanı" sözləri ismin müvafiq hallarında "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.45. 71.6-cı maddədən "maliyyə bazarlarına nəzarət orqanına və" sözləri çıxarılsın;

1.46. 74.1-ci maddənin birinci abzasında "Bank sisteminin mənafeyi" sözləri "Maliyyə bazarlarının sabitliyinin təmin edilməsi" sözləri ilə, hər iki halda "maliyyə bazarlarına nəzarət orqanının" sözləri "Mərkəzi Bankın" sözləri ilə əvəz edilsin;

1.47. 92-ci maddədən "maliyyə bazarlarına nəzarət orqanı və onun Direktorlar Şurasının üzvləri və digər vəzifəli şəxsləri," sözləri çıxarılsın;

1.48. aşağıdakı məzmunda 94.1-1-ci maddə əlavə edilsin:

"94.1-1. Bu Qanunun məqsədləri üçün müvafiq şəxslərin məhkumluğu Mərkəzi Bankın sorğusu ilə müvafiq icra hakimiyyəti orqanının verdiyi arayış əsasında müəyyən edilir.".

**Maddə 2.** Bu Qanunun inzibatçıların təhsilinə və iş təcrübəsinə dair tələbləri bu Qanun qüvvəyə minənədək müvafiq vəzifəyə təyin edilmiş şəxslərə şamil edilmir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyul 2023-cü il*

# "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 935-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2004-cü il 26 mart tarixli 42 nömrəli, "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 140-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2016-cı il 9 mart tarixli 819 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 935-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 10.2.6-cı maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 94.1-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 935-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə edilsin ki:

3.1. aşağıdakı normativ xarakterli aktları altı ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

3.1.1. "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 8.2.5-1-ci maddəsinə uyğun olaraq, məlumatın formasını;

3.1.2. həmin Qanunun 10.5-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, bankın Müşahidə Şurası və İdarə Heyətinin sədri və üzvləri, habelə yerli filialı olan xarici bank yerli filialının rəhbəri ilə müsahibənin keçirilməsi qaydasını;

3.1.3. həmin Qanunun 11.1-1-ci maddəsinə uyğun olaraq, yerli bankların şöbələrinin fəaliyyəti ilə bağlı şərtləri və tələbləri;

3.1.4. həmin Qanunun 40.1.1-1-ci maddəsinə uyğun olaraq, aidiyyəti olan şəxslərə kreditlərin verilməsi limitlərini və şərtlərini;

3.2. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 935-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

4. "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 26 mart tarixli 42 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 143; 2010, № 2, maddə 80; 2014, № 11, maddə 1392; 2017, № 4, maddə 550; 2021, № 12, maddə 1373; 2022, № 8, maddə 862; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 16 may tarixli 2140 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3.1-1-ci bəndə "Qanunun" sözündən sonra "10.2.6-cı maddəsində," sözləri əlavə edilsin;

4.2. 3.2-ci bənd ləğv edilsin;

4.3. 3.4-cü bənddə "maddəsində" sözü "və 94.1-1-ci maddələrində" sözləri ilə əvəz edilsin.

5. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 140-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 9 mart tarixli 819 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 3, maddə 440; 2021, № 12, maddə 1373) 3-cü hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 iyul 2023-cü il*

# "Bank olmayan kredit təşkilatları haqqında"Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 27-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 2, maddə 72; 2013, № 7, maddə 789; 2014, № 10, maddə 1160; 2016, № 3, maddə 407, № 4, maddə 641; 2017, № 12 (I kitab), maddə 2228; 2018, № 5, maddə 844, № 6, maddə 1171; 2019, № 1, maddə 32, № 5, maddə 815;2021, № 12, maddə 1298; 2023, № 2, maddə 166, № 3, maddə 334, № 4, maddə 452) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci maddə üzrə:

1.1.1. 1.0.3-cü və 1.0.6-cı maddələr ləğv edilsin;

1.1.2. 1.0.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"1.0.4. İnzibatçı -idarəetmə orqanlarının, Audit Komitəsinin üzvləri, baş mühasib (bu vəzifələri icra edən şəxs), daxili auditor, filialın, o cümlədən xarici BOKT-nin yerli filialının rəhbəri;";

1.1.3. 1.0.5-ci maddəyə ikinci halda "şəxslər" sözündən sonra "və inzibatçılar, habelə inzibatçılarla Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-1.1.3-cü maddəsində nəzərdə tutulmuş qohumluq əlaqələri olan şəxslər. Xarici BOKT-nin yerli filialının rəhbəri və baş mühasibi (bu vəzifələri icra edən şəxs), habelə xarici BOKT-nin rezidenti olduğu ölkənin qanunvericiliyinə görə xarici BOKT-yə aidiyyəti olan digər şəxslər xarici BOKT-nin yerli filialının aidiyyəti şəxsləri hesab olunurlar" sözləri əlavə edilsin;

1.1.4. aşağıdakı məzmunda 1.0.7 - 1.0.10-cu maddələr əlavə edilsin:

"1.0.7. Kapital - BOKT-nin balansı üzrə kapital elementlərinin məcmusu olmaqla nizamnamə (şərikli) kapitalının (əmlak haqları) və bölüşdürülməmiş mənfəətinin (mənfəətdən vergilər və başqa dövlət ödənişləri aparıldıqdan sonra qalan məbləğ), kapital ehtiyatının, qrant və ianələrin (müqavilə şərtlərinə əsasən nağd vəsait formasında verilmiş və BOKT-nin sərəncamında qalan) cəmi və onlardan tutulmaların fərqi;

1.0.8. Mühüm iştirak payı - nizamnamə (şərikli) kapitalının və ya səsvermə hüququnun 10 və ya daha çox faizini təşkil edən, yaxud müqavilə əsasında iştirakçısı olduğu hüquqi şəxsin qərarlarının qəbul edilməsinə mühüm təsir göstərməyə imkan verən paya birbaşa və ya dolayı yolla sahiblik;

1.0.9. Vətəndaş qüsursuzluğu - BOKT-nin benefisiar mülkiyyətçilərinin, inzibatçılarının, habelə nizamnamə (şərikli) kapitalında mühüm iştirak payının sahiblərinin, həmin sahib hüquqi şəxs olduqda onun icra orqanının rəhbərinin, "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 17-ci maddəsinin tələblərinə uyğun olması faktı;

1.0.10. Maliyyə bazarları sahəsi - maliyyə bazarlarının tənzimlənməsi və nəzarət sahəsi və ya Mərkəzi Bank tərəfindən tənzimlənən və nəzarət olunan maliyyə xidmətlərinin göstərildiyi fəaliyyət sahələri.";

1.2. 2.1-ci maddədən "və maliyyə bazarlarına nəzarət orqanının" sözləri çıxarılsın;

1.3. 5-ci maddə üzrə:

1.3.1. 5.2-ci maddə ləğv edilsin;

1.3.2. 5.3-cü maddənin birinci cümləsindən "yalnız girov əmanəti qəbul etmək hüququ olmayan" sözləri və ikinci cümləsindən "girov əmanəti qəbul etmək hüququ olmayan" sözləri çıxarılsın;

1.4. 7.2-ci, 12.1.2-ci, 12.2-ci, 12.3-cü və 22.1-ci (hər iki halda) maddələrdə ismin müvafiq hallarında "maliyyə bazarlarına nəzarət orqanı" sözləri ismin müvafiq hallarında "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.5. aşağıdakı məzmunda 7-1-ci maddə əlavə edilsin:

**"Maddə 7-1. Nizamnamə (şərikli) kapitalında mühüm iştirak payının əldə edilməsi**

7-1.1. BOKT-nin nizamnamə (şərikli) kapitalında hər hansı şəxs tərəfindən mühüm iştirak payının, o cümlədən mühüm iştirak payını artıraraq səsvermə hüququ olan səhmlərin və ya nizamnamə (şərikli) kapitalının 20, 33 və 50 faizinə çatmasına və ya bu miqdarı keçməsinə gətirib çıxaran iştirak payının əldə edilməsi üçün BOKT-nin səlahiyyətli idarəetmə orqanı bu barədə qərarı və müraciəti ilə birlikdə aşağıdakı sənədləri və məlumatları Mərkəzi Banka təqdim edir:

7-1.1.1. iştirak payını əldə etmək istəyən hüquqi şəxs olduqda:

7-1.1.1.1. hüquqi şəxsin adı, ünvanı, fəaliyyət növü haqqında məlumatları, habelə həmin şəxsin nəzərdə tutulan iştirak payının əldə edilməsinə icazə verən səlahiyyətli idarəetmə orqanının qərarının təsdiqlənmiş surətini;

7-1.1.1.2. həmin hüquqi şəxsin icra orqanının rəhbərinin vətəndaş qüsursuzluğu barədə məlumatı (rəhbər əcnəbi olduqda, rezidenti olduğu ölkənin müvafiq hakimiyyət orqanları tərəfindən cinayət məsuliyyətinə cəlb olunub-olunmadığı barədə verilmiş və qanunvericilikdə müəyyən edilmiş qaydada leqallaşdırılmış və ya apostil verilmiş arayışı);

7-1.1.1.3. hüquqi şəxs xarici hüquqi şəxs olduqda yuxarıda göstərilən sənədlərdən başqa qanunvericilikdə müəyyən edilmiş qaydada leqallaşdırılmış və ya apostil verilmiş nizamnaməsini (əsasnaməsini), onun yerləşdiyi ölkədə qeydiyyatdan keçdiyini təsdiqləyən sənədi;

7-1.1.2. iştirak payını əldə etmək istəyən fiziki şəxs olduqda:

7-1.1.2.1. soyadını, adını, atasının adını və vətəndaşlığını, şəxsiyyətini təsdiq edən sənədin məlumatlarını, məşğuliyyət növünü göstərən məlumatı və sənədləri, habelə vətəndaş qüsursuzluğu barədə məlumatı;

7-1.1.2.2. fiziki şəxs əcnəbi olduqda, yuxarıda göstərilən məlumat və sənədlərdən başqa rezidenti olduğu ölkənin müvafiq dövlət orqanları tərəfindən onun cinayət məsuliyyətinə cəlb olunub-olunmadığı barədə verilmiş və qanunvericilikdə müəyyən edilmiş qaydada leqallaşdırılmış və ya apostil verilmiş arayışı;

7-1.1.3. iştirak payının əldə edilməsinə yönəldilən vəsaitin mənbəyi haqqında məlumatı və sənədləri.

7-1.2. Mərkəzi Bank bu Qanunun 7-1.1-ci maddəsinə uyğun verilmiş ərizəyə ən geci 20 iş günü müddətində baxır və icazənin verilməsindən aşağıdakı hallarda imtina edir:

7-1.2.1. bu Qanunun 7-1.1-ci maddəsində nəzərdə tutulan məlumatlar və sənədlər tam təqdim olunmadıqda;

7-1.2.2. payın əldə edilməsinə yönəldilən vəsaitin mənbəyi məlum olmadıqda və ya bu Qanunun 12.1.2-2-ci maddəsində göstərilən faktlar müəyyən edildikdə;

7-1.2.3. iştirak payını əldə etmək istəyən şəxslər (hüquqi şəxs olduqda icra orqanının rəhbərinin) vətəndaş qüsursuzluğu tələblərinə cavab vermədikdə.

7-1.3. İştirak payının əldə edilməsi barədə Mərkəzi Bankın verdiyi icazədə iştirak payının alınmasının son müddəti göstərilir. Bu müddət bitdikdən sonra və ya Mərkəzi Bankın icazəsi olmadan iştirak payının əldə edilməsi barədə əqdlərbağlanıldıqda, həmin əqdlər bağlanıldığı andan etibarsız hesab edilir.

7-1.4. Mərkəzi Bank bu Qanunun 7-1.2.2-ci və 7-1.2.3-cü maddələrində göstərilən halları aşkar etdikdə iştirak payı olan şəxsin payının özgəninkiləşdirilməsi və ya BOKT tərəfindən geri alınması (əldə edilməsi) barədə məhkəməyə ərizə ilə müraciət edir.

7-1.5. BOKT-nin kapitalında mühüm iştirak payına malik olan hər hansı bir şəxs ona məxsus səs hüquqlarını və ya nizamnamə (şərikli) kapitalındakı payını 20, 33 və 50 faizdən aşağı səviyyəyə endirməzdən əvvəl bu barədə Mərkəzi Banka yazılı məlumat verməlidir.";

1.6. 8-ci maddə üzrə:

1.6.1. 8.1-ci və 8.2-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"8.1. BOKT-nin idarəetmə orqanları təşkilati-hüquqi formasından asılı olaraq Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada formalaşdırılır.

8.2. İnzibatçı vəzifəsinə təyin edilmək üçün aşağıdakı tələblər gözlənilməlidir:

8.2.1. Müşahidə Şurasının, Audit Komitəsinin sədri və üzvləri üçün - iqtisadiyyat, idarəetmə və ya hüquq sahələrində ali təhsil və maliyyə bazarları sahəsində və ya BOKT-nin fəaliyyət strategiyasında müəyyən edilən sahələrdə azı 3 illik iş təcrübəsinin olması, yaxud ali təhsil və həmin sahələrdə azı 5 illik iş təcrübəsinin olması;

8.2.2. kollegial icra orqanının rəhbəri və üzvləri və ya təkbaşçı icra orqanının rəhbəri, habelə xarici BOKT-nin yerli filialının rəhbəri üçün- iqtisadiyyat, idarəetmə və ya hüquq sahələrində ali təhsil və maliyyə bazarları sahəsində azı 3 illik iş təcrübəsinin (azı 1 ili rəhbər vəzifədə olmaqla) olması, yaxud ali təhsil və maliyyə bazarları sahəsində və ya BOKT-nin fəaliyyət strategiyasında müəyyən edilən sahələrdə azı 5 illik iş təcrübəsinin (azı 3 ili rəhbər vəzifədə olmaqla) olması;

8.2.3. BOKT-nin daxili auditoru və BOKT-nin filialının rəhbəri üçün - iqtisadiyyat və ya hüquq sahələrində ali təhsil və maliyyə bazarları sahəsində azı 2 illik iş təcrübəsinin olması, yaxud ali təhsil və maliyyə bazarları sahəsində azı 3 illik iş təcrübəsinin olması;

8.2.4. BOKT-nin, o cümlədən xarici BOKT-nin yerli filialının baş mühasibi (bu vəzifələri icra edən şəxs) üçün - iqtisadiyyat sahəsində ali təhsil və mühasibatlıq sahəsində azı 2 illik iş təcrübəsinin olması, yaxud ali təhsil və mühasibatlıq sahəsində azı 3 illik iş təcrübəsinin olması.

BOKT-nin, o cümlədən xarici BOKT-nin yerli filialının baş mühasibi (bu vəzifələri icra edən şəxs) "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq peşəkar mühasib sertifikatı almalıdır.";

1.6.2. aşağıdakı məzmunda 8.2-1-ci maddə əlavə edilsin:

"8.2-1. Bu Qanunun 8.2.4-cü maddəsində baş mühasib (bu vəzifələri icra edən şəxs) üçün müəyyən edilmiş tələblər müvafiq peşəkar mühasib sertifikatına malik şəxslərə şamil edilmir.";

1.7. 9-cu maddə üzrə:

1.7.1. 9.2-ci maddə ləğv edilsin;

1.7.2. 9.3-cü maddənin birinci cümləsində"Girov əmanəti qəbul etmək hüququ olmayan BOKT-nin filialı və hər iki növdən olan BOKT-nin" sözləri "BOKT-nin filialı və" sözləri ilə, "maliyyə bazarlarına nəzarət orqanına" sözləri "Mərkəzi Banka" sözləri ilə, ikinci cümləsində "maliyyə bazarlarına nəzarət orqanına" sözləri "Mərkəzi Banka" sözləri ilə əvəz edilsin;

1.8. 3-cü fəslin adında "Lisenziya və icazələrin"sözləri "Lisenziyaların" sözü ilə əvəz edilsin;

1.9. 10-cu maddə üzrə:

1.9.1. 10.1-ci maddədə və 10.4-cü maddənin birinci cümləsində ismin müvafiq hallarında "maliyyə bazarlarına nəzarət orqanı" sözləri ismin müvafiq hallarında "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.9.2. 10.2-ci maddə ləğv edilsin;

1.9.3. aşağıdakı məzmunda 10.5-ci və 10.6-cı maddələr əlavə edilsin:

"10.5. Lisenziya alınması üçün müraciətə baxarkən Mərkəzi Bank təqdim edilən sənəd və məlumatların yoxlanılması məqsədilə müstəqil və etibarlı mənbələrdən, habelə aidiyyəti dövlət orqanlarından (qurumlarından) məlumatlar əldə edə bilər. Dövlət orqanları (qurumları) Mərkəzi Bankın sorğu etdiyi məlumatı 7 iş günü ərzində verməlidirlər. Dövlət orqanları (qurumları) sorğu edilən məlumatların dövlət sirri istisna olmaqla, kommersiya sirri, vergi sirri və ya qanunla mühafizə olunan digər konfidensial məlumatlara aid olmasına istinad etməklə həmin məlumatların verilməsindən imtina edə bilməz.

10.6. Bu Qanunun 10.5-ci maddəsi sonradan BOKT-də mühüm iştirak payını əldə etmək istəyən şəxslərə (hüquqi şəxs olduqda onun icra orqanının rəhbərinə), benefisiar mülkiyyətçi olan şəxslərə, habelə yeni təyin olunan inzibatçılara da şamil edilir.";

1.10. 11-ci maddə üzrə:

1.10.1. 11.1-ci maddənin birinci abzasında, 11.2-ci maddənin ikinci cümləsində, 11.3-cü maddənin birinci - üçüncü cümlələrində ismin müvafiq hallarında "maliyyə bazarlarına nəzarət orqanı" sözləri ismin müvafiq hallarında "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.10.2. aşağıdakı məzmunda 11.1.2-1-ci, 11.1.3-1-ci və 11.1.3-2-ci maddələr əlavə edilsin:

"11.1.2-1. BOKT-nin təklif edilən nizamnamə (şərikli) kapitalının (əmlak haqlarının) miqdarı, hər bir pay sahibinin (təsisçinin) payı (əmlak haqqı) və payın (əmlak haqqının) əldə edilməsinə yönəldilən vəsaitin mənbəyi barədə məlumatlar və sənədlər;";

"11.1.3-1. Mərkəzi Bankın müəyyən etdiyi formada iştirakçılar arasında münasibətlər və benefisiar mülkiyyətçi (mülkiyyətçilər), o cümlədən onların bu Qanunla müəyyən edilmiş vətəndaş qüsursuzluğu haqqında məlumat, benefisiar mülkiyyətçi əcnəbi olduqda isə rezidenti olduğu ölkənin müvafiq dövlət orqanları tərəfindən onun cinayət məsuliyyətinə cəlb olunub-olunmadığı barədə verilmiş və qanunvericilikdə müəyyən edilmiş qaydada leqallaşdırılmış arayış;

11.1.3-2. mühüm iştirak paylarının sahiblərinin (hüquqi şəxs olduqda onun icra orqanının rəhbərinin) siyahısı və onların vətəndaş qüsursuzluğuna dair məlumat, əcnəbi olduqda isə rezidenti olduğu ölkənin müvafiq dövlət orqanları tərəfindən onun cinayət məsuliyyətinə cəlb olunub-olunmadığı barədə verilmiş və qanunvericilikdə müəyyən edilmiş qaydada leqallaşdırılmış arayış;";

1.10.3. 11.1.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"11.1.5. inzibatçılarının peşə yararlılığı və vətəndaş qüsursuzluğu barədə məlumat, inzibatçı əcnəbi olduqda, rezidenti olduğu ölkənin müvafiq dövlət orqanları tərəfindən cinayət məsuliyyətinə cəlb olunub-olunmadığı barədə verilmiş və qanunvericilikdə müəyyən edilmiş qaydada leqallaşdırılmış və ya apostil verilmiş arayış;";

1.10.4. aşağıdakı məzmunda 11.1.5-1 - 11.1.5-3-cü maddələr əlavə edilsin:

"11.1.5-1. təsisçinin (təsisçilərin) (hüquqi şəxs olduqda icra orqanının rəhbərinin)qəsdən törədilmiş cinayətlərə görə məhkumluğunun olmaması haqqında məlumat.Təsisçi (hüquqi şəxs olduqda icra orqanının rəhbəri) əcnəbi olduqda, rezidenti olduğu ölkənin müvafiq dövlət orqanları tərəfindən onun qəsdən törədilmiş cinayətlərə görə məhkumluğunun olmaması barədə verilmiş və qanunvericilikdə müəyyən edilmiş qaydada leqallaşdırılmışvə ya apostil verilmiş arayış;

11.1.5-2. təsisçi hüquqi şəxs olduqda hüquqi şəxsin adı, ünvanı, fəaliyyət növü haqqında məlumatlar, habelə həmin şəxsin nəzərdə tutulan iştirak payının əldə edilməsinə icazə verən səlahiyyətli idarəetmə orqanının qərarının təsdiqlənmiş surəti.Təsisçi xarici hüquqi şəxs olduqda isə əlavə olaraq qanunvericilikdə müəyyən edilmiş qaydada leqallaşdırılmış və ya apostil verilmiş nizamnamə (əsasnamə), onun yerləşdiyi ölkədə qeydiyyatdan keçdiyini təsdiqləyən sənəd;

11.1.5-3. təsisçi iştirak payını əldə etmək istəyən fiziki şəxs olduqda soyadını, adını, atasının adını və vətəndaşlığını, şəxsiyyətini təsdiq edən sənədin məlumatları, məşğuliyyət növünü göstərən məlumat və sənədlər;";

1.10.5. 11.1.6-cı maddəyə "maliyyələşdirilmə" sözündən əvvəl "kommersiya strategiyası," sözləri əlavə edilsin, həmin maddədən "habelə" sözü çıxarılsın və həmin maddədə "barədə məlumat" sözləri ", daxili nəzarət sistemi və ilk üç il üçün maliyyə proqnozlarını (balans, mənfəət və zərər haqqında hesabatı) əks etdirilən biznes-plan" sözləri ilə əvəz edilsin;

1.11. aşağıdakı məzmunda 12.1.2-1-ci və 12.1.2-2-ci maddələr əlavə edilsin:

"12.1.2-1. nizamnamə (şərikli) kapitalında payın əldə edilməsinə yönəldilən vəsaitlərin mənbəyi məlum olmadıqda;

12.1.2-2. mühüm iştirak pay sahiblərinin və ya benefisiar mülkiyyətçilərin BOKT-yə təsirinin onun etibarlı və prudensial idarə edilməsi üçün təhlükə törədəcəyinə əsaslar verən faktlar mövcud olduqda, habelə inzibatçılar, mühüm iştirak payının sahibləri (hüquqi şəxs olduqda onun icra orqanının rəhbəri) və ya benefisiar mülkiyyətçilər vətəndaş qüsursuzluğu tələblərinə cavab vermədikdə;";

1.12. 13-cü maddə ləğv edilsin;

1.13. 14-cü maddə üzrə:

1.13.1. adından "və icazələrin" sözləri çıxarılsın;

1.13.2. 14.1-ci maddənin birinci cümləsində "maliyyəbazarlarına nəzarət orqanı" sözləri "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin, ikinci cümləsindən "və icazələrin" sözləri çıxarılsın;

1.13.3. 14.2-ci maddənin birinci cümləsində "maliyyəbazarlarına nəzarət orqanına" sözləri "Mərkəzi Banka" sözləri ilə, "təqvim" sözü "iş" sözü ilə əvəz edilsin;

1.14. 15-ci maddə üzrə:

1.14.1. 15.1-ci maddə üzrə:

1.14.1.1. birinci cümlədə "maliyyə bazarlarına nəzarət orqanından" sözləri "Mərkəzi Bankdan" sözləri ilə əvəz edilsin və həmin cümləyə "kreditlər verə" sözlərindən sonra ", habelə bu məqsədlə Mərkəzi Bank tərəfindən müəyyən edilmiş qaydada ödəniş hesabları aça və apara, kredit kartları emissiya edə" sözləri əlavə edilsin;

1.14.1.2. ikinci cümlədən "girov əmanəti," sözləri çıxarılsın;

1.14.1.3. üçüncü cümlə çıxarılsın;

1.14.2. 15.5-ci maddənin ikinci cümləsindən "Girov əmanəti qəbul etmək hüququ olan" sözləri çıxarılsın;

1.15. 18-ci maddə ləğv edilsin;

1.16. 19-cu maddə üzrə:

1.16.1. 19.1-ci maddənin birinci abzasından "Girov əmanəti qəbul etmək hüququ olan" və "bu növ" sözləri çıxarılsın və həmin abzasda "maliyyə bazarlarına nəzarət orqanı" sözləri "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.16.2. 19.1.1-ci maddəyə "miqdarı" sözündən sonra "və kredit risklərinin idarə edilməsi qaydası" sözləri əlavə edilsin;

1.16.3. aşağıdakı məzmunda 19.1.2-1-ci maddə əlavə edilsin:

"19.1.2-1. kapitalın minimum miqdarına və hesablanmasına dair tələblər;";

1.16.4. 19.1.3-cü və 19.3-cü maddələr aşağıdakı redaksiyada verilsin:

"19.1.3. BOKT-nin öhdəliklərinin onun kapitalına nisbətinə dair tələblər;";

"19.3. BOKT öz fəaliyyəti dövründə kapitala dair tələblərə, habelə Mərkəzi Bank tərəfindən müəyyən edilən digər prudensial tələblərə riayət etməlidir.";

1.16.5. 19.2-ci maddədə və 19.4-cü maddənin birinci cümləsində "maliyyə bazarlarına nəzarət orqanı" sözləri "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.17. 20-ci maddə üzrə:

1.17.1. 20.1-ci maddənin ikinci cümləsində və 20.4-cü maddədə ismin müvafiq hallarında "Azərbaycan Respublikasının Mərkəzi Bankı" sözləri ismin müvafiq hallarında "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.17.2. 20.2-ci maddədə hər iki halda "Azərbaycan Respublikasının Mərkəzi Bankına" sözləri "Mərkəzi Banka" sözləri ilə əvəz edilsin, həmin maddədən "və mətbu orqanda" sözləri çıxarılsın və həmin maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İllik maliyyə hesabatları çap mediasında da dərc etdirilə bilər.";

1.17.3. aşağıdakı məzmunda 20.2-1-ci maddə əlavə edilsin:

"20.2-1. Mərkəzi Bank BOKT-də kənar auditin aparılmasına dair müvafiq sahə üzrə beynəlxalq təcrübəyə uyğun minimum tələblər müəyyən edir. Kənar auditor yoxlaması Mərkəzi Bankın tələblərinə uyğun olmadıqda, Mərkəzi Bank auditorun dəyişdirilməsini, habelə BOKT-nin özünün vəsaiti hesabına təkrar auditin aparılmasını tələb edir.";

1.18. 21.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"21.1. BOKT-lər və onların filialları BOKT-nin lisenziyasını öz inzibati binasında aydın görünən yerdə yerləşdirməli və göstərdiyi maliyyə xidmətləri və onların şərtləri barədə məlumatların müqavilə bağlanılmazdan əvvəl müştərilər üçün əlçatanlığını və həmin məlumatların başadüşülən formada əldə edilməsini təmin etməlidir.";

1.19. 23-cü maddənin birinci cümləsindən ", o cümlədən qəbul etdiyi girov əmanətinə dair məlumatın" sözləri çıxarılsın;

1.20. 24-cü maddə üzrə:

1.20.1. 24.2-ci maddədə hər iki halda ismin müvafiq hallarında "maliyyə bazarlarına nəzarət orqanı" sözləri ismin müvafiq hallarında "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.20.2. 24.3-cü və 24.5-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"24.3. Bu Qanunun, "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun, Mərkəzi Bankın normativ xarakterli aktlarının tələblərinin pozulması halları aşkara çıxarıldıqda və ya bu cür pozuntulara səbəb ola biləcək faktlar məlum olduqda, o cümlədən "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq əsaslandırılmış mülahizə hüququndan istifadə edilməklə Mərkəzi Bank həmin halların aradan qaldırılması barədə BOKT-yə icrası məcburi olan göstəriş göndərir. Göstərişdə BOKT tərəfindən yol verilmiş pozuntuların (nöqsanların) və ya bu cür pozuntulara səbəb ola biləcək faktların aradan qaldırılması üçün görülməli tədbirlər və onların yerinə yetirilməsi müddəti göstərilir.";

"24.5. BOKT-lərin fəaliyyəti üzərində nəzarət tədbirləri, o cümlədən yerində aparılan yoxlamalar Mərkəzi Bank tərəfindən bu Qanuna və "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.";

1.20.3. 24.4-cü maddə ləğv edilsin;

1.20.4. aşağıdakı məzmunda 24.6-cı maddə əlavə edilsin:

"24.6. BOKT-yə nəzarətin həyata keçirilməsi üçün tələb olunduqda BOKT, habelə BOKT-nin auditini aparan və ya aparmış auditorlar həmin BOKT-nin fəaliyyətinə dair istənilən sənəd və məlumatları Mərkəzi Bankın yazılı sorğusuna əsasən həmin sorğuda müəyyən edilmiş müddətdə ona təqdim etməlidir.";

1.21. 25-ci maddə üzrə:

1.21.1. adından "və icazələrin" sözləri çıxarılsın;

1.21.2. 25.1-ci maddənin birinci abzasından "və ya filiallara verilmiş icazələr" sözləri çıxarılsın və həmin abzasda "maliyyə bazarlarına nəzarət orqanı" sözləri "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.21.3. 25.1.2-ci maddədən "və ya icazə" sözləri çıxarılsın;

1.21.4. 25.1.3-cü maddədən "və ya onun filialı" və "və ya icazənin" sözləri çıxarılsın və həmin maddəyə "başlamadıqda" sözündən sonra "və ya BOKT-nin altı ay müddətində kreditlər vermədiyi müəyyən edildikdə" sözləri əlavə edilsin;

1.21.5. 25.1.4-cü maddədən "maliyyə bazarlarına nəzarət orqanının və ya" sözləri çıxarılsın;

1.21.6. aşağıdakı məzmunda 25.1.4-1-ci maddə əlavə edilsin:

"25.1.4-1. bu Qanunun 12.1.2-2-ci maddəsində göstərilən faktlar müəyyən edildikdə;";

1.21.7. 25.1.5-ci maddədə hər iki halda və 25.5-ci maddənin birinci və ikinci cümlələrində ismin müvafiq hallarında "maliyyə bazarlarına nəzarət orqanı" sözləri ismin müvafiq hallarında "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin;

1.21.8. 25.1-1-ci maddə ləğv edilsin;

1.21.9. 25.2-ci maddənin ikinci cümləsi çıxarılsın;

1.22. 25-1-ci maddə ləğv edilsin;

1.23. 26.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"26.2. Bu Qanunun məqsədləri üçün müvafiq şəxslərin məhkumluğu Mərkəzi Bankın sorğusu ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) verdiyi arayış əsasında müəyyən edilir.".

**Maddə 2.** "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikası Qanununun 19.1.4-cü maddəsində nəzərdə tutulan tələblər bu Qanun qüvvəyə minənədək girov əmanəti qəbul etmək hüququ olmayan bank olmayan kredit təşkilatlarına münasibətdə bu Qanun dərc edildiyi gündən 6 (altı) ay sonra qüvvəyə minir.

**Maddə 3.** Bu Qanun qüvvəyə mindiyi gündən girov əmanəti qəbul etmək hüququ olan bank olmayan kredit təşkilatlarının lisenziyalarında girov əmanəti qəbul etməklə bağlı icazələr ləğv edilir. Həmin bank olmayan kredit təşkilatları 6 (altı) ay ərzində təsis sənədlərini bu Qanunun tələblərinə uyğunlaşdırmalı və bu barədə təsdiqedici sənədləri Azərbaycan Respublikasının Mərkəzi Bankına təqdim etməlidirlər.

**Maddə 4.** Bu Qanunun inzibatçıların təhsilinə və iş təcrübəsinə dair tələbləri bu Qanun qüvvəyə minənədək müvafiq vəzifəyə təyin edilmiş şəxslərə şamil edilmir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyul 2023-cü il*

# "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 940-VIQD nömrəli Qanununun tətbiqi və "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 141-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 10 mart tarixli 830 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 940-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikası Qanununun 26.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 26.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 940-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə edilsin ki:

3.1. aşağıdakı normativ xarakterli aktları altı ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

3.1.1. "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1.3-1-ci maddəsinə uyğun olaraq, məlumatın formasını;

3.1.2. həmin Qanunun 15.1-ci maddəsinin birinci cümləsinə uyğun olaraq, ödəniş hesablarının açılması və aparılması, habelə kredit kartlarının emissiyası qaydasını;

3.2. "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 940-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

4. "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 141-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 10 mart tarixli 830 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 3, maddə 451) 3-cü hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 iyul 2023-cü il*

# Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında əlaqələrin perspektivləri müzakirə edilib

Ər-Riyadda Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Səudiyyə Ərəbistanı Krallığının xarici işlər nazirinin müavini Valid bin Əbdül Kərim Əl-Xereyci ilə görüşü olub.



AZƏRTAC xəbər verir ki, görüş əsnasında iki dost ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın yüksək səviyyəsindən məmnunluq ifadə olunub, ikitərəfli əlaqələrin perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Azərbaycanın Səudiyyə Ərəbistanındakı səfiri Şahin Abdullayev iştirak edib.

# Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın xarici işlər nazirini qəbul edib

**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qəbul edilib.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli münasibətlər, regionda və dünyada baş verən hadisələr ətrafında fikir mübadiləsi aparılıb.

# Bakıda Mərakeşin milli bayramı qeyd olunub





Mərakeşin milli bayramı - Taxt-Tac Günü münasibətilə iyulun 31-də Bakıda rəsmi qəbul təşkil edilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə Azərbaycanın və Mərakeşin Dövlət himnləri səsləndirilib.

Ölkələrimiz arasındakı möhkəm dostluq əlaqələrindən danışan Mərakeşin səfiri Məhəmməd Adil Embarş ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə uğurla inkişaf etdirildiyini diqqətə çatdırıb.

Ölkəsinin qazandığı nailiyyətlərdən bəhs edən diplomat bildirib ki, Kral VI Məhəmmədin hakimiyyətə gəlişindən ötən müddət ərzində çox müsbət işlər görülüb, ölkə iqtisadiyyatı inanılmaz dərəcədə inkişaf edib.

"Ölkələrimiz arasında diplomatik münasibətlərin əsasının qoyulmasında Ulu Öndər Heydər Əliyevin böyük rolu var. Ümummilli Liderdən sonra bu siyasət Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir", - deyə diplomat vurğulayıb.

Azərbaycanın və Mərakeşin bütün sahələrdə səmərəli əməkdaşlıq etdiklərini diqqətə çatdıran Məhəmməd Adil Embarş mövcud əlaqələrin daha da dərinləşəcəyinə inandığını diqqətə çatdırıb.

Azərbaycanın xarici işlər nazirinin müavini Mahmud Məmməd-Quliyev bayram münasibətilə Mərakeş xalqını Azərbaycan hökuməti adından təbrik edib.

Nazir müavini bildirib ki, Azərbaycan tarixi dostluq əlaqələri olan Mərakeşlə münasibətlərin inkişaf etdirilməsinə böyük önəm verir.

Qarşılıqlı səfərlərin iki ölkə arasında münasibətlərin dərinləşməsində əhəmiyyətini qeyd edən Mahmud Məmməd-Quliyev Azərbaycan-Mərakeş Hökumətlərarası Birgə Komissiyasının fəaliyyətindən danışıb və ölkələrimiz arasında 100-dən çox sənədin imzalandığını diqqətə çatdırıb.

"İki ölkə arasında siyasi müstəvidə də əlaqələrimiz yüksək səviyyədədir, siyasi məsləhətləşmələr aparılır. Mədəni, sosial sahələrdə də yaxşı əlaqələrimiz var. Hər iki ölkənin parlamentində dostluq qrupları fəaliyyət göstərir. Beynəlxalq səviyyədə də əməkdaşlığımız uğurla davam etdirilir", - deyə o vurğulayıb.

Tədbir ziyafətlə davam edib.

# *Cəbrayıl yeni inkişaf mərhələsinə qədəm qoydu:* Şəhərin Baş planı təsdiqləndi

44 günlük Vətən müharibəsində qazanılmış zəfərdən sonra Prezident İlham Əliyevin daimi diqqəti və nəzarəti ilə işğaldan azad edilmiş ərazilərdə müasir şəhərsalma siyasətinə əsaslanan geniş tikinti-quruculuq işləri aparılır.




"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" və "İşğaldan azad edilmiş ərazilərin Ümumi planı"na əsasən Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında yerləşən yaşayış məntəqələri layihələndirilir, şəhərlərin Baş planları hazırlanır və təsdiq edilir.

Bu barədə AZƏRTAC-a Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən bildirilib.

Məlumata əsasən, belə ərazi planlaşdırılması sənədlərindən biri - Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi əsasında Böyük Britaniyanın "Chapman Taylor" şirkəti ilə Bakı Dövlət Layihə İnstitutu tərəfindən hazırlanmış Cəbrayıl şəhərinin Baş planı 25 iyul 2023-cü il tarixində Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 238 nömrəli Qərarı ilə təsdiq edilib.

Cəbrayıl şəhəri illər ərzində işğalçılar tərəfindən urbisid və ekosidə məruz qalıb, əhali öz doğma yurdlarından didərgin salınıb, əraziyə külli miqdarda maddi ziyan vurulub. Nəticədə mövcud infrastruktur, yaşayış evləri tamamilə məhv edilib və şəhərin yenidən qurulmasına ehtiyac yaranıb. Bunu nəzərə alaraq, dağıdılmış şəhərin yerləşdiyi ərazinin kompleks qiymətləndirilməsi və konseptual layihələndirilməsi işləri aparılıb.

Cəbrayılın yaşayış məntəqəsi kimi tarixi VIII əsrə bağlanır. 1930-cu ildə inzibati mərkəzi olan Cəbrayıl rayonu yaradılıb və şəhər də məhz həmin illərdə formalaşmağa başlayıb. Şəhərin ilk Baş planı 1984-cü ildə işlənilib. O zaman şəhərin ərazisi 258 ha, əhalinin sayı 5200 nəfər idi.

Təsdiq edilmiş yeni Baş plana əsasən, müasir Cəbrayıl şəhəri özü və yaxınlıqdakı 5 kəndi əhatə edəcək və şəhərin ümumi ərazisi 625 ha təşkil edəcək. Layihədə şimaldan cənuba doğru uzanan Çaylaqçay ətrafında şəhərin mərkəz hissəsində təklif olunan "yaşıl zolaq" şəhərin əsas onurğası kimi verilib. Rayon ərazisində bir çox tarixi-memarlıq abidələrinin, o cümlədən Xudafərin körpüsünün yerləşməsi şəhərin gələcək özünəməxsus memarlıq görünüşünün yaradılmasında xüsusi rol oynayacaq.

Qeyd olunub ki, işğaldan azad edilmiş şəhərdə ilkin mərhələdə təhlükəsizlik, infrastruktur məsələlərinin həlli, sosial xidmətlərin fəaliyyəti, iqtisadiyyatın yenidən qurulması və inkişafı məsələləri əsas götürülür. Bu ərazilərdə bərpa və yenidənqurma strategiyalarının əsas məqsədi dayanıqlı iqtisadi inkişafa nail olmaqdır.

Şəhərin bərpası və inkişafı üçün 4 mərhələ nəzərdə tutulur. 2026-cı ilin sonunadək təqribən 3800 nəfərin şəhərdə yerləşəcəyi qeyd olunur, 2040-cı ilin sonuna qədər Cəbrayıl şəhərində 15.000 sakinin yaşayacağı proqnozlaşdırılır. Baş planda yaşayış üçün 143 hektar ərazi ayrılıb və burada az, orta mərtəbəli binaların, həyətyanı sahəyə malik fərdi yaşayış evlərinin inşası nəzərdə tutulub. Əhalinin 82 faizinin orta və azmərtəbəli çoxmənzilli binalarda, 18 faizinin isə fərdi evlərdə yaşayacağı planlaşdırılıb. Yaşayış evlərinin layihələndirilməsi zamanı şəhər ərazisindən səmərəli istifadə və müasir memarlıq həlləri əsas götürülüb.

Baş planların hazırlanması zamanı məskunlaşma sisteminin formalaşdırılmasında əhalinin məşğulluğunun davamlılığı əsas götürülüb. Şəhərin məşğulluq imkanları rayon ərazisindən keçən beynəlxalq əhəmiyyətli magistral yollar və zəngin təbii ehtiyatlar nəzərə alınmaqla proqnozlaşdırılıb. Beləliklə, şəhərin iqtisadi inkişafında xidmət və sənaye sektorlarının böyük rol oynayacağı, kənd təsərrüfatı sahəsinin isə digər yaşayış məntəqələrində daha çox inkişaf edəcəyi göstərilib. Baş planda ictimai-işgüzar zona üçün 22.87 ha ərazi ayrılıb. Burada inzibati və ofis binaları, mərkəzi meydan, mədəniyyət, ictimai-iaşə və turizm obyektləri yerləşdiriləcək.

Şəhərin Baş planı hazırlanarkən nəqliyyatın planlaşdırılması zamanı insanyönümlü şəhər və təhlükəsiz hərəkət prinsipləri əsas götürülüb. Burada yol şəbəkəsi piyada keçidi və velosiped yollarının, ictimai nəqliyyatın üstünlük təşkil etdiyi formada layihələndirilib. Şəhərdaxili yol profillərində təxminən 60 kilometr uzunluğunda piyada və velosiped yollarının salınması planlaşdırılıb. Cəbrayıl şəhərində küçə-yol şəbəkəsinin ümumi uzunluğu 45 kilometrdən çox olacaq.

Sənəddə əhalinin artım tempi nəzərə alınmaqla sosial tələbata uyğun ən müasir təhsil və səhiyyə ocaqları layihələndirilib. Belə ki, şəhər ərazisində öz doğma torpaqlarına qayıdacaq cəbrayıllı 1880 şagirdin təhsil alacağı müasir şəhərsalma standartlarına uyğun 3 tam və orta təhsil müəssisəsi, 960 uşaq üçün nəzərdə tutulan 4 məktəbəqədər təhsil müəssisəsi, mərkəzi rayon xəstəxanası, poliklinika, mədəniyyət mərkəzi, inzibati mərkəz, idman komplekslərinin inşası planlaşdırılıb.

Cəbrayıl şəhərinin coğrafi mövqeyi və relyefi də onun yaşıllıqlara qərq olmuş məkan kimi planlaşdırılmasına imkan verib. Baş plana əsasən, ümumi yaşıllıqların sahəsi 110 ha təşkil edəcək, bununla da şəhər ərazisinin 18 faizi yaşıl zonalardan ibarət olacaq. Əhalinin əsas istirahət zonası olaraq Çaylaqçay ətrafında salınması təklif edilən "yaşıl zolaq" mərkəzi park olaraq müxtəlif mədəni tədbirlərin keçirilməsi üçün əhalinin açıq məkanlara çıxışını təmin edəcək.

# Azərbaycanın və Türkiyənin xarici işlər nazirləri görüşüblər

İyulun 31-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Türkiyə Respublikasına rəsmi səfəri çərçivəsində xarici işlər naziri Hakan Fidanla görüşüb.





Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, Ceyhun Bayramov və Hakan Fidan arasında təkbətək görüş daha sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam edib.

Geniştərkibli görüşdə Azərbaycan və Türkiyə arasında çoxşaxəli ikitərəfli, regional və çoxtərəfli əməkdaşlıq gündəliyində duran aktual məsələlər, o cümlədən bölgədə mövcud vəziyyət müzakirə olunub.

Nazir Ceyhun Bayramov qardaş Türkiyə ilə müxtəlif, o cümlədən siyasi, iqtisadi, ticarət, hərbi, müdafiə sənayesi, enerji təhlükəsizliyi, investisiyalar, humanitar, təhsil, mədəniyyət və sair sahələr üzrə münasibətlərin inkişaf dinamikasının məmnunluq doğurduğunu qeyd edərək, dostluq, qardaşlıq, qarşılıqlı dəstək və həmrəyliyə əsaslanan müttəfiqlik əlaqələrimizin bölgədə sabitliyin qorunmasında vacib rol oynadığını diqqətə çatdırıb.

Təməlində Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamının dayandığı qardaşlıq münasibətlərimizin inkişafında ölkələrimizin liderləri arasında qarşılıqlı təmasların mühüm əhəmiyyət kəsb etdiyi diqqətə çatdırılıb.

Cari ildə imzalanmasının ikinci ildönümünü qeyd etdiyimiz "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin ölkələrimiz arasında münasibətlərin inkişaf tarixində yeni mərhələnin əsasını qoyduğunu bildirən nazir Ceyhun Bayramov bundan sonra da əlaqələrimizin genişləndirilməsi istiqamətində əməli addımların atılacağını əminliklə vurğulayıb. Postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, işğaldan azad olunmuş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, Azərbaycanın sülh gündəliyinin 3 istiqaməti olan sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiyası və regional kommunikasiyaların açılması sahələrində apardığı fəaliyyəti, habelə Ermənistanın mövcud sülh gündəliyinin irəlilədilməsinə hədə törədən təxribatları barədə qarşı tərəfi ətraflı məlumatlandırıb.

Ermənistanın destruktiv mövqeyi və addımlarına baxmayaraq, Azərbaycanın sülh gündəliyini irəli aparmaq əzmində və niyyətində olduğu diqqətə çatdırılıb. Bu xüsusda bölgədə bütün kommunikasiyaların açılması istiqamətində görülən işlərin əhəmiyyətindən bəhs edən nazir Ceyhun Bayramov bağlantıların bərpasının Azərbaycan və Türkiyə arasında əməkdaşlığı daha da gücləndirəcəyinə dair inam ifadə edib.

Türkiyənin xarici işlər naziri Hakan Fidan ortaq tarixə, mədəniyyətə və dəyərlərə sahib ölkələrimiz arasında mövcud münasibətlərin daha da inkişaf etdirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini diqqətə çatdırıb. İki ölkənin ən çətin günlərdə daim bir-birini dəstəkləməsinin qardaşlığımızın yalnız sözdə deyil, əməldə də öz təsdiqini tapmasının göstəricisi olduğu bildirilib.

Azərbaycan tərəfindən bölgədə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinin, o cümlədən sülh gündəliyinin irəlilədilməsi istiqamətində görülən işlərin bölgədə davamlı sülhün bərqərar edilməsində mühüm rol oynadığı vurğulanıb.

Görüş zamanı eyni zamanda beynəlxalq təşkilatlar, xüsusilə də Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Orta Asiya ölkələri ilə üçtərəfli və dördtərəfli formatlar çərçivəsində birgə tədbirlərin, eləcə də digər çoxtərəfli təşəbbüslərin daha da genişləndirilməsinin əhəmiyyəti nazirlər tərəfindən vurğulanıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Daha sonra keçirilmiş mətbuat brifinqində nazirlər görüşün nəticələrinə dair bəyanatlarla çıxış ediblər, jurnalistlərin suallarını cavablandırıblar.

# XİN Vaqif Xaçaturyanın həbsi ilə bağlı Ermənistan XİN-ə cavab verib

Azərbaycan Xarici İşlər Nazirliyi Vaqif Xaçaturyanın həbsi ilə bağlı Ermənistan Xarici İşlər Nazirliyinin bəyanatını şərh edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, açıqlamada deyilir: "Ermənistan Xarici İşlər Nazirliyi iyulun 29-da Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) nəqliyyat vasitəsində Ermənistana getmək istəyən Vaqif Xaçaturyan adlı şəxsin Laçın sərhəd-buraxılış məntəqəsində Azərbaycan Dövlət Sərhəd Xidməti tərəfindən həbs edilməsi ilə əlaqədar növbəti dəfə beynəlxalq ictimaiyyətin fikrini yayındırmaq və öz öhdəliklərindən boyun qaçırmaq məqsədilə siyasi manipulyasiyalar ilə məşğul olmaqdadır. Ermənistan tərəfinin məsələ ilə bağlı ölkəmizə qarşı səsləndirdiyi iddiaların heç bir əsası yoxdur.

Azərbaycan Respublikasının Prokurorluğu tərəfindən verilmiş məlumatda da qeyd edildiyi kimi, Vaqif Xaçaturyan Çerkezoviçin bir qrup erməni hərbi birləşmələrinin tərkibində 1991-ci ilin 22 dekabr tarixində Xocalı rayonunun Meşəli kəndində azərbaycanlılara qarşı kütləvi qırğın törədib. Qırğın zamanı 25 nəfər azərbaycanlı öldürülüb, 14 nəfər yaralanıb, 358 nəfər azərbaycanlı isə didərgin salınıb. Qeyd edilən kütləvi qırğın ilə əlaqədar aparılan cinayət işi üzrə Xaçaturyan Vaqif Çerkezoviçin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103 (soyqırımı) və 107-ci (əhalini deportasiya etmə və ya məcburi köçürmə) maddələrilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb olunması barədə qərar qəbul edilib, ona məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib və o, məhz bu cinayət işi çərçivəsində iyulun 29-da Ermənistana gedərkən sərhəd-buraxılış məntəqəsində həbs edilib.

Vaqif Xaçaturyanın Ermənistana tibbi məqsədlərlə getdiyini nəzərə alaraq, onun Bakı şəhərində tibb müəssisəsinə yerləşdirilməsi, ona zəruri tibbi yardımın göstərilməsi təmin edilib. BQXK-nın nümayəndələrinin ona baş çəkməsinə müvafiq şərait yaradılıb.

Azərbaycan tərəfindən atılan bütün bu addımlar beynəlxalq hüquq və Azərbaycan qanunvericiliyi çərçivəsində həyata keçirilib.

BQXK tərəfindən də təsdiq edildiyi kimi, ötən ilin dekabr ayından etibarən BQXK vasitəçiliyi ilə 700-ə yaxın erməniəsilli şəxsin tibbi məqsədlə Azərbaycan ərazisindən Ermənistana aparılmasına və geri gətirilməsinə şərait yaradılıb və onlara qarşı heç bir qanunsuz hərəkət tətbiq edilməyib. Bununla əlaqədar, sərhəd-buraxılış məntəqəsindən keçən şəxslərə təhdid olduğu barədə Ermənistan XİN-in iddiası tamamilə yalandır və bu yalnız erməni sakinlər arasında təşviş yaratmaq məqsədi daşıyır.

Azərbaycan tərəfinin qeyd edilən şəxsi həbs edərkən beynəlxalq humanitar hüququ pozması barədə Ermənistan tərəfindən səsləndirilən iddiaya gəldikdə xatırlatmaq istərdik ki, beynəlxalq humanitar hüquqda müharibə cinayətkarlarına qarşı müvafiq tədbirlər görülməsinə mane olan heç bir məhdudiyyət yoxdur. Ümumiyyətlə, 30 ildə Xocalıda, Malıbəylidə, Quşçularda, Ağdabanda, Ballıqayada, Başlıbeldə və digər şəhər və yaşayış məntəqələrində mülki əhaliyə qarşı soyqırımı və kütləvi qırğınlar törədən Ermənistanın beynəlxalq humanitar hüquqdan danışması yersizdir.

Ermənistan tərəfi 30 ilə yaxın işğal dövründə azərbaycanlılara qarşı soyqırımı daxil insanlıq əleyhinə cinayətlər və kütləvi qırğınlar törədilməsinə görə məsuliyyət daşıyan şəxsləri müdafiə etmək və onların əməllərini ört-basdır etmək əvəzinə, onların cinayət məsuliyyətinə cəlb edilməsi işinə dəstək verməlidir. Bunun əksinə, Ermənistanın Azərbaycanın bu istiqamətdə həyata keçirdiyi işlər barədə qarayaxma kampaniyası aparması, bu ölkənin müharibə cinayətlərini dəstəkləməsindən və bəraət qazandırmasından başqa bir şey deyil.

Azərbaycan tərəfi ölkəmizin ərazisində müharibə və hərbi cinayətlər törətmiş şəxslərə qarşı müvafiq cinayət işinin başladığını son 30 ildə dəfələrlə açıq şəkildə bəyan edib, onlar barədə beynəlxalq axtarışlar elan edilib və istintaq tədbirləri çərçivəsində, ölkə qanunvericiliyinə və beynəlxalq təcrübəyə uyğun olaraq onların məsuliyyətə cəlb olunması istiqamətində tədbirləri davam etdirəcək".




# İlham Əliyevin ədaləti

## Azərbaycan xalqının faciəsinə səbəb olan terrorçular, cinayətkarlar mütləq layiqli cəzalarını almalıdırlar

*Əvvəli 1-ci səh.*

Görünür, Ermənistanın bu proseslə bağlı başqa "planı" var. Sadəcə olaraq, beynəlxalq ictimaiyyətin diqqətini bu məsələyə yönəltməklə Azərbaycana təzyiq etmək xülyasına düşüb.

Azərbaycanlılara qarşı cinayətlər və kütləvi qırğınlar törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsi ilə bağlı yaratdığı hay-küy isə bu ölkənin terrorçulara dəstək verdiyini təsdiqləyən reallıqdır. Yəni Ermənistanın Meşəlidə, Xocalıda günahsız insanları qətlə yetirmiş Vaqif Xaçaturyanın həbsi ətrafında ajiotaj yaratması İrəvanın beynəlxalq ictimaiyyətdə Azərbaycanla bağlı yanlış təsəvvür formalaşdırmaq cəhdidir. Eyni zamanda Ermənistan verdiyi məlum bəyanatla Azərbaycanın Qarabağ bölgəsində ermənilər tərəfindən törədilmiş qətliamlara haqq qazandırır, caniləri dəstəkləyir. Rəsmi İrəvanın bəyanatı həm də ədalətli istintaq araşdırmasına kobud müdaxilədir.

İkinci Qarabağ müharibəsindəki böyük Zəfərin əldə edilməsi o demək deyil ki, işğal dövründə və ondan öncə Azərbaycan xalqına qarşı törədilmiş erməni vəhşilikləri, onların törətdikləri ağır cinayətlər unudulub. Bu faciələr, qətliamlar təkcə məcburi köçkün soydaşlarımızın deyil, bütün Azərbaycan xalqının ürəyinə vurulmuş böyük dağdır. Xocalı faciəsi isə qan yaddaşımızdır. Əlbəttə ki, cinayətkar cəzasını almalıdır.

İlham Əliyev bu faciəni törətmiş cinayətkarların cəzalandırılması ilə bağlı hələ illər öncə çox qətiyyətli fikir səsləndirib: "Mən əminəm ki, gün gələcək Xocalı faciəsini törədən, dinc əhaliyə qarşı qəddarlıq göstərən, dinc əhalini məhv edən erməni cinayətkarları məhkəmə qarşısında cavab verəcəklər. O gün gələcəkdir".

Ötən həftə Vaqif Xaçaturyanın həbsi bunu bir daha təsdiqlədi. Eyni zamanda Azərbaycan xalqına qarşı qətliamlarda iştirak edən digər erməni terrorçularına da bəlli oldu ki, bu millət, bu dövlət keçmişini unutmur. Azərbaycanlılara qarşı cinayət işləmiş hər bir şəxs cavab verəcəkdir.

### Separatçıların Azərbaycanın ərazisində qalmaları bölgədə hərbi gərginlik mənbəyidir

Laçın sərhəd-buraxılış məntəqəsindəki durum, Azərbaycanın sülh missiyası ilə bağlı həyata keçirdiyi siyasət və bölgədəki ümumi son vəziyyət iyulun 29-da ABŞ Dövlət katibi Entoni Blinkenin Prezident İlham Əliyevə etdiyi telefon zəngi zamanı da müzakirə mövzusu olub.

Azərbaycan Prezidenti bir daha qətiyyətli mövqeyini nümayiş etdirərək əsl həqiqətləri Ağ Ev rəsmisinin diqqətinə çatdırıb. İlham Əliyev bildirib ki, Ermənistan tərəfinin atdığı təxribatçı addımlar sülh prosesinə maneçilik törədir, bu ölkənin silahlı qüvvələrinin Azərbaycanın suveren ərazisində qanunsuz olaraq qalmaqda davam etməsi bölgədə hərbi gərginlik mənbəyidir. Bundan başqa, İrəvan Laçın dövlət sərhədindən keçid məntəqəsində hərbi təxribat törədir, sərhədçilərimizi atəşə tutur. Məğlub ölkə tərəfindən sərhəd-buraxılış məntəqəsində qaçaqmalçılığa cəhd edilir, icazəsiz yük avtomobilləri Azərbaycan ərazisinə göndərilir.

İlham Əliyev ABŞ Dövlət katibinə deyib ki, Azərbaycan humanizm prinsiplərinə əsaslanaraq bir daha Ermənistana alternativ variant təklif edib. Belə ki, Azərbaycanın ötən həftə Qarabağın erməni sakinlərinin ehtiyaclarının qarşılanması üçün Ağdam-Xankəndi yolundan istifadə etməklə bağlı təklif irəli sürməsinə və bunun Avropa İttifaqı, Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən dəstəklənməsinə baxmayaraq, Ermənistan bütün təkliflərə qarşı çıxıb.

Azərbaycan Prezidenti erməni tərəfinin "Humanitar vəziyyət" və "blokada" ilə bağlı iddialarını siyasi manipulyasiya adlandıraraq deyib ki, Ermənistanın davamlı şəkildə pozucu fəaliyyət göstərməsi, sülh danışıqlarına, eləcə də Azərbaycan və yerli erməni sakinlər arasında təmas və dialoqun inkişafına maneçilik törətməyə çalışması qəbuledilməzdir.

İlham Əliyev qəti şəkildə vurğulayıb ki, Azərbaycan Qarabağın erməni sakinlərinin reinteqrasiyası istiqamətində qərarlıdır. Bu məqsədlə Xocalıda birinci görüş artıq keçirilib və ikinci görüş üçün isə Azərbaycan yenə öz təklifini təqdim edib.

Entoni Blinken isə ABŞ-nin Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi üzrə müzakirələrə davamlı dəstəyini ifadə edərək, Laçın dövlət sərhədindən buraxılış məntəqəsi və digər alternativ yollar vasitəsilə keçidin önəminə, danışıqlardakı müsbət dinamikanın saxlanmasının əhəmiyyətinə toxunub.

Göründüyü kimi, ABŞ bir daha İlham Əliyevin sülh gündəliyinə, bölgədə təhlükəsizliyin təmin olunması istiqamətində atılan hər addıma öz dəstəyini nümayiş etdirir, Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasəti təqdir edir.

Təəssüf ki, başda Fransa olmaqla bəzi qərəzli ölkələr, eləcə də ATƏT-in Ermənistandakı missiyası da İrəvanın separatizmi dəstəkləyən bu oyunlarına alət olub. Faktlar təsdiq edir ki, Ermənistanın məqsədi bölgəyə üçüncü tərəfləri cəlb etmək, gərginliyin coğrafiyasını genişləndirməkdən və sülh prosesini iflasa uğratmaqdan ibarətdir.

Lakin Ermənistan bilməlidir ki, Azərbaycan 44 günlük müharibədə BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin icrasını təmin etdiyi kimi, Xocalıda, Meşəli kəndində azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı və deportasiya cinayətlərinin təşkilatçılarından və icraçılarından olan Vaqif Xaçaturyanın istintaqa və gələcəkdə ədalət məhkəməsinin qarşısına çıxarılması istiqamətində müvafiq hüquqi addımlar atmaqla, "Soyqırımı cinayətlərinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyanın tələblərini yerinə yetirib. Konvensiyanın 6-cı maddəsində qeyd olunur ki, soyqırımı və yaxud 3-cü maddədə sadalanan digər əməlləri törətmiş şəxslər bu əməlin törədildiyi dövlətin ərazisində səlahiyyətli məhkəmələr tərəfindən və ya yurisdiksiyasını Konvensiya tərəflərinin də qəbul etdiyi və bu tərəflərə şamil olunan beynəlxalq cinayət məhkəməsi tərəfindən mühakimə olunmalıdırlar. Azərbaycanın həm Konvensiyanın, həm də Cinayət Məcəlləsinin 103-cü və 107-ci maddələri çərçivəsində atdığı addımlar tamamilə hüquqi xarakter daşıyır.

Bir sözlə, bütün bu faktlar təsdiqləyir ki, Ermənistan tərəfinin məsələ ilə bağlı Azərbaycana qarşı səsləndirdiyi iddiaların heç bir əsası yoxdur. Azərbaycan dövləti ölkəmizin ərazisində müharibə və hərbi cinayətlər törətmiş şəxslərə qarşı müvafiq cinayət işinin başladığını dəfələrlə açıq şəkildə bəyan edib, onlar barədə beynəlxalq axtarışlar elan edib və istintaq tədbirləri çərçivəsində, ölkə qanunvericiliyinə, beynəlxalq təcrübəyə uyğun olaraq onların məsuliyyətə cəlb olunması istiqamətində tədbirləri davam etdirəcək. İlham Əliyevin də bu məsələdə mövqeyi hər kəsə bəllidir - əli azərbaycanlıların qanına batmış hər bir erməni terrorçusu ədalət məhkəməsi qarşısında cavab verəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Laçın şəhərinə növbəti köç karvanı yola salınıb

İyulun 31-də Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən Laçın şəhərinə növbəti köç karvanı yola salınıb.

AZƏRTAC xəbər verir ki, bu mərhələdə Laçına daha 12 ailə (53 nəfər) köçürülüb.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Daha da gözəlləşən və abadlaşan Laçın şəhərinin sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident xanım Mehriban Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildiriblər,



bu yolda canlarından keçən şəhidlərimizi böyük ehtiramla yad ediblər.

Köçürülən ailələr Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlət başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşacaqlar.

Bununla da Laçın şəhərində 180 ailənin (700 nəfər) daimi məskunlaşması təmin edilib.

# Azadlığın təntənə günləri

## Prezident Vətən müharibəsindəki tarixi qələbənin əbədiləşdirilməsi istiqamətində daha bir mühüm sənəd imzaladı

*Əvvəli 1-ci səh.*

Şuşa şəhərinin və onun işğaldan azad edilməsinin tarixi əhəmiyyəti nəzərə alınaraq, xalqımızın döyüş əzminin və qüdrətinin təntənəsinə çevrilən, dövlətimizin gələcək inkişafı və nüfuzu baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbə - Zəfər Günü hər il noyabrın 8-də təntənəli şəkildə qeyd ediləcək.



Bütün dünya azərbaycanlıları tərəfindən ötən 2 ildə bu tarixi gün əziz bayram, təntənəli gün kimi qeyd edilib. İyulun 31-də isə Prezident İlham Əliyev şanlı Zəfərin yaratdığı reallıqlar fonunda yeni sərəncam imzalayaraq işğaldan azad edilmiş ərazilərimiz üzrə şəhər günləri təsis etdi.

Sərəncamda bildirilir ki, 44 günlük Vətən müharibəsində şanlı Zəfərə aparan hər bir gün Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb. Rəşadətli Azərbaycan Ordusunun əsgər və zabitlərinin canı, qanı bahasına Vətən müharibəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələri, Xocavənd rayonunun Hadrut qəsəbəsi və bir çox kəndləri, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndi daxil olmaqla, ümumilikdə 300-dən çox yaşayış məntəqəsi, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklər işğaldan azad edilib. Qarabağın tacı Şuşa şəhərinin azad edilməsi və Ermənistanın kapitulyasiya aktını imzalamağa məcbur olması ilə müharibə başa çatıb.

Diz çöküb Azərbaycan qarşısında yalvaran Ermənistan Ağdamı, Kəlbəcər və Laçını Azərbaycana qaytarmağa da məcbur oldu. Çünki Ermənistanın siyasi rəhbərliyinə aydın oldu ki, təslimçi sülhə imza atmasa, bir neçə günə Azərbaycan Ordusu İrəvana çatacaq. Bu səbəbdən də əvvəllər "Qarabağ Ermənistandır" deyən, sonra isə "Qarabağ Azərbaycandır" söyləyən Nikol Paşinyan İlham Əliyevdən vaxt istədi. 2021-ci ilin avqustunda Laçın, noyabrında isə Ağdam və Kəlbəcər işğalçılardan təmizləndi.

Böyük Zəfər İlham Əliyevin sərkərdə qətiyyətinin, 3 şəhərin döyüşsüz, bir güllə atılmadan geri qaytarılması isə Azərbaycan Prezidentinin siyasi diplomatiyasının təntənəsi oldu. Bununla da tarixi ədalət bərpa olundu və Qarabağ münaqişəsinə son qoyuldu.

Böyük Zəfərdən sonra Azərbaycan Ermənistan tərəfindən dağıdılan, viran qoyulan şəhərlərimizin, kəndlərimizin, qəsəbələrimizin, tarixi-mədəni və dini abidələrimizin, məscidlərimizin bərpasına başladı. Hazırda işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur yenidən qurulur, ərazilər minalardan təmizlənir, sürətlə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır. Məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün Prezidentin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı"nın icrası davam edir. Yurd-yuvalarından didərgin düşmüş soydaşlarımız indi böyük sevinclə doğma torpaqlarına geri dönürlər. Artıq Zəngilan rayonunun Ağalı kəndinə, Tərtər rayonunun Talış kəndinə və Laçın şəhərinə məcburi köçkünlərin qayıdışı təmin olunub və bu istiqamətdə işlər davam etdirilir.

Bütün bunları nəzərə alan dövlət başçısı imzaladığı sərəncamla düşmən tapdağından təmizlənmiş şəhərlərimizin azadlıq günlərinin əbədiləşdirilməsi üçün şəhər günləri təsis edib. Bundan sonra hər il 26 avqust - Laçın şəhəri günü, 4 oktyabr - Cəbrayıl şəhəri günü, 17 oktyabr - Füzuli şəhəri günü, 20 oktyabr - Zəngilan şəhəri günü, 25 oktyabr - Qubadlı şəhəri günü, 8 noyabr - Şuşa şəhəri günü, 20 noyabr - Ağdam şəhəri günü, 25 noyabr - Kəlbəcər şəhəri günü kimi təntənəli şəkildə qeyd olunacaq.

Bu, şanlı Zəfərimizin yaratdığı gerçəklikdir. Artıq xalqımız torpaqlarımızın işğal tarixlərinin ağrılı-acılı, nisgilli günlərini deyil, azadlıq tarixlərinin sevincini bir-biri ilə paylaşaraq xoşbəxt bayram günlərini qeyd edəcək.

***R.BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanın diaspor təşkilatları Laçın yolu ətrafında yaranmış vəziyyətlə bağlı bəyanat yayıb

Azərbaycanın diaspor təşkilatları Laçın-Şuşa-Xankəndi yolu ətrafında yaranmış vəziyyətlə bağlı bəyanat yayıb.

AZƏRTAC bəyanatı təqdim edir: "Avropa Şurasının Baş katibi Mariya Peyçinoviç-Buriçin Azərbaycanın Qarabağ bölgəsindəki erməni sakinlər üçün təchizat məsələsi ilə bağlı 2023-cü il 28 iyul tarixli bəyanatı bizdə böyük təəccüb və təəssüf hissi yaratdı. Bu açıqlama Şuranın Nizamnaməsində, İnsan Hüquqları üzrə Avropa Konvensiyasında və Ümumdünya İnsan Hüquqları Bəyannaməsində təsbit olunmuş məqsəd və prinsiplərə ziddir.

Azərbaycanın diaspor təşkilatları bildirir ki, ölkəmizin Qarabağ bölgəsində yaşayan ermənilərin guya blokadaya alınması və humanitar fəlakətlə üzləşməsi barədə deyilənlər Ermənistanın beynəlxalq ictimai rəyi çaşdırmaq üçün əl atdığı növbəti böhtan və cəfəngiyyatdır. Belə ki, 2020-ci ildə 44 gün davam edən və Azərbaycanın tarixi Zəfəri ilə başa çatan İkinci Qarabağ müharibəsindən qısa müddət sonra rəsmi Bakı 30 illik işğala və məşəqqətlərə baxmayaraq, iki ölkə arasında bir-birinin ərazi bütövlüyünün, suverenliyinin və sərhədlərinin qarşılıqlı tanınması və hörmət edilməsi əsasında münasibətlərin normallaşmasına dair baza prinsipləri, həmçinin sülh müqaviləsi təklifi ilə çıxış edib. Ermənistan tərəfi bu sülh təşəbbüslərinə uzun müddət cavab verməsə də və müxtəlif bəhanələrlə prosesi ləngitsə də, Azərbaycan tərəfi qətiyyət göstərərək sülh müqaviləsi, sərhədlərin delimitasiyası və kommunikasiyaların açılması istiqamətində təşəbbüslərin irəlilədilməsi üçün xoşməramlı səylərini davam etdirib. Azərbaycanın hakimiyyət orqanları tərəfindən Qarabağ bölgəsinin yerli erməni sakinləri ilə dialoq istiqamətində ardıcıl addımlar atılıb, yeni Laçın yolunun tikintisi qısa müddətdə başa çatdırılıb və yol istifadəyə verilib.

Ermənistan tərəfi isə bunun əksinə, "beynəlxalq mexanizm çərçivəsində Bakı-Xankəndi danışıqları vasitəsilə Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyinin təmin edilməsi" kimi əsassız təkliflə çıxış edərək Azərbaycan və yerli erməni sakinlər arasında təmaslara maneçilik törədib və faktiki olaraq ölkəmizə qarşı ərazi iddialarını başqa ad altında davam etdirib. Eyni zamanda 2020-ci il 10 noyabr tarixli üçtərəfli razılaşmaya zidd olaraq, öz hərbi birləşmələrini Azərbaycan ərazisindən çıxarmayıb, mina xəritələrini rəsmi Bakıya təqdim etmək əvəzinə, ölkəmizin ərazilərini minalamağa davam edib. Nəticədə 2020-ci ilin noyabr ayından bəri ikisi jurnalist olmaqla, 303 azərbaycanlı minaların qurbanına çevrilib.

Azərbaycan sərhədlərinə nəzarət və Ermənistanın qeyri-qanuni fəaliyyətinin qarşısını almaq məqsədilə özünün suveren ərazilərində "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsi təsis edib. Azərbaycan tərəfindən erməni sakinlərin, Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) və Rusiya sülhməramlı kontingentinin sərhəd-buraxılış məntəqəsindən keçidinin təmin olunmasına baxmayaraq, Ermənistan tərəfi Azərbaycan ərazilərində qeyri-qanuni fəaliyyətini davam etdirmək məqsədilə bölgədə saxta "gərgin humanitar vəziyyət" barədə iddialar yayıb. Eyni zamanda iyunun 15-də Azərbaycan sərhədçilərinin atəşə tutulması, qaçaqmalçılığa cəhd edilməsi, iyulun 26-da yük avtomobillərinin Azərbaycan ərazilərinə icazəsiz göndərilməsi kimi təxribatlar törədib.

Azərbaycan tərəfinin erməni sakinlərin ehtiyaclarının qarşılanması üçün Ağdam-Xankəndi yolundan və digər alternativ yollardan istifadə daxil olmaqla, bir sıra təkliflər irəli sürməsinə, onların Avropa İttifaqı, BQXK tərəfindən dəstəklənməsinə baxmayaraq, erməni tərəfinin bu təkliflərə qarşı çıxması, alternativ yollara beton maneələr düzməklə əraziyə girişi bloklaması Ermənistanın humanitar vəziyyət barədə iddialarının siyasi şantaj və manipulyasiya olduğunu bir daha göstərib.

Azərbaycanın diaspor təşkilatları bəyan edir ki, Ermənistanın məqsədi bölgəyə üçüncü tərəfləri cəlb etmək, gərginliyin coğrafiyasını genişləndirmək və sülh prosesini iflasa uğratmaqdan ibarətdir. Son günlər baş verən bütün bu təxribatlara görə məsuliyyət Azərbaycan ərazilərində qanunsuz hərbi mövcudluğu davam etdirən, separatizmi təşviq edən və reinteqrasiya səylərinə əngəl törədən Ermənistan və onun rəhbərliyinin üzərinə düşür. Eyni zamanda 1980-ci illərin sonu və 1990-cı illərin əvvəllərində Ermənistandan və Azərbaycanın işğal olunmuş ərazilərindən zorla qovulmuş bir milyona yaxın azərbaycanlının çəkdiyi iztirablara, Ermənistanın 1992-ci il fevralın 26-da Azərbaycanın Xocalı şəhərində soyqırımı törətməsinə, 30 il ərzində Azərbaycan ərazilərini işğal altında saxlamasına, Naxçıvan Muxtar Respublikasını 32 ildir blokadaya almasına, son üç il ərzində Azərbaycan ərazilərində Ermənistan silahlı qüvvələrinin mövcudluğuna, Ermənistanın kommunikasiyaların açılmasına maneçilik törətməsinə göz yuman bir sıra ölkələrdən və beynəlxalq təşkilatlardan Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmət etməyi, daxili işlərinə qarışmamağı və ikili standartlar siyasətinə son qoymağı tələb edirik".

# Heç bir cinayət cəzasız qalmayacaq

## Ermənistan müharibə canilərinin müdafiəsinə qalxıb

### Bu mənasız çabalamalar terroru dəstəkləyən dövlətə heç nə verməyəcək

**Azərbaycanın Laçın yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsini qurmasıyla heç cür barışmayan, bunu "blokada" kimi qələmə verən Ermənistanın bu yoldan istifadənin sərbəst olmasını israrla tələb etməsinin səbəbi, əslində, tam aydınlığı ilə ortadadır.**





10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata əsasən, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyən Hayastan bu məqsədinə çatmaqla Laçın-Xankəndi yolu vasitəsilə Qarabağa silah-sursat, mina və digər qanunsuz vasitələri daşımaq, həm də müharibə cinayətkarlarının rahat gediş-gəlişini təmin etmək istəyir.

Amma bu ölkə unudur ki, Azərbaycan öz hərbi gücü hesabına torpaqlarını işğaldan azad edərək ədaləti bərpa etdiyi kimi, müharibə canilərinin də məsuliyyətə cəlb olunması üçün nə lazımdırsa edəcək.

İyulun 29-da Ermənistana gedərkən sərhəd-buraxılış məntəqəsində müharibə cinayətkarı, Meşəli soyqırımının qatillərindən olan Vaqif Xaçaturyanın həbs edilməsi də bu yöndə görülən işlərin nəticəsidir. Təbii ki, onun saxlanılması ilə bağlı Ermənistan tərəfi beynəlxalq ictimaiyyətin fikrini yayındıran yalan məlumatlara və siyasi manipulyasiyalara əl atır və öz hərbi cinayətkarını müdafiə edir. Lakin uzun illər ərzində beynəlxalq hüququ kobudcasına pozan, 30 ilə yaxın işğal dövründə azərbaycanlılara qarşı soyqırımı daxil insanlıq əleyhinə ağır cinayətlər və kütləvi qırğınlar törədən şəxsləri müdafiə edən və onların əməllərini ört-basdır edən Ermənistanın indi beynəlxalq hüquqdan danışması gülüncdür.

#### Xaçaturyanlar ədalət məhkəməsi qarşısında cavab verəcəklər

Milli Məclisin deputatı Aydın Mirzəzadə qəzetimizə açıqlamasında bildirib ki, Birinci Qarabağ müharibəsindən sonra ölkəmizin hüquq-mühafizə orqanları dədə-baba torpaqlarından zorla çıxarılan vətəndaşlarımızın izahatlarını alıb və bunları sənədləşdiriblər. Həmin qətliamlarda, soyqırımlarda Azərbaycan xalqına qarşı ağır cinayətlərdə iştirak edənlərin kimliyi müəyyənləşdirilib və onlar axtarışa verilib.

Lakin ərazimizin bir hissəsi uzun müddət işğal altında olduğuna görə həmin cinayətkarlar cəzasız qalıblar: "Bu gün Azərbaycanın sərhəd bütövlüyü bərpa edilib. Rusiya sülhməramlılarının müvəqqəti nəzarəti altında olan ərazilərdə yaşayan insanların bir qismi vaxtilə cinayət törətmiş şəxslərdir. Onlar hesab edirdilər ki, cinayətləri unudulacaq, onları tapmaq mümkün olmayacaq. Vaqif Xaçaturyanın saxlanılması göstərdi ki, onun kimilər cinayət əməllərinə görə gec-tez cavab verəcəklər. Bunu İkinci Dünya müharibəsində alman faşistlərinin işğal etdikləri ərazilərdə törətdikləri cinayətlərə görə uzun müddət sonra məhkəmə qarşısına çıxarılanlarla da müqayisə etmək olar".

A.Mirzəzadə deyib ki, Xaçaturyanın cinayətləri faktlarla, şahid izahatları ilə təsdiq olunub. Ermənistan və ermənipərəst dairələr onu müdafiə edərək, məhkəmənin ədalətindən qurtarmağa cəhd edirlər. Çünki onun kimilərinin cinayətində Ermənistanın birbaşa iştirakı var. Amma ermənilərin bu cəhdi də əbəsdir. Ermənistan nə qədər ki, özünün bugünkü tarixini dünənki qanlı-cinayətkar tarixindən ayırmayıb, həmişə ifşa olunacaq.

"Xaçaturyanlar bilməlidirlər ki, onlar ədalət məhkəməsi qarşısında cavab verəcəklər. Onların bir qismi Vətən müharibəsi dövründə öz cəzasını alıb, bir qismi isə qaçaraq hardasa gizlənib. Ancaq gec-tez onların hər biri törətdiyi əməllərin cəzasını çəkəcəkdir", - deyə deputat əlavə edib.

#### Azərbaycan müharibə cinayətkarlarının məsuliyyətə cəlb edilməsində qətiyyətlidir

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qeyd edib ki, Azərbaycan qanunvericiliyi ilə sülh və insanlıq əleyhinə, müharibə cinayətləri, terrorçuluq və terrorçuluğu maliyyələşdirmə əməllərinə görə müddət tətbiq olunmur. Bu mənada azərbaycanlılara qarşı soyqırımı, o cümlədən digər müharibə, sülh və insanlıq əleyhinə cinayətlər törətmiş hərbi canilərin nə zaman yaxalanmasından asılı olmayaraq, onlar mütləq qaydada cinayət məsuliyyətinə cəlb ediləcəklər.

B.Məhərrəmov vurğulayıb ki, 25 mülki azərbaycanlını qətlə yetirmiş və 10 ildir beynəlxalq axtarış elan edilməklə məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilmiş hərbi cani Vaqif Xaçaturyanın Laçın sərhəd-buraxılış məntəqəsində saxlanılması da məhz bu məqsədlə həyata keçirilib: "Möhtərəm Prezident də dəfələrlə Xocalı qatilləri başda olmaqla, əli azərbaycanlıların qanına batmış hər kəsin cəzalandırılacağını bəyan etmişdir. Xaçaturyanın yaxalanması ilə Azərbaycan dövləti göstərdi ki, heç bir çinayət unudulmur və müharibə cinayətlərinə hüquqi qiymətin verilməsi, o cümlədən 30 illik bir dövrdə sülh və insanlıq əleyhinə cinayətlər törətmiş hər bir kəsin ifşa olunaraq məsuliyyətə cəlb edilməsində nə qədər qətiyyətlidir. Üstəlik, sərhəd-buraxılış məntəqəsində "böhran şousu"nun davam etdiyi və əksəriyyəti Qərb təmsilçiləri olan çoxtərkibli təxribatçı missiyanın gözü önündə cinayətkarlıqla mübarizədə tərəddüdsüz davranışla Azərbaycan həm də bölgədə son sözün kimə məxsus olduğunu göstərdi".

Deputat qeyd edib ki, dünya Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan Azərbaycan ərazilərinin müharibə canilərinin məsuliyyətdən yayınması üçün münbit ekosistemə çevrildiyini və bunun bütövlükdə regionun təhlükəsizliyi üçün təhdid olduğunun şahidinə çevrilir. Sülhməramlı kontingentin komandanlığı isə hansısa maraqlar naminə məsələni görməzdən gəlir. Əks halda beynəlxalq axtarış orderləri rəhbər tutularaq Xaçaturyan və hələ də Qarabağda rahat şəkildə yaşayan digər canilər aidiyyəti üzrə elə sülhməramlı komandanlığının özü tərəfindən Azərbaycana təhvil verilməli idi. Digər tərəfdən, baş verənlər Beynəlxalq Qırmızı Xaç Komitəsinin növbəti dəfə iç üzünü açdı. Qısa müddət öncə qaçaqmalçılıq fəaliyyəti təkzibolunmaz faktlarla sübuta yetirilən BQXK növbəti dəfə müharibə canilərinin himayəçisi qismində ifşa olundu. Beləliklə də, silahlı münaqişə qurbanlarını qorumaq üçün mandat almış Beynəlxalq Qırmızı Xaç Komitəsi humanitar fəaliyyət adı altında humanitar hüquq pozuntuları törətmiş və beynəlxalq axtarışda olan caniləri himayə etməklə özünə qarşı çoxsaylı şübhələrin əhatəsini bir az da artırmışdır. "Qaçaqmalçılıq qalmaqalından sonra separatçılara silah daşıması ehtimalları güclənən BQXK artıq humanitar missiya adı altında separatçıların və müharibə canilərinin sərbəst hərəkətlərinin təminatçısı olması barədə də əsaslı şübhələr meydana çıxardı. Bu da BQXK-nin fəaliyyətinin bazisi olan 1949-cu il Cenevrə Konvensiyası, onun 1977-ci il Protokolu və 2005-ci il Əlavə protokollarının köklü pozuntusudur", - deyə B.Məhərrəmov bildirib.

Caninin yaxalanmasından dərhal sonra İrəvandan ucalan etiraz sədalarının, əslində, 30 il davam edən müharibə cinayətlərinin dövlət səviyyəsində törədildiyini və Ermənistanın bu gün də öz çirkin əməllərinə haqq qazandırmaqda davam etdiyini göstərdiyini deyən deputat bunun qəbuledilməz olduğunu vurğulayıb. İrəvan qeyri-adekvat davranışla 25 nəfəri öldürən, 14 şəxsə müxtəlif dərəcəli bədən xəsarətləri yetirən, 358 nəfər azərbaycanlını isə hüquqi əsaslar olmadan qanuni yaşadıqları yerlərdən didərgin salmaqla əhalini deportasiya etmə və ya məcburi köçürmə cinayətləri törədən birini və onun timsalında hərbi cinayətkarlar ordusunu müdafiə etməklə göstərdi ki, beynəlxalq birliyin "müstəqil" üzvü kimi cinayətkarlıqla mübarizədə qlobal əməkdaşlıq və birgə səylərə nəinki cəhd etmişdir, əksinə, prosesdə ciddi əngələ çevrilmişdir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## "Xaçaturyan bizə işgəncə verəndə həzz alırdı"

"O kinli gözləri, nifrət dolu baxışları heç unuda bilmirəm. Bizə əzab verəndə həzz alırdı. Gözləri parıldayırdı. Televizorda onu görəndə gözlərindən tanıdım. Heç nə dəyişməyib. Elə həmin gözlər idi. Elə zənn etdim ki, yenə mənə baxır, türk deyib üstümüzə atılacaq, döyüb, söyəcək, əzab verəcək, sonra da bundan nəşələnib güləcək. Amma bu dəfə özünü "yazıq", "xəstə" göstərməyə çalışırdı. Mən onun verdiyi əzabların canlı şahidiyəm. Bütün ömrüm boyu onun mənə verdiyi işgəncələrin izini bədənimdə daşıyacağam", - deyə o bildirdi.



Ucarda hamının "Xaçlı Mail" kimi tanıdığı, 1992-ci ilin oktyabrın 2-dən 1993-cü ilin 8 mayına kimi erməni əsirliyində olan Mail Məhəmmədəli oğlu Məmmədov bizə əsirlikdə olarkən ona işgəncə vermiş, 29 iyulda Laçın sərhəd nəzarət-buraxılış məntəqəsində həbs olunaraq Bakıya gətirilən Vaqif Çərkəzoviç Xaçaturyanın azərbaycanlı əsirlərə qarşı törətdiyi amansızlıqdan danışdı.

Mail deyir ki, hərbi xidmətdə olanda artıq ermənilər Qarabağda separatçılıq hərəkatına başlamışdılar. Elə oldu ki, bizi sovet ordusundan geri çağırdılar. Xidmətimi yeni yaranmış Azərbaycan Ordusunda davam etdirməli oldum. 1991-ci ildə Laçında könüllü olaraq döyüşlərdə iştirak etdim. 1992-ci ilin oktyabrına kimi Qarabağda ən qaynar nöqtələrdə, müxtəlf döyüşlərdə iştirak etmişəm. Oktyabrın 2-də Çıldıran, Koçakod, Dovşanlı istiqamətində gedən döyüşlərdə mühasirəyə düşmüşəm. Döyüş sursatım tükəndikdən sonra ermənilər məni əsir götürdülər. Hadrutda, Xankəndidə, Spitakda və Yerevanda əsirlik həyatı "yaşamışam". Əsirlikdə keçirdiyim o əzablı, işgəncəli günlər yadıma düşəndə indi də dəhşətə gəlirəm. Bizi əsir götürüb ilk olaraq Hadruta apardılar. Orada yerin altında bir "blindaj"da saxlayırdılar. Erməni quldurları azərbaycanlı əsirlərə amansız işgəncə verirdilər. İşgəncələrə dözməyib ölənlər də olurdu. Mən Vaqif Xaçaturyanı ilk dəfə orada gördüm. O, insanlıqdan uzaq olan bir cəllad idi. Əsirlərə əzab verəndə sanki rahat olurdu, ləzzət alırdı. Məni görəndə dedi ki, sənin ətini çiy-çiy yeməyəcəm. Səni bişirib yeyəcəm. Qaynar çayniki götürüb başıma tökürdü. Başımın dərisi bişirdi. Sonra yanındakı zabitlərə əmr edirdi ki, bunu döyün. Məni yerə yıxıb üstümdə atılıb-düşürdülər. Ağır zərbə ilə qabırğamın yeddisini sındırdılar. Sonra Vaqif Xaçaturyan məni yerdən qaldırıb sürüyərək bayıra azərbaycanlı əsirlərin yığışdığı meydançaya çıxarırdı. O, qaynaq aparatı ilə bir dəmiri kəsib xaç düzəltmişdi. Əsirlərə deyirdi ki, yaxşı baxın, mən indi bunun ətindən sizə kabab bişirəcəyəm. Bu qatil xaçı qıpqırmızı qızardaraq sinəmizə basırdı. İlk olaraq sinəmdən tüstünün qalxdığını gördüm...

Məni öldü bilib, sürüyüb həmin "blindaj"a atdılar. Özümə nə vaxt gəldiyimi dəqiq xatırlamadım. Bir neçə gündən sonra ayılanda, gözümü açanda sinəmdəki xaç çirk verirdi. Bu qatil məni üzü üstə çevirib sürüyürdü ki, yaram daha çox göynəsin, soyulsun, qan versin. Onun azərbaycanlılara olan nifrətini, kinini, qərəzini, insanlığa sığmayan hərəkətlərini indi də anlamaqda çətinlik çəkirəm. Bununla da kifayətlənmirdi. Ürəyi soyumurdu. Bir gün mənə dedi ki, sənin canın möhkəmdir. Səni müalicə edəcəyəm. Göydaş məhlulu ilə ağ nefti qarışdırıb damarlarıma vurdu. Bu, təkcə mənə qarşı belə edilən rəftar deyildi. Bütün əsirlərlə bu cani belə davranırdı.

Mail deyir ki, onun məhkəməsində iştirak etmək, onun azərbaycanlılara işgəncə verərkən parıldayan gözlərini görmək istəyirəm. Mən gec-tez ilahi ədalətin qələbə çalacağına inanırdım. Bunu gördüm. İnanıram ki, digər Xocalı qatilləri, insan cəlladları, bir sözlə, erməni faşistlərinin hamısı layiq olduqları cəzanı çəkəcəklər.

Bütün bunlar Vaqif Xaçaturyanın bir əsirin başına gətirdiyi müsibətin hələ bir hissəsidir. Mail Məmmədov deyir ki, bu insan qanı içən, insan əti yeyən qatil ən ağır cəza növlərini əsirlər üzərində sınaqdan çıxarırdı. Bu gün Ermənistanın belə bir qatili müdafiə etməsi deməyə əsas verir ki, Ermənistan rəsmi olaraq terroru dövlət səviyyəsində dəstəkləyir. Əslində, Vaqif Xaçaturyan kimi terrorçular Yerevandan gələn sifarişləri yerinə yetiriblər. Hələ ermənilərin azadlıqda olan çox cəlladları var. Onların da ədalət məhkəməsi qarşısına çıxarılacağı gün çox da uzaqda deyil.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## Qisas qiyamətə qalmadı

### Meşəli qatilinin 31 ildən sonra həbs edilməsi ədalətin bərqərar olmasıdır

Laçın sərhəd nəzarət-buraxılış məntəqəsinin açılmasına etiraz edənlərin "dərdini-azarını" bildik. Sən demə, Birinci Qarabağ savaşında Ermənistanın sifarişlərini yerinə yetirib qətliamlar törədən, qoca, "xəstə" terrorçular daha gizli dağ keçidlərini aşıb Ermənistana gedə bilmirlərmiş. Bu "humanitar" missiyanı sən demə, Beynəlxalq Qırmızı Xaç Təşkilatı həyata keçirirmiş. Azərbaycalıları işgəncələrə məruz qoyan, öldürən, yurd-yuvasından didərgin salan əliqanlı, qoca, "stajlı" terrorçuları Qarabağdan Ermənistana "Qırmızı Xaç" daşıyırmış...




1991-ci ilin dekabrın 22-də Xocalı rayonunun Meşəli kəndinin sakinlərinə qarşı törədilmiş soyqırımının təşkilatçısı və iştirakçısı Azərbaycanın erməniəsilli vətəndaşı 12 noyabr 2013-cü ildən beynəlxalq axtarışda olan Vaqif Çərkəzoviç Xaçaturyanın Laçın sərhəd nəzarət-buraxılış məntəqəsindən Ermənistana keçərkən sərhədçilərimiz tərəfindən saxlanılması bu faktı bir daha təsdiqləyib. Terrorçu Vaqif Xaçaturyan 8 qadın, 3 uşaq olmaqla, 28 nəfərin qətlə yetirilməsi, 14 nəfərin yaralanması, 400-ə yaxın azərbaycanlının doğma yurdlarından deportasiya olunması kimi vəhşiliklərin təşkilatçısı olub. Təsadüfi deyil ki, bu qanlı hadisədən cəmi 3 ay sonra əsrin faciəsi olan Xocalı qətliamı törədilib. Vaqif Xaçaturyanın törətdiyi Meşəli soyqırımı beynəlxalq ictimaiyyətin, dünya birliyinin reaksiyasını öyrənmək üçün Ermənistan hökuməti tərəfindən "test" üçün təşkil edilmişdi. Belə ki, törədilən qanlı qətliama dünya birliyi tərəfindən heç bir reaksiyanın olmaması ermənilərin əl-qolunu açmışdı. Bundan sonra erməni faşistləri daha da irəli gedərək, bütövlükdə Qarabağın işğalına zəmin yaratmaq məqsədi ilə 1992-ci il fevralın 26-da insanlığın faciəsi olan Xocalı soyqırımını törətmişdilər.

Zaman böyük və ədalətli hakimdir. Zaman hər şeyi yerbəyer edir. Dünya belə vəhşiliklərə çox şahidlik edib. Əli insan qanına bulaşmış cəlladların cəzası verilib. İkinci Dünya müharibəsində yəhudilərə qarşı soyqırımında iştirak etmiş hərbi cinayətkarlar da günahsız insanları qətlə yetirərkən, qaz kameralarında yandırarkən cəzasız qalacaqlarını zənn edirdilər. Amma belə olmadı. Hər kəs layiq olduğu cəzanı aldı. Düzdür, canlarını xilas etmək üçün yaşayış yerlərini dəyişmək məcburiyyətində qalanlar da oldu. Amma onların bütün cəhdləri nəticəsiz qaldı. İsrailin xüsusi xidmət orqanları ötən əsrin sonlarına qədər hərbi cinayətkarları təqib edərək dünyanın harasında gizlənmələrindən asılı olmayaraq, yaxalayaraq ədalət məhkəməsi qarşısına çıxarıb layiqli cəza almalarını təmin etdilər. Ədalətin hökmündən yayınmaq istəyən cəlladların bəziləri qorxudan intihar etdilər.

Azərbaycanlılara qarşı soyqırımında əli olmuş caniləri də eyni aqibət gözləyir. Bu, bir həqiqətdir ki, onlar gec-tez törətdikləri cinayətlərə görə cavab verməli olacaqlar.

Dövlət başçısı İlham Əliyev demişdir: "Mən əminəm ki, gün gələcək Xocalı faciəsini törədən, dinc əhaliyə qarşı qəddarlıq göstərən, dinc əhalini məhv edən erməni cinayətkarları məhkəmə qarşısında cavab verəcəklər. O gün gələcəkdir".

Artıq həmin gün gəlmişdir. Bunu terrorçular da, onları himayə edənlər də anlamaqdadırlar. Azərbaycanın qətiyyətli mövqeyi terrorçuların və onların havadarlarının canına vəlvələ salıb. Hərə bir yolla özünün xilası haqqında düşünür. Terroru birbaşa təşkil edən Ermənistana isə quru hay-həşir salmaq qalır. Əgər bu ölkə ədaləti bərpa etmək yolu tutsaydı, qanlı qətliamlar törətmiş uşaq qatillərinin cəzalanması üçün özü səy göstərərdi. Yoxsa terrorçuları aparıb "müalicə" etməzdi. Ermənistan Xarici İşlər Nazirliyinin Vaqif Xaçaturyanın həbsi ilə bağlı yalan bəyanat verib terrorçunu dəstəkləməsi dövlət səviyyəsində terrorçuya və terrora açıq şəkildə dəstək verməkdir. Bu, bir daha göstərir ki, sözdə, guya, Azərbaycanla sülh müqaviləsinin imzalanmasını, mehriban qonşuluq münasibətlərinin qurulmasını "istəyən" hazırkı Ermənistan iqtidarı, əslində, azərbaycanlılara qarşı soyqırımında əli olmuş şəxsləri müdafiə etməyə, onların törətdiyi cinayətlərə bəraət qazandırmağa çalışır. Bu da Ermənistanın danışıqlar prosesində səmimi olmadığını və fitnəkarlığını sübut edir.

Heç nə unudulmur, heç nə yaddan çıxmır. Biz Meşəlidə, Xocalıda, Ağdabanda, Başlıbeldə törədilən qanlı faciələri unutmamışıq. Bu gün Meşəli soyqırımı iştirakçısının saxlanılması bir daha göstərir ki, Azərbaycan dövləti dinc əhaliyə qarşı törədilmiş vəhşiliklərə biganə qalmaq fikrində deyil. Xalqımıza qarşı soyqırımda əli olan cinayətkarların heç biri məsuliyyətdən yaxa qurtara biləcəklərini heç də düşünməsinlər. Onların hər biri tez və ya gec ədalət məhkəməsi qarşısına çıxarılıb azərbaycanlılara qarşı törətdikləri cinayətlərə görə cavab verəcəklər. Bunu hər kəs bilsin ki, Azərbaycan dövləti 1990-cı illərin əvvəllərində azərbaycanlılara qarşı vəhşiliklər törətmiş terrorçuların təqib olunması və cəzalandırılması üçün tədbirlərini davam etdirəcək.

*E.QƏNİYEV,*
*"Azərbaycan"*

## Qərbi Azərbaycan İcması Meşəlidə soyqırımı törətməkdə şübhəli bilinən Xaçaturyanın həbsini alqışlayır

"Qərbi Azərbaycan İcması 1991-ci ildə Xocalı rayonunun Meşəli kəndinin azərbaycanlı sakinlərinə qarşı törədilmiş insanlıq əleyhinə cinayətlərdə iştirakına görə onilliklər ərzində Azərbaycanın beynəlxalq axtarış siyahısında olan Vaqif Xaçaturyanın çoxdan gözlənilən həbsinin, nəhayət, baş tutmasını alqışlayır. Azərbaycanın hüquq-mühafizə orqanlarının bu uğuru Meşəli qətliamından sağ çıxanlara böyük təsəllidir.

Biz ümid edirik ki, Ermənistan tərəfindən törədilmiş hərbi cinayətlərdə və insanlıq əleyhinə cinayətlərdə iştirakda ittiham olunan şəxslərin hamısı tezliklə ədalət məhkəməsi qarşısına çıxarılacaqlar".

AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının yaydığı məlumatda qeyd olunub.

Bildirilib ki, hərbi cinayətlərdə və insanlıq əleyhinə cinayətlərdə iştirak etmiş və Ermənistanın yurisdiksiyası və nəzarəti altında olan şəxsləri bu ölkənin mühakimə etməkdən ardıcıl şəkildə imtina etməsi ciddi narahatlıq doğurur. Üstəlik, bu yaxınlarda Ermənistan hökumətinin həbs edilmiş şəxsə birmənalı dəstək verən bəyanat yayması Ermənistanın bu cür mənfur cinayətkarlara himayədarlıq etdiyini sübuta yetirir. Ermənistanın belə davranışı beynəlxalq qınaq tələb edir.

Qərbi Azərbaycan İcması beynəlxalq ictimaiyyəti Ermənistanı məsuliyyətə dəvət etməyə və bu ölkəni hərbi cinayətlərdə və insanlıq əleyhinə cinayətlərdə, o cümlədən bir milyona yaxın azərbaycanlının Ermənistandan və vaxtilə işğal edilmiş Azərbaycan ərazilərindən zorla çıxarılması, 20 mindən çox mülki azərbaycanlının qətlə yetirilməsi, Azərbaycanın yüzlərlə yaşayış məntəqəsinin viran edilməsi, torpaqlarının minalarla çirkləndirilməsində iştirak edən və Ermənistanın yurisdiksiyası və nəzarəti altında olan şəxslərin cinayət təqibini həyata keçirməklə bağlı öhdəliyini yerinə yetirməyə məcbur etməyə çağırır.

Daim ədalət axtarışında olan Qərbi Azərbaycan İcması Ermənistandan qovulmuş azərbaycanlıların geri qayıtmaq hüququnu müdafiə etmək öhdəliyinə sadiq qalmaqla, qəti şəkildə inanır ki, regionda davamlı sülh və barışıq yalnız haqq-ədalətin öz yerini tapdığı halda bərqərar ola bilər.






# Gənclik






Azərbaycanın özü qədər əbədi



# Vətənə sevgi, xalqa xidmət ruhu

**Dövlət elə bir nəsil formalaşdırmalıdır ki, gələcəyini ona etibar edə bilsin. Azərbaycanda da dövlət gənclər siyasəti bu təməllər üzərində qurulmuşdur. Təsadüfi deyil ki, Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışından sonra dövlətin diqqət yetirdiyi sahələrdən biri də gənclər siyasəti oldu.**

Ümummilli Lider gənc nəslin inkişafı üçün mühüm addımlar atdı. 1993-cü il sentyabrın 22-də hələ Ali Sovetin Sədri olarkən gənclərlə görüşdü, onlara inam və etibarını bildirdi, ölkənin inkişafında fəal iştirak etməli olduqlarını qeyd etdi. Heydər Əliyevin gənclərlə növbəti görüşü 1995-ci ilin martında keçirildi. Çıxışında hər zaman gənclərin yanında olacağını vurğuladı, onların yetişməsi üçün əzmlə çalışacağını bildirdi.

Ulu Öndərin Azərbaycan gəncliyi ilə bağlı hədəflərini biz onun nitqlərində açıq-aydın görə bilirik: "Ölkəmizin bugünkü gəncləri, gənc nəsli Azərbaycanın parlaq gələcəyi yolunda öz xidmətlərini göstərəcək və Azərbaycanı gələcəkdə inkişaf etdirəcəkdir".

Heydər Əliyev 1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyinin yaradılması haqqında fərman imzaladı. Azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında yeni nəslin formalaşması, gənclərin inkişafının təmin edilməsi, yüksək səviyyədə təhsil alması, vaxtlarını səmərəli keçirməsi nazirliyin qarşısında duran əsas məsələlər oldu. Bu fərmandan sonra ölkədə geniş tədbirlərin həyata keçirilməsinə başlanıldı. 1996-cı il fevralın 2-də iki mindən çox gəncin iştirakı ilə Azərbaycan Gənclərinin 1-ci Forumu keçirildi. Tələbələr, hərbçilər, jurnalistlər, siyasi partiya və digər təşkilatlardan olan gənclərin iştirak etdikləri forumda çıxış edən Ulu Öndər Azərbaycan gəncliyinə xitab edərək onlara olan güvənini bir daha vurğuladı, yerinə yetirməli olduqları məsələləri diqqətə çatdırdı: "Gənclərin qarşısında duran vəzifələr birinci növbədə cəmiyyətdə öz yerini tutmaqdan, maariflənməkdən, təhsilini artırmaqdan, cəmiyyət üçün faydalı olmaqdan ibarətdir".

Dövlət gənclər siyasətinin davamı olaraq 1997-ci ildə verilmiş fərmana əsasən, 2 Fevral Gənclər Günü elan edildi. Daha sonra Gənc İstedadlara Yardım Fondu yaradıldı. Azərbaycan gənclərinin ikinci forumu 1999-cu il martın 2-3-də keçirildi. 1999-cu il iyulun 29-da "Dövlət gənclər siyasəti haqqında" fərman imzalandı. Fərmanda Azərbaycan gəncliyinin inkişafı ilə bağlı olduqca mühüm məsələlər əksini tapdı. Əlavə olaraq 1996-2002-ci illər ərzində Heydər Əliyev "Bədən tərbiyəsi və idman haqqında", "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında", "Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında" fərman və sərəncamlar imzaladı. Görülən tədbirlər nəticəsində Azərbaycan gəncləri cəmiyyətin aparıcı qüvvəsinə çevrildi.

Heydər Əliyev siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyev tərəfindən gənclər siyasəti bu gün də uğurla aparılır. Prezident 2005-ci il avqustun 30-da "Azərbaycan Gəncliyi Dövlət Proqramının təsdiq edilməsi haqqında" Sərəncam imzaladı. 2005-2009-cu illəri əhatə edən proqramda Azərbaycan gəncliyinin inkişaf etdirilməsi nəzərdə tutulmuşdur. Ölkə Prezidentinin fərmanı ilə 2006-cı ildə Gənclər və İdman Nazirliyi yenidən təşkil edilmiş, 2007-ci il isə ölkəmizdə "Gənclər ili" kimi qeyd olunmuşdur. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi ilə 5000-ə qədər gəncimizin xarici ölkələrdə təhsil alması imkanı yaradılmışdır. Gənclərin məşğulluq sahəsinə daim böyük diqqət göstərən ölkəmiz 2008-ci ilin sentyabrında Heydər Əliyev Fondunun dəstəyi ilə "Gənclərin məşğulluq sammiti"nə evsahibliyi etmişdir. 2011-2015-ci illərdə növbəti gənclər siyasəti ilə bağlı proqram uğurla həyata keçirilmişdir. Prezident İlham Əliyevin 15 sentyabr 2017-ci il tarixli "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı ilə bağlı sərəncamının icrası da yüksək səviyyədə təmin edilmişdir. 2020-ci il Azərbaycanda "Könüllülər ili" kimi keçirilmişdir.

44 günlük Vətən muharibəsində Azərbaycan Ordusu 30 ilə yaxın işğal altında qalan torpaqlarımızı azad etmişdir. Fəxr edirik ki, qalib ordumuzun əsgər və zabitləri sırasında gənclərimiz az deyil.

Prezident İlham Əliyev bildirmişdir: "Bu gün Azərbaycan təbii ki, inamla irəliyə baxır, ölkə qarşısındakı əsas vəzifələr öz həllini tapmışdır. Mən, əlbəttə, Qarabağ məsələsini nəzərdə tuturam. Digər sahələrdə inamla addımlayırıq. Biz haqlı olaraq fəxr edirik ki, Azərbaycan vətəndaşlarıyıq və gənclər həm öz gələcək həyatını düzgün müəyyən etmək üçün və eyni zamanda dövlətə maksimum xeyir vermək üçün fəal olmalıdırlar. Mən bu sözləri deməklə eyni zamanda Azərbaycan gənclərinə həm ürək sözlərimi deyirəm, həm də təşəkkür sözümü deyirəm. Çünki bir çox hallarda, xüsusilə Vətən müharibəsində gənclərin rolu həlledici olmuşdur və biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik".

*Aydın İSLAMZADƏ,*
*Bakı Dövlət Universitetinin tələbəsi*

İNSAN KAPİTALI

# Elm və təhsilin inteqrasiyası müasir dövrün tələbidir



**Elm və təhsilin inteqrasiyası, elmin populyarlaşdırılması qloballaşan dünyada müasir dövrün əsas tələblərindəndir. Azərbaycanda bu sahələrin səmərəli inteqrasiyasını təmin etmək, elmi kadr potensialının inkişafını sürətləndirmək və gənclərin elmə marağını artırmaq, onların inteqrasiyası ilə bağlı zəruri informasiya tələbatını təmin etmək məqsədilə ciddi islahatlar aparılır və əhəmiyyətli işlər həyata keçirilir.**

Təhsilin və intellektual resursların ölkə həyatında müstəsna rolu, insan potensialının formalaşması, onun gələcəyi dövlətin rəqabətqabiliyyətliyinin başlıca şərtlərindəndir. Ölkələr təkcə xidmət sahələri və istehsal etdiyi məhsullarla deyil, həmçinin ictimai dəyərləri və təhsil sistemləri ilə də rəqabət aparırlar. Müasir dünyada rəqabətə davam gətirmək üçün dövlətlər yalnız ərazisinə, təbii sərvətlərinə görə deyil, intellektual potensiallarına da güvənirlər. Beynəlxalq aləmdə dəyişikliklərin sürətlə getdiyi hazırkı dövrdə hər bir ölkənin, cəmiyyətin yüksəktəhsilli, innovasion təfəkkürlü mütəxəssislərə çox böyük ehtiyacı var. Müasir dünya informasiya resurslarının sürətlə artması, biliklər sisteminin yüksəlməsi, hadisələrin tez-tez əvəzlənməsi ilə xarakterizə olunur. Elmə söykənən iqtisadiyyatın formalaşmasında da intellektual potensialın mühüm rolu danılmaz həqiqətdir. Cəmiyyətin davamlı inkişafında, intellektual potensialın formalaşmasında, maddi sərvətlərin güclü kapitala çevrilməsində elm və təhsilin vəhdəti müstəsna əhəmiyyət kəsb edir.

Hazırda dünyada elmə böyük maraq var, onun auditoriyası çox genişdir. Cəmiyyətin elm və təhsil, onların inteqrasiyası sahəsində zəruri informasiya ilə təminatına böyük tələbat vardır ki, bu da elm və texnikanın dinamik inkişafı ilə bağlıdır. Bu baxımdan elmin təbliği yetərli qədər böyük əhəmiyyət kəsb edən məsələdir. Ona görə də işlər yüksək səviyyədə təşkil olunmalı və elmin ictimai əhəmiyyəti diqqət mərkəzində saxlanılmalıdır. Hazırda bütün elmi-tədqiqat və ali təhsil müəssisələri, N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanası (ŞAR) Azərbaycanda elm və təhsilin vəhdətini, elmin populyarlaşdırılmasını prioritet vəzifələrdən biri hesab edir və bu sahədə müəyyən islahatlar həyata keçirilir. Ümumilikdə rəsədxana astronomiya ilə bağlı təşkil olunan olimpiadalara və müsabiqələrə tərəfdaşlıq və evsahibliyi edir, müxtəlif tipli tədbirlərə dəstək verir. Burada il ərzində keçirilən tədbirlərdə elmi-populyar üslubda məruzələrin hazırlanması və təqdim olunmasına şərait yaradılır. Xüsusilə gənc alim və mütəxəssislərin elmi fəaliyyətlə paralel elmi-populyar yaradıcılığa təşviqi həyata keçirilir. Rəsədxananın Gənc Alim və Mütəxəssislər Şurasının (GAMŞ) əsas fəaliyyət istiqamətlərindən biri olan astronomiyanın populyarlaşdırılması və geniş auditoriyaya çatdırılması sahəsində mühüm işlər aparılır. Elmə marağın orta məktəbdən formalaşdığını göz önündə saxlayaraq ŞAR-ın Gənc Alim və Mütəxəssislər Şurası astronomiyaya maraq yaratmaq və bu sahəyə meyilli olan gənclərin stimullaşdırılması, eyni zamanda rəsədxananın gənc alim və mütəxəssislərinin elmi-populyar çıxışlar etmələrinə şərait yaratmaq məqsədilə universitet tələbələri və şagirdlərlə mütəmadi görüşlər təşkil edilir. İlin astronomik təqvimini təşkil edən əlamətdar günlər ali və orta məktəblərdə tələbələr və şagirdlərlə birgə qeyd olunur. Bu tədbirlər zamanı ŞAR-ın gənc alim və mütəxəssisləri qeyd olunan əlamətdar astronomik hadisənin izahı ilə bağlı və auditoriyanın marağına uyğun əvvəlcədən müəyyənləşdirilən astronomiya ilə əlaqədar mövzularda elmi-populyar üslubda məruzələrlə çıxış edir və iştirakçıların suallarını cavablandırırlar. Bu tədbirlər həmin elmin populyarlaşdırılması ilə yanaşı, astronomiya fənninin orta məktəb tədrisindən çıxarılması ilə bağlı yaranan boşluğun qismən də olsa doldurulmasına xidmət edir. Şagirdlərin astronomiya elminə böyük marağı var və orta məktəb tədrisində coğrafiya, fizika və həyat bilgisi fənləri daxilində astronomiya ilə bağlı zəruri məlumatlar yer alır, ancaq bu, şagirdlərin astronomiya elminə olan böyük marağını təmin etməyə kifayət etmir. Ona görə də şura öz fəaliyyətində gənclərin astronomiyaya olan marağının qarşılanmasını və stimullaşdırılmasını daim diqqət mərkəzində saxlayır.

Azərbaycan elmi ictimaiyyəti elm və təhsilin inteqrasiyasının səmərəli təşkilinin zəruriliyinin fərqindədir və fəaliyyətini də məhz bu istiqamətdə qurmağa çalışır. Son bir il ərzində elm və təhsilin inteqrasiyası istiqamətində görülən tədbirlərin nəticələrinin təhlilinə əsasən deyə bilərik ki, elm və təhsil tandeminin inteqrativ inkişafı innovasiya və peşəkar kadr hazırlığı baxımından böyük töhfə verəcəkdir.

*Aynurə HƏSƏNOVA,*
*N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının Gənc Alim və Mütəxəssislər Şurasının sədri*

XOŞ İSTİRAHƏT

# Göygöldə "Sağlam gənclik" düşərgəsi fəaliyyətə başlamışdır



**Göygöl Gənclər Evinin təşkilatçılığı, rayon Gənclər və idman sektorunun dəstəyi ilə rayonda "Sağlam gənclik" adlı günərzi düşərgəyə start verilmişdir. Düşərgənin açılış mərasimində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmiş və ərazi bütövlüyümüz uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilmişdir.**

Tədbiri giriş sözü ilə Göygöl Gənclər Evinin direktoru Şəhriyar İsmayılzadə açaraq diqqətə çatdırmışdır ki, günərzi düşərgənin açılmasında əsas məqsəd gənclərin yay istirahətini təşkil etməklə yanaşı, onların asudə vaxtlarını səmərəli keçirmələrinə şərait yaratmaqdır. Belə ki, düşərgəyə cəlb ediləcək gənclər burada təşkil olunacaq intellektual oyunlarda, əyləncəli tədbirlərdə iştirak etməklə öz bilik və dünyagörüşlərini artıracaqlar.

Sonra Gəncə-Daşkəsən Regional Gənclər və İdman İdarəsinin rəisi İntiqam Hüseynov, Göygöl Rayon Gənclər və İdman Sektorunun müdiri Zaur Abbasov düşərgə iştirakçılarını fəal olmağa çağırmış, gənclərin düşərgədəki fəaliyyətlərinə uğurlar arzulamışlar.

Göygöl Rayon Polis Şöbəsinin inspektoru Elçin Məmmədov və Göygöl Rayon Mərkəzi Xəstəxanasının psixoloqu Arzu Məmmədova cıxış edərək gənclərin pis vərdişlərdən uzaq olmalarında bu tədbirin əhəmiyyətindən danışmışlar.

Günərzi düşərgədə fərqli istiqamətlərdə seminarların və debat təlimlərinin keçirilməsi, eləcə də gənclərin rayonun tarixi yerlərinə ekskursiyaları, piknik və əyləncəli oyunların təşkili nəzərdə tutulmuşdur.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

ŞAHİNLƏR

# Gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinə xüsusi önəm verilir

**Ermənistanla sərhəd bölgəsində yerləşən Tovuz rayonunda gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasına böyük əhəmiyyət verilir. Bu məqsədlə rayonda tez-tez bir sıra tədbirlər həyata keçirilir.**




Elə bu günlərdə Tovuz rayonunda yerləşən "N" saylı hərbi hissədə Tovuz Rayon İcra Hakimiyyətinin, rayon Gənclər və İdman İdarəsinin, Qazax-Tovuz Regional Təhsil İdarəsi Tovuz Rayon Təhsil Sektorunun, habelə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Tovuz Rayon Şöbəsinin birgə təşkilatçılığı ilə "ŞAHİN" hərbi-idman oyununun rayon birinciliyi keçirilmişdir.

Yarışlar öncə 6 rayonun daxili zonalarında keçirilmiş, həmin zonalarda birinci və ikinci yerləri tutmuş komandalar rayon mərhələsinə dəvət olunmuşlar.

Ümummilli Lider Heydər Əliyevin, torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edildikdən və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra yarışa start verilmişdir. Gərgin mübarizə şəraitində keçən yarışlarda birinci yeri S.Kazımov adına Qovlar şəhər tam orta məktəbin, ikinci yeri M.Məmmədov adına Yuxarı Öysüzlü kənd tam orta məktəbin, üçüncü yeri E.Orucov adına Bayramlı kənd tam orta məktəbin komandaları tutmuşlar.

Qalib komandalar fəxri fərman və kuboklarla təltif olunmuşlar.

*S.ƏLİYEV,*
*"Azərbaycan"*

## İdman

# Yaponiyada himnimiz səsləndi, bayrağımız yüksəldi

### Vitse-spiker Adil Əliyev Tokioda keçirilən beynəlxalq turnirdə idmançılarımıza dəstək oldu






Milli Məclisin Sədr müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev Yaponiyanın paytaxtı Tokioda iyulun 30-da keçirilmiş qaydasız döyüş üzrə "Super Rizin 2" turnirində iştirak edən idmançılarımıza dəstək olmaq məqsədilə yarışları yaxından izləyib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən qəzetimizə verilən məlumata görə, Tokio şəhərinin Saitamo Super Arena idman kompleksində keçirilən turnirin açılışında çıxış edən vitse-spiker Adil Əliyev Azərbaycanda idmançılara dövlət tərəfindən göstərilən hərtərəfli diqqət və qayğıdan, bunun sayəsində bədən tərbiyəsi və idmanın ölkəmizdə kütləviləşməsindən, idmançılarımızın beynəlxalq yarışlarda yüksək nailiyyətlər əldə etməsindən danışıb. O, Azərbaycanın dünyanın idman ölkələrindən biri, nüfuzlu beynəlxalq yarışların təşkilatçısı kimi tanındığını və idmanın Azərbaycanın brendinə çevrildiyini bildirib.

Turnirdə həmyerlilərimiz, MMA ustaları Tofiq Musayev və Vüqar Kərəmov rəqiblərini məğlub edərək inamlı qələbələr qazanıblar və Azərbaycanın bayrağını Tokioda yüksəldiblər.

İdmançılarımızın uğurunu Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yürütdüyü effektli, uğurlu idman və gənclər siyasətinin növbəti bəhrələri kimi dəyərləndirən Adil Əliyev dövlətimiz tərəfindən idmançılara göstərilən hərtərəfli diqqət və qayğının onlara mənəvi ruh və güc verdiyini vurğulayıb.

Vitse-spiker idmançılarımızın qalibiyyətinin, uzaq Yaponiyada himnimizin səslənməsinin və bayrağımızın yüksəldilməsinin hər bir azərbaycanlını qürurlandırdığını bildirib, bunu bizə yaşadan idmançılarımıza minnətdarlığını ifadə edib.

Adil Əliyev idmançılarımızın böyük zəhmət çəkərək yarışlara əzmlə hazırlaşdıqlarını, fiziki və texniki hazırlıqlarını yüksək səviyyədə saxladıqlarını qeyd edib, bu işdə onlarla bərabər məşqçilərin də üzərinə böyük iş düşdüyünü bildirib. O, ölkəmizi ən layiqli şəkildə təmsil etməyin hər birimizin borcu olduğunu vurğulayıb.

*"Azərbaycan"*

# Avropa Yeniyetmələri XVII Olimpiya Festivalının bağlanış mərasimi keçirilib

Sloveniyanın Maribor şəhərində keçirilən Avropa Yeniyetmələri XVII Olimpiya Festivalına yekun vurulub. Yarışın bağlanış mərasimi Maribor şəhər meydanında təşkil olunub. Mərasimdə Sloveniya və bəzi Avropa ölkələrinin rəhbər şəxsləri, Beynəlxalq və Avropa Olimpiya Komitələrinin rəsmiləri iştirak ediblər.

Maribor Bələdiyyə Başçısı Sasha Arsenoviç bağlanış mərasimində çıxış edərək şəhərin "EYOF sayəsində böyük bir Olimpiya ailəsinin bir hissəsi olduğunu və bununla da Sloveniyanın böyük tədbirlərin təşkilində nüfuzunu təsdiqlədiyini" söyləyib.

Ardınca iştirakçı ölkələrin bayraqları meydana gətirilib. Mərasimdə Azərbaycan komandasının bayraqdarları Vüsalə Hacıyeva və Səid Həmidov olublar.

Qeyd edək ki, iyulun 23-dən 29-dək davam edən Olimpiya Festivalında 48 ölkədən 3 minə yaxın atlet 11 idman növü üzrə mübarizə aparıb. Azərbaycan Maribor-2023-də 7 (cüdo, atletika, gimnastika, tennis, üzgüçülük, şose velosipedi, dağ velosipedi) idman növü üzrə 36 idmançı ilə təmsil olunub. Komandamız festivalı 3 qızıl, 3 gümüş və 4 bürünc medalla başa vurub.

# Azərbaycan Ümumdünya Universiadasında 7 medal qazanıb

**Çinin Çendu şəhərində Ümumdünya Universiadası davam edir. Hazırda Azərbaycan yığmasının aktivində 7 medal var. Bunlardan 3-ü gümüş, 4-ü isə bürüncdür.**

Bədii gimnastika yarışlarında Zöhrə Ağamirova halqa, gürzlər və lentlə hərəkətlərin icrasına görə ikisi gümüş, biri bürünc olmaqla üç medal qazanıb. Cüdoçularımız da hələ ki 3 mükafat əldə ediblər. Rəşid Məmmədəliyev (73 kq) ikinci, Leyla Əliyeva (48 kq) və Yaşar Nəcəfov (66 kq) üçüncü yeri tutublar.

Taekvondoda Minayə Əkbərovanın (46 kq) sayəsində bir bürünc medal qazanılıb. Bu mükafatlar sayəsində Azərbaycan 18-cidir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Zəngilan könüllüləri ilk dəfə ərazidə fəaliyyətə başlayıb

Zəngilan rayonunun Ağalı kəndində Zəngilan könüllülərinin təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Azərbaycan Respublikasının Gənclər Fondunun, Azərbaycan Könüllü Təşkilatları İttifaqının dəstəyi və "Böyük Qayıdış" Gənclər Təşkilatının təşkilatçılığı ilə "Qayıdış Könüllüləri" Proqramının "Zəngilan Könüllüləri" qrupu ilk dəfə olaraq ərazidə fəaliyyətə başlayıb.

Zəngilan könüllülərinin Ağalı kəndinə təşkil olunan səfəri zamanı Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev könüllü gənclərlə görüşüb, cəmiyyətin inkişafında önəmli olan fəaliyyətlərində onlara uğurlar arzulayıb və bu proqramın onlar üçün də faydalı olacağını qeyd edib.




"Ölkəmizin dayanıqlı inkişafında könüllülük fəaliyyəti olduqca böyük önəm daşıyır. Sizin fəaliyyətiniz işğaldan azad olunmuş Zəngilanda olacağı üçün öz növbənizdə dövlətimizin başçısının rəhbərliyi ilə aparılan tikinti-quruculuq işlərinə, eləcə də "Böyük qayıdış" prosesinə müsbət töhfənizi verəcəksiniz. Bu proqram həm də sizə yeni təcrübə, dünyagörüşü, sosiallaşma, uğurlu karyera yolu, ətrafda baş verən hadisələrə daha həssas yanaşma, komandada işləmə və ünsiyyət qurma bacarığı sahəsində özünüzü inkişaf etdirməyə yardımçı olacaq!",- deyə Vahid Hacıyev bildirib.



Daha sonra könüllülər "Böyük qayıdış"ın rəmzi olan, "ağıllı kənd" layihəsi ilə yenidən qurulan, həyatın canlandığı Ağalı kəndinin ərazisi ilə, buraya köçürülən ailələr üçün yaradılan şəraitlə yaxından tanış olub, görülən və planlaşdırılan işlər haqqında ətraflı məlumat alıblar. Həmçinin səfər zamanı könüllülər kənddə məskunlaşan əhali ilə görüşüb, fikir mübadiləsi aparıb, təəssüratlarını onlarla bölüşüblər. Görüşdə bildirilib ki, Zəngilan könüllülərinin kəndə belə səfərlərinin tez-tez təşkili, eyni zamanda Nümayəndəliklə birlikdə Ağalı kəndində yaşayan uşaq, yeniyetmə və gənclər üçün müxtəlif məzmunlu, maraqlı tədbirlərin keçirilməsi planlaşdırılır.

Proqram çərçivəsində könüllülər tərəfindən Zəngilan rayonu ərazisində müxtəlif könüllü fəaliyyətlərə, o cümlədən mütəmadi olaraq bu ərazilərdə keçiriləcək tədbirlərin təşkilində iştirak etməyə, buraya səfər edən yerli və xarici qonaqlarla işə, qayıdışa hazırlığa, bərpa və yenidənqurma işlərinə, məskunlaşmaya, həmçinin Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinə müxtəlif fəaliyyət istiqamətləri üzrə dəstəyin göstərilməsi nəzərdə tutulub.

Qeyd edək ki, Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən işlərə gənc nəslin, xüsusilə də kökləri bu torpaqlara bağlı olan gənclərin daha geniş cəlb olunması çağırışına uyğun olaraq icra olunan proqramın əsas məqsədi işğaldan azad edilmiş ərazilərdə könüllülük fəaliyyətini dəstəkləməkdir. Eyni zamanda proqram əslən Şərqi Zəngəzurdan olan gənclərin öz doğma torpaqlarında reallaşdırılan yenidənqurma və bərpa işlərində, eləcə də bölgənin tarixi mədəni irsinin təbliğində iştirakının təşviq edilməsinə və gənclərin azad olunmuş ərazilərə qayıdışına töhfə verilməsinə hesablanıb.

## 1 Avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür

# Milli varlığımızın əsas rəmzi

**"Ana dilimizə hörmət və qayğı daim olmalıdır. Biz ana dilimizi xarici təsirdən qorumalıyıq. Ana dilimiz bizim toxunulmaz sərvətimizdir".**

**İlham ƏLİYEV**

*Ölkəmizdə hər il olduğu kimi, bu il də Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü ictimaiyyət tərəfindən milli bayram ovqatı ilə qeyd olunur. Bu bayramın əks-sədası üç il bundan əvvəl Ermənistan silahlı birləşmələrindən azad edilmiş bölgələrimizdən, xüsusən də Füzuli rayonunun Ağalı kəndinə və Laçın rayonuna doğma yurdlarına qayıdanlar arasından daha möhtəşəm eşidilir.*

Ulu Öndər Heydər Əliyevin 2001-ci il tarixli sərəncamı ilə avqustun 1-dən əlifbamız kiril qrafikasından latın qrafikasına keçirilmişdir. Milli varlığımızın əsas atributlarından olan ana dilimizlə bağlı bu tarixi gün yer üzündə yaşayan hər bir azərbaycanlı və Azərbaycanı sevənlər üçün əlamətdar olmuşdur. Keçmiş imperiyanın məkrli siyasəti sayəsində 70 il Azərbaycanda kiril qrafikalı əlifbadan istifadə edilib. Azərbaycan xalqı 1991-ci ildə öz tarixi müstəqilliyini yenidən bərpa edəndən sonra ana dilimiz də azadlığa qovuşdu.

Sovet dönəmində imperiya qüvvələri xalqların bu yaddaş kodunu sındırmaqla millətlərin dilinin, tarixinin, ədəbiyyatının, mədəniyyətinin, bir sözlə, milli-mənəvi xəzinələrinin üstündən xətt çəkmək istəyirdi. Bu zaman minlərlə Azərbaycan ziyalısının səsinə səs verən xalq şairi Süleyman Rüstəm "Dilimə dəymə" şeirində deyirdi:

*Mən sənin dilinə dəymirəm, cəllad,*
*Gəl sən də bu ana dilimə dəymə,*
*Sənin də bağın var, gülün var, çəkin,*
*Bağımda əkdiyim gülümə dəymə!*
*Yenicə sağalır vurduğun yara,*
*Mənim bu yaralı könlümə dəymə!*

Tarixdən məlumdur ki, Azərbaycan dili və Azərbaycan əlifbası zaman-zaman müxtəlif təzyiqlərə məruz qalsa da, öz varlığını qoruyub saxlaya bilmişdir. Hər dili və əlifbanı, ilk növbədə onun daşıyıcısı olan xalq yaşadır. Bu, təkcə xalqdan, millətdən, yaradıcı ziyalılardan asılı məsələ deyil. Tarix dönə-dönə sübut etmişdir ki, dilin inkişafı milli müstəqillik ideyalarına sadiq olan, böyük siyasi iradəsi və qətiyyəti ilə öz xalqının tarixinə islahatçı və müdrik dövlət xadimi kimi daxil olan liderlərin adı ilə bağlıdır. Bu mənada, nəinki dilçi mütəxəssislər, hətta ən sadə peşə adamları da məmnunluqla etiraf edirlər ki, Azərbaycan dilinin hərtərəfli inkişafında Ümummilli Lider Heydər Əliyevin xidmətləri böyükdür. Milli Məclisin deputatı, tanınmış dilçi alim, AMEA-nın həqiqi üzvü Nizami Cəfərov Heydər Əliyev və Azərbaycan dili məsələlərini şərh edərək bildirir ki, Ulu Öndərin bu sahədə rolu əvəzsizdir. Akademik Ümummilli Lider Heydər Əliyevin "Hər bir xalqın özünəməxsusluğunu müəyyən edən başlıca ünsürlərdən biri onun dilidir. XX əsrdə xalqımızın əldə etdiyi uğurlar yüksək təqdirə layiqdir. Biz fəxr edirik ki, müstəqil Azərbaycan Respublikasının dövlət dili olan Azərbaycan dili son bir əsrlik dövr ərzində lüğət tərkibini xeyli zənginləşdirmiş, qrammatik quruluşunu cilalamış və dünya dilləri içərisində öz layiqli yerini tutmuşdur" fikrini xatırladaraq bildirir ki, Ümummilli Liderin hazırlayıb həyata keçirdiyi dil siyasəti dövlət quruculuğu siyasətinin tərkib hissəsidir. Heydər Əliyev Azərbaycan Respublikasına rəhbərlik etməyə başladığı ilk illərdə ana dilinə böyük əhəmiyyət vermiş, bu dilin Azərbaycan SSR Konstitusiyasında dövlət dili kimi xüsusi maddədə göstərilməsinə nail olmuşdur. Ali məktəblər üçün yazılmış "Müasir Azərbaycan dili" dərsliklərinin respublika dövlət mükafatına layiq görülməsi, anadilli ədəbiyyatın inkişafı üçün hər cür şəraitin yaradılması, Azərbaycan ədəbiyyatı klassiklərinin təbliği bunun nəticəsi idi. Rəsmi yığıncaqlarda ana dilində çıxış edən dövlət başçısı Azərbaycan dilinə böyük siyasi, ideoloji nüfuz qazandırmışdı.

Zəngin dövlətçilik təcrübəsinə malik, dünya şöhrətli siyasətçi Heydər Əliyev ötən əsrin 60-cı illərinin sonundan (1969) Azərbaycana rəhbərlik etməyə başladığı vaxtdan ana dilimizə və əlifbamıza böyük qayğı göstərmişdir. Rəhbərin şəxsi təşəbbüsü, qətiyyəti və siyasi uzaqgörənliyi sayəsində 1978-ci ildə Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması haqqında ayrıca maddənin daxil edilməsi bunun ən bariz nümunəsidir.

Ulu Öndərin ikinci dəfə müstəqil ölkəmizin rəhbərliyinə qayıdışından sonra, 1995-ci il noyabrın 12-də referendum yolu ilə qəbul olunmuş Konstitusiyamızda Azərbaycan dili rəsmi dövlət dili kimi təsbit edilmiş və dövlət statusu almışdır. Dil siyasətinin əsaslarını yaradan Heydər Əliyev hakimiyyətdə olduğu dövrdə istər siyasi-ictimai, istərsə də mədəni aspektdə Azərbaycan dilinin inkişafı üçün bir sıra islahatlar həyata keçirmişdir. Ümummilli Liderin bu sıradan imzaladığı sənədlər arasında "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli fərmanı xüsusi yer tutur. Bu tarixi fərmanda Azərbaycan dövlət müstəqilliyinin rəmzlərindən sayılan Azərbaycan dilinin tətbiqi və inkişaf etdirilməsinə, ana dilimizin öyrənilməsi və cəmiyyətdə işlənmə mexanizminin təkmilləşdirilməsinə, eləcə də bu sahədə həyata keçiriləcək tədbirlərə nəzarətin gücləndirilməsinə yüksək dövlət qayğısı öz əksini tapmışdır.

Ümummilli Lider Azərbaycan dilinin yaddaş kodunun - Azərbaycan əlifbasının əbədiyaşarlığını tarixiləşdirmək və dünya dilçilərinə bəyan etmək üçün 9 avqust 2001-ci il tarixli məlum fərmanına əsasən, ölkəmizdə Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü böyük təntənə ilə qeyd olunur. Heydər Əliyevin Azərbaycan dilinin inkişafı ilə əlaqədar apardığı islahatlar və imzaladığı fərmanlar, milli-mənəvi dəyərlərin qorunub saxlanmasında, azərbaycançılıq ideyasının formalaşması yolunda müstəsna əhəmiyyətə malikdir.

Ulu Öndərin müdrik siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ana dilimizə, mədəniyyətimizə daim böyük diqqət və qayğı göstərən dövlət başçısı bu sahənin inkişafı ilə bağlı mühüm sənədlər imzalamışdır. Təqdirəlayiq haldır ki, Ümummilli Liderin ideyalarını layiqincə həyata keçirən Azərbaycan Prezidenti İlham Əliyev doğma dilimizə, milli adət-ənənələrimizə, qədim mədəniyyətimizə böyük həssaslıqla yanaşır. Bu gün ana dilimizin inkişafının əsas qarantı da məhz ölkə Prezidentinin özüdür. Azərbaycan ədəbiyyatını, azərbaycanlı düşüncəsini əks etdirən sanballı əsərlərin latın qrafikasında yenidən nəşr edilməsi neçə il bundan öncə Prezident İlham Əliyevin təşəbbüsü ilə baş tutmuşdur. Ölkə rəhbərinin 2004-cü il yanvarın 12-də imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamı həm də əlifba ilə bağlı problemləri həll etmişdir. Dövlət başçısının sonrakı sərəncamlarında isə 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası", 100 cildlik "Dünya uşaq ədəbiyyatı kitabxanası", 100 cildlik "Azərbaycan ədəbiyyatı kitabxanası" seriyasından olan yeni nəşrlər respublika kitabxana şəbəkəsinin latın qrafikalı ədəbiyyat fondunu zənginləşdirmişdir.

Prezident İlham Əliyevin həyata keçirdiyi mühüm və uğurlu tədbirlərdən biri də 2004-cü il 12 yanvar tarixində imzaladığı "Azərbaycan milli ensiklopediyasının nəşri haqqında" məlum sərəncamıdır. Bu sərəncamın nəticəsində qiymətli kitabların çapı mənəvi xəzinəmizin zənginləşməsində mühüm rol oynamışdır. Proses bu gün də davam etdirilməkdədir. Dövlət başçısının 2013-cü il 9 aprel tarixli "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" da ana dilimizin qorunması və inkişafında mühüm sənədlərdən hesab olunur.

Prezident İlham Əliyev milli xüsusiyyətlərimizin saxlanmasında ana dili və ədəbiyyatımızın başlıca amillərdən olduğunu dəfələrlə diqqətə çəkərək demişdir: "Bizi millət kimi qoruyub saxlayan məhz dilimiz, ədəbiyyatımız, tariximiz, ənənələrimizdir". Dövlət başçısı elm adamlarının, şair və yazıçıların təmsil olunduqları yığıncaqlarda, paytaxtda və bölgələrdə ictimaiyyət nümayəndələri ilə görüşlərində həmişə dövlət atributlarına, xüsusilə də Azərbaycan dilinə, əlifbasına, mədəniyyətinə, incəsənətinə, milli adət-ənənələrinə xüsusi ehtiramla yanaşılmasını, xüsusi dəyər verilməsini diqqətə çatdırmışdır. Ana dilimizə qayğıdan söz açarkən Prezident demişdir: "Ana dilimizə hörmət və qayğı daim olmalıdır. Biz ana dilimizi xarici təsirdən qorumalıyıq. Ana dilimiz bizim toxunulmaz sərvətimizdir. Azərbaycan xalqının formalaşmasında, müstəqil Azərbaycanın formalaşmasında ana dilimiz - Azərbaycan dili müstəsna rol oynamışdır. Biz elə etməliyik ki, dilimizin saflığını daim qoruyaq. Bu məsələyə çox ciddi diqqət göstərilməlidir".

Bu gün Azərbaycan dilinin inkişafı və qorunması dövlətin prioritet istiqamətlərindəndir. Azərbaycan əlifbasına diqqət və qayğı Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun ifadəsinə, azərbaycançılıq məfkurəsi əsasında hərtərəfli inkişafına, gənc nəslin ana dilinə qayğı və hörmət ruhunda tərbiyə olunmasına, ədəbi dilin normalarına ciddi əməl edilməsinə, o cümlədən dilçilik elmi üzrə yüksəkixtisaslı kadrların hazırlanmasına münbit şərait yaratmışdır.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# "Azərişıq" ASC Kəlbəcərdə yenidənqurma işlərini davam etdirir

**Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına əsasən "Azərişıq" ASC ölkənin bütün regionlarında olduğu kimi, işğaldan azad edilən tarixi torpaqlarımızda da yenidənqurma işlərini davam etdirir.**

Kəlbəcərdə də ən ucqar kəndlərə belə işıq çəkilir. Köhnə sovet dövründən qalma xətlər yenisi ilə əvəzlənir. "Azərişıq" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, hazırda Zar kəndi istiqamətində 35 Kv-luq izolyasiyalı xətlərin çəkilişi üzrə işlərə başlanılıb. Xətlərin daşınması üçün dayaqlar basdırılır, xətlər çəkilir. Paralel olaraq Mərcimək, Yellicə və Ağqaya kəndləri istiqamətində də yenidənqurma işləri aparılır.

İzolyasiyalı kabellərin açıq xətlərlə müqayisədə üstünlükləri çoxdur. Yüksək dağlıq ərazilərdə kəskin hava şəraitində açıq naqillərdə buzlaşma halları tez-tez baş verir. Əlavə olaraq meşə zolağından keçən hissədə ağacların budağının toxunması nəticəsində də açılmalar olur. Çətin relyefə malik belə yerlərdə baş verən qəzaların aradan qaldırılması kifayət qədər vaxt tələb edir. İzolyasiyalı kabellərdə isə belə problemlər yaranmır. Nəticədə abonent dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təmin olunmaqla yanaşı, itkilər də azalır. Üstəlik, açıq kabellərdə mühafizə zonası 30 metr olmalıdır. Xətlərin onlarla kilometr uzunluğunda olduğunu nəzərə alsaq, nə qədər boş torpaq sahəsi itkisi olduğunu təsəvvür etmək çətin deyil. İzolyasiyalı kabellərdə isə mühafizə zonası cəmi 4-6 metrdir. Bu da qəza baş verəcəyi halda texnikaların işləyə bilməsi üçün nəzərdə tutulub.

Cənab Prezident İlham Əliyevin 2022-ci il 26 iyun tarixdə təməlqoyma mərasimində iştirak etdiyi Kəlbəcər Rəqəmsal İdarəetmə Mərkəzinin tikintisi davam edir. Rəqəmsal İdarəetmə Mərkəzi ən müasir avadanlıqlarla təchiz ediləcək. Bu da gələcəkdə Kəlbəcərin dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təmin olunmasında mühüm rol oynayacaq.

# Daşınmaz əmlak sahəsində tariflər azaldıldı

İyulun 31-də Tarif (qiymət) Şurasının növbəti iclası keçirilib, daşınmaz əmlakın qeydiyyatı, texniki inventarlaşdırılması və kadastrı xidmətləri üzrə tariflər, həmçinin dərman vasitələrinin qiymətləri təsdiq edilib.

Tarif Şurasının katibliyindən AZƏRTAC-a bildirilib ki, yeni tariflərlə bir sıra güzəştlər nəzərdə tutulur. Bu güzəştlər çərçivəsində şəhid ailəsi üzvlərinin, hərbi əməliyyatlar nəticəsində əlil olmuş hərbi qulluqçu və mülki şəxslərin daşınmaz əmlaklarına, işğaldan azad olunmuş ərazilərdə yerləşən daşınmaz əmlak obyektlərinə münasibətdə xidmət haqqına 50 faiz güzəşt tətbiq olunur. Bununla yanaşı, kənd təsərrüfatı, sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqlar üzrə, eləcə də çoxmənzilli yaşayış binalarının inventarlaşdırılması üzrə tariflər azaldılıb. Sahəsi 1000 kvadratmetrə qədər olan əmlakların tariflərində də azalma tətbiq olunur. Yeni tariflərə uyğun olaraq, qeyri-yaşayış sahələri üzrə xidmətlərdə xərclər azalır.

Şuranın qərarına əsasən, tariflərin sayı 79-dan 60-a endirilib, qanunvericiliyə dəyişikliklər nəticəsində yaranmış yeni 9 xidmət üzrə tariflər müəyyənləşdirilib, 21 tarif mövcud səviyyədə saxlanılıb, xidmət göstərilmədiyi üçün 29 tarif ləğv edilib, 5 tarif alt qruplara keçirilərək ümumiləşdirilib. Xidmət sayının optimallaşdırılması bir sıra istiqamətlər üzrə xidmət haqqının aşağı salınmasına və ya tamamilə ləğv edilməsinə imkan yaradıb. Həmçinin yaşayış sahələrinin qeyri-yaşayış sahələri hesabına çarpaz maliyyələşdirilməsinin aradan qaldırılması məqsədilə müvafiq tariflərə dəyişikliklər edilib.

İclasda həmçinin yeni dövlət qeydiyyatına alınan 95 dərman vasitəsinin qiyməti təsdiq edilib və etibarlı təchizatın təmin olunması məqsədilə Səhiyyə Nazirliyindən müvafiq rəy alınmış 47 dərman vasitəsinin qiymətində Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli 209 nömrəli Qərarı ilə təsdiq olunmuş Qaydalara və Tarif Şurasının 2015-ci il 21 iyul tarixli Qərarı ilə təsdiq edilmiş Təlimata uyğun olaraq dəyişikliklər aparılıb. Ticarət adı, farmasevtik forması, təsiredici maddəsinin adı, dozası, ticarət qablaşdırması, miqdarı, istehsal ölkəsi nəzərə alınmaqla, qiyməti təsdiq edilmiş dərman vasitələrinin tam siyahısı Tarif Şurasının rəsmi internet saytının (www.tariff.gov.az) "Dərman vasitələri" bölməsində (http://tariff.gov.az/documents/DVA.pdf) yerləşdirilib.

Qərarlarla Şuranın rəsmi saytının "Şuranın qərarları" bölməsində tanış olmaq olar.

# Ermənilər isterikadadırlar

## "Kaş, türk olaydım, artıq xalqımın dəliliyinə baxa bilmirəm"

1991-ci ildə Xocalı rayonunun Meşəli kəndində qanunsuz erməni silahlı birləşmələrinin üzvləri ilə birlikdə soyqırımı törədənlərdən biri Vaqif Çerkezoviç Xaçaturyan "Laçın" sərhəd-buraxılış məntəqəsində saxlanılması məğlub ölkə Hayastanda ajiotaja səbəb olub, böyük şok və xof yaradıb.

Erməni sosial şəbəkə istifadəçilərinin statuslarından, şərhlərindən və mövqelərindən görünür ki, təşviş içində olan haylar indi düşdükləri bu acınacaqlı vəziyyətə görə hazırkı və keçmiş hökumət başçıları arasında "qurbanlıq keçi" axtarışındadırlar.

Tanınmış erməni fəal və bloqçu, sülhməramlı təşəbbüsləri ilə tanınan İşxan Verdyan Hayastan ictimaiyyətinin azərbaycanlılara qarşı soyqırımı törətmiş Vaqif Xaçaturyanın saxlanılmasına göstərdiyi isterik reaksiyaya münasibət bildirib. İşxan Verdyan fikirlərini özünün "Teleqram" kanalında paylaşaraq qeyd edib ki, Vaqif Xaçaturyanın Azərbaycan sərhədçiləri tərəfindən saxlanılmasını "oğurluq" kimi təqdim etmək Hayastan ictimaiyyətinin Bakının legitim addımlarını qəbul etmək istəməməsindən irəli gəlir: "Azərbaycan ermənilərin anlayışında kainatdan ayrı mövcuddur və əgər bir gün bütün azərbaycanlılar dəhşətli əzab içində ölsələr, həmin gün ermənilər üçün ən xoşbəxt gün olacaq. Şiddətli kin və reallıq hissinin itirilməsi... Sual yaranır: Niyə azərbaycanlıların belə qonşulara yazığı gəlməlidir? Niyə onlarla sülh bağlamaq istəsinlər ki? Niyə öz ölkəsində onlara dözməlidirlər ki? Hansı xidmətlərinə görə? Özümdən iyrənirəm. Hansı xalqın nümayəndəsi olduğumu düşünəndə özümə nifrət edirəm. Kaş türk olaydım, bir qıraqda oturub bu mənzərəyə güləydim. Artıq xalqımın dəliliyinə baxa bilmirəm".

"4rd.am" saytının müxbiri Tiqran Mamikonyan sosial şəbəkədə Vaqif Xaçaturyanın qızınının çıxışının yer aldığı paylaşıma münasibət bildirib: "İki gündür Stepanakertdəyik (red.Xankəndi). İnsanlarla söhbətlərdən belə nəticəyə gələ bilərik ki, ciddi təşviş var. Son günlərdə baş verən hadisələrdən sonra əhalidə qorxu yaranıb. Təsəvvür edirsiniz, insanlar evdən çölə çıxmağa belə çəkinirlər. Fırtına öncəsi sakitlik hökm sürür".

Avetik Saakyan "İnstaqram"da V. Xaçaturyanla şəkilini paylaşaraq qeyd edib: "Vaqiflə uzun illərdir dostuq. Müharibədən ağızdolusu danışırdı. Bir neçə nəfər var idi ki, onlarla tez-tez görüşərdi. İndi mediadan oxuyuram ki, nə işlər görüblər. İndi nə edək? İrəvandakı qohumlarımıza yük olaq? Bu həyəcanla, xofla burada necə yaşaya bilərik?"

Xankəndidə bank sektorunda çalışdığını yazan Karen Torosyam adlı istifadəçi isə qeyd edir ki, Xaçaturyanın həbsi hamıya dərs olmalıdır, çox düzgün addımlar atmalıyıq: "Müharibədən sonra yaranan iqtisadi böhran Stepanakertdə (red.Xankəndi) insanları acınacaqlı vəziyyətlə üz-üzə qoyub. Evlərini satanlar, hətta intihar edənlər də olub. Xalqın taleyi Yerevandakıları maraqlandırmır. İlham Əliyev dediklərini həyata keçirir. Sözünə əməl edir. Kim bilir hələ nə qədər Vaqiflər həbs olunacaq".

"Tviter" sosial şəbəkəsində rəy bildirən Simon Qriqoryan adlı istifadəçi isə yazır: "Dünən qonşumuz Aşot dayının halı qəflətən pisləşdi. Soruşduq ki, nə olub ? Dedi ki, yaxın dostu, müharibədə bir yerdə olduqları tanışını azərbaycanlılar həbs ediblər. Sıranın ona da gələcəyindən qorxur. Babam deyirdi ki, türklərlə (red.azərbaycanlılar) çox yaxşı münasibətlərimiz olub. İstəyirsiniz, məni təhqir edin, öz fikrimdən dönməyəcəm. Müharibə canilərinə görə bu gün uşaqlarım niyə acından ölməlidir? Ailəmiz adından deyirəm ki, Azərbaycan vətəndaşı olmağa razıyıq. Qarabağda ağır məğlubiyyətə uğradıq, susduq. İndi yeməyə çörək tapmırıq, niyə zülmə məruz qalmağımızla barışmalıyıq?"

"Facebook" sosial şəbəkə istifadəçisi Daniel Mkrtçyan isə qeyd edir ki, Qarabağdakı erməni xalqına iş lazımdır: "Bu gün Stepanakertdə (red. Xankəndi) işsizlik və bahalaşma Hayastanın başlıca problemi olan demoqrafik böhranı daha da dərinləşdirir. Son günlərdə Stepanakerti tərk edənlərin sayı artmaqdadır. Nəticədə, yaxın gələcəkdə şəhərin tamamilə boşalması təhlükəsi ilə üz-üzə qalması reallaşa bilər. İlham Əliyev yenə çıxış yolunu açıqladı. Gəlin, vətəndaşlığı qəbul edin!"

Belə paylaşımlara sosial şəbəkənin erməni seqmentində çox rast gəlmək mümkündür. İndi seçim Qarabağın erməni əhalisindədir. Hayastan rəhbərliyi separatçı dəstələrin vasitəsilə əhaliyə qarşı qorxu, xof siyasətini davam etdirərsə, onda Azərbaycan tərəfindən daha sərt zərbələrə məruz qalacaq.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


## ELAN

# Ədliyyə Nazirliyinin Penitensiar xidmətinə qulluğa qəbulla bağlı növbəti

## MÜSAHİBƏ

Penitensiar xidmətin kiçik rəis heyəti vəzifələri üzrə vakant ştat vahidlərinin zəruri peşə keyfiyyətlərinə malik kadrlarla komplektləşdirilməsi məqsədilə Müsabiqə komissiyası tərəfindən müsahibə elan edilir.

Müsahibədə iştirak etmək istəyən, "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq şəxsi keyfiyyətlərinə, fiziki və peşə hazırlığına, sağlamlıq vəziyyətinə və təhsil səviyyəsinə görə xidmətdə qulluğa yararlı, əvvəllər məhkum edilməmiş, məhkəmə, prokurorluq, digər hüquq-mühafizə orqanları və ya başqa dövlət orqanlarında yol verdiyi nöqsanlara görə xaric edilməmiş, həqiqi hərbi xidmətini tam başa vurmuş, yaşı 20-dən aşağı 30-dan yuxarı olmayan Azərbaycan Respublikasının vətəndaşları cari ilin avqust ayının 7-dən sentyabr ayının 7-dək ərizə ilə Penitensiar xidmətə müraciət edə bilərlər. Ərizələri xidmətin elektron poçtu (info@penitensiar.justice.gov.az), "Azərpoçt" və ya xidmətin Bakı şəhəri, Nizami küçəsi, 114 ünvanında yerləşən inzibati binasındakı poçt qutusu vasitəsilə təqdim etmək mümkündür.

Seçim zamanı ali təhsilli, kompüter və xarici dil biliklərinə sahib, boyu ən azı 175 sm olan, yaxın qohumları məhkum edilməmiş kişi namizədlərə, həmçinin Ədliyyə Nazirliyində həqiqi hərbi xidmət keçmiş şəxslərə üstünlük veriləcək.

Müsahibədə iştirak etmək istəyən şəxslər ərizə nümunəsi ilə Penitensiar xidmətin internet səhifəsinin (http://penitensiar.justice.gov.az) "Xidmətə qəbul" bölməsində tanış ola bilərlər.

# Daxili İşlər Nazirliyinin Maddi-Texniki Təminat Baş İdarəsi geyim əmlaklarının və fərqlənmə nişanlarının satın alınması məqsədilə

## *açıq tender elan edir*

Tenderdə iştirak etmək istəyənlər iştirak üçün müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədini təqdim etdikdən sonra satınalma predmeti üzrə Əsas şərtlər toplusunu əlaqələndirici şəxsdən (iş vaxtı saat 09:00-dan 18:00-a kimi) ala bilərlər. Əlaqələndirici şəxs: Pərviz Abdullayev, telefon: 590-20-64. **Ünvan: Bakı şəhəri, Azadlıq pr., 161.**

**İştirak haqqı: 1000.00 AZN**

**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**

Dövlət Xəzinədarlığı Agentliyi
Kod: 210005
VÖEN: 1401555071
M/h: AZ41NABZ01360100000000003944
S.W.I.F.T Bik CTREAZ 22
DİN-in Maddi Texniki Təminat Baş İdarəsi
Hesab: AZ14CTRE00000000000002077706
VÖEN: 1500281641
Büdcə təsnifatının kodu: 142595 BSK 3

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

*1. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması.*
*2. Satınalma müqaviləsini bağlamaq səlahiyyəti olması.*
*3. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması, müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması.*
*4. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*
*5. Sahibkarlıq subyektinin bölgüsü.*
*6. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması.*
*7. Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır).*
*8. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır).*

**- Malgöndərənlər (podratçılar) ilkin sənədləri (1-6-ci bənddə göstərilən) 01.09.2023-cü il saat 15:00-dək Tender komissiyasına təqdim etməlidirlər. Ünvan: Bakı şəhəri, Azadlıq pr., 161.**

**- Malgöndərənlər (podratçılar) öz tender təkliflərini (7-8-ci bənddə göstərilən) 11.09.2023-cü il saat 15:00-dək təqdim etməlidirlər. Ünvan: Bakı şəhəri, Azadlıq pr., 161.**

**- Göstərilən tarixdən gec təqdim olunan təkliflər qəbul olunmayacaqdır.**

**- Tender təklifləri zərfləri 12.09.2023-cü il tarixdə saat 16:00-da DİN-in Maddi-Texniki Təminat Baş İdarəsinin inzibati binasında açılacaq. Ünvan: Bakı şəhəri, Azadlıq pr., 161.**

***Tender komissiyası***

# BİLDİRİŞ

"Xalq Sığorta" Açıq Səhmdar Cəmiyyətinin Baş ofisi 24 iyul 2023-cü il tarixdən etibarən öz fəaliyyətini Bakı şəhəri, Nərimanov rayonu, akademik Həsən Əliyev küçəsi, 24 ünvanında davam etdirir.

***"Xalq Sığorta" ASC***


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az



BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5434
Sifariş 1934

Qiyməti 40 qəpik